RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 84 (9539) 26 aprel 2024-cü il CÜMƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# Tarixi qardaşlıq və dostluq əlaqələrinin yeni dövrü

◆ Qırğızıstan Prezidenti Sadır Japarovun Azərbaycana dövlət səfəri



Qırğızıstan Prezidenti Sadır Japarovun aprelin 25-də Füzuli Beynəlxalq Hava Limanında qarşılanma mərasimi keçirilib.

Azərbaycan və Qırğızıstan prezidentləri Füzuli şəhərinin dağıdılmış yerlərinə baxıb, şəhərin baş planı ilə tanış olublar.

Daha sonra prezidentlər Ağdam şəhərində Pənahəli xanın sarayı və İmarət kompleksində görülən işlərlə tanış olublar.

Prezident İlham Əliyev və Prezident Sadır Japarov Ağdam Cümə məscidinin bərpadan sonra açılışında iştirak ediblər.

Azərbaycan və Qırğızıstan prezidentləri Ağdam Konfrans Mərkəzi ilə tanış olduqdan sonra Ağdamın Xıdırlı kənd tam orta məktəbinin təməlqoyma mərasimində iştirak ediblər.

İlham Əliyev və Sadır Japarov Ağdamda Şahbulaq qalasında olublar.

Sonra prezidentlər birgə nahar ediblər.

Bunula da Qırğızıstan Prezidentinin Azərbaycana dövlət səfəri başa çatıb.

→ 2-4

# Füzulidən Berlinə

## Prezident İlham Əliyev Almaniyaya işgüzar səfərə gedib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Almaniya Federativ Respublikasının Federal Kansleri Olaf Şoltsun dəvəti ilə "15-ci Petersberq İqlim Dialoqu"nun Yüksək Səviyyəli Seqmentində iştirak etmək üçün aprelin 25-də Füzuli şəhərindən Almaniyaya işgüzar səfərə gedib. AZƏRTAC xəbər verir ki, Berlin şəhərinin Brandenburq "Willy Brandt" Aeroportunda dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

# İlham Əliyevdən ədalət dərsi

## Prezident həqiqətləri açıqladı, vəziyyəti dəyərləndirdi, yeni əməkdaşlıq formatı təklif etdi və bəzi dairələrə ciddi mesajlar ünvanladı

Prezident yenə də sözünü açıq söylədi və heç nəyi gizlətmədi. Sülh danışıqlarına gəlincə, İlham Əliyev hər kəsin diqqətinə həqiqəti çatdıraraq dedi ki, bu gün sülh sazişinin imzalanmasına heç vaxt olmadığı qədər yaxınlıq var. İşğal zamanı buna heç vaxt bu qədər yaxın olmamışıq. Həmin vaxt baza prinsipləri üzərində belə razılığa gəlmək mümkün olmayıb. Hətta "Madrid prinsipləri" üzrə razılığa gəlinmədiyini xatırladan dövlət başçısı bildirdi ki, o zaman sülh sazişinin layihəsi belə yox idi: "İndi bizim sülh sazişinin necə olması ilə bağlı ümumi anlayışımız var. Biz, sadəcə, təfərrüatları işləməliyik. Lakin, əlbəttə, hər iki tərəfə vaxt lazımdır".

Dövlət başçısı COP29-dan əvvəl Azərbaycanla Ermənistan arasında razılaşmanın, ən azı baza prinsipləri ilə bağlı razılaşmanın əldə olunmasının tamamilə real göründüyünü dedi: "Hesab edirəm ki, baza prinsipləri ilə bağlı razılığa gəlmək və sonra məzmunun təfərrüatlarına daha çox vaxt ayırmaq da bir variantdır. Lakin hətta layihə hazır olsa da, düşünürəm ki, bunun üçün hər iki tərəf gərgin işləməli və ola bilsin görüşləri bir gün deyil, bir neçə gün keçirməlidir".

Tarixi proseslərdən, dəyişməyən erməni xislətindən də bəllidir ki, Hayastan əksər zamanlarda aman diləsə də, zaman keçdikcə məkrli oyunlarını yenə işə salıb. Prezidentin fikirlərindən aydın olduğu kimi, artıq ermənilər də "Dağlıq Qarabağ" amilinin olmaması və bu adın sülh sazişinə daxil edilməməsi ilə razılaşıblar. Bu o deməkdir ki, əsas maneə artıq mövcud deyil. Yox, əgər onlar o qədər də vacib olmayan bəzi terminlərdən yapışsalar, onda bəlli olacaq ki, bu, vaxtdan istifadə edərək daha çox silahlanmaq və Azərbaycana yenidən hücum etmək planının tərkib hissəsi imiş. Lakin əlbəttə ki, onlara belə bir şans verilməyəcək.

Son zamanlarda baş verən proseslər də göstərir ki, Ermənistan sülhə hazır olduğunu söyləsə də, silahlanmaqda davam edir. Prezident bu ölkəyə silah-sursat verən dövlətlərin adını çəkərək bir daha xəbərdarlığını ünvanladı: "Fransa, Hindistan və Yunanıstan Ermənistanı bizə qarşı silahlandırır. Özü də onlar bunu açıq və nümayişkaranə şəkildə edirlər və hətta çalışırlar ki, bununla bizə nə isə sübuta yetirsinlər. Biz sadəcə oturub gözləyə bilmərik. Biz bu mövqeyi açıq şəkildə Ermənistan hökumətinə və Ermənistanın bu gün qayğısına qalmağa çalışan tərəflərə bildirmişik. Əgər özümüzə ciddi təhdid görsək, biz ciddi tədbirlər görməli olacağıq".

→ 9

## Qırğızıstan Prezidenti Sadır Japarovun Azərbaycana dövlət səfəri

# Tarixi qardaşlıq və dostluq

## Füzuli Beynəlxalq Hava Limanında qarşılanma






**Azərbaycan Respublikasında dövlət səfərində olan Qırğız Respublikasının Prezidenti Sadır Japarov aprelin 25-də Füzuli rayonuna gəlib.**

AZƏRTAC xəbər verir ki, Füzuli Beynəlxalq Hava Limanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü. Qırğız Respublikasının Prezidenti Sadır Japarovu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev qarşıladı.

## Azərbaycan və Qırğızıstan prezidentləri Füzuli şəhərinin dağıdılmış yerlərinə baxıb, şəhərin baş planı ilə tanış olublar

**Aprelin 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qırğız Respublikasının Prezidenti Sadır Japarov Füzuli şəhərinin dağıdılmış yerlərinə baxıb və şəhərin baş planı ilə tanış olublar.**

AZƏRTAC xəbər verir ki, Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov Qırğızıstan Prezidenti Sadır Japarova işğalçı Ermənistanın 30 il ərzində Füzuli rayonunun ərazisində törətdiyi dağıntılar, vandalizm aktları barədə məlumat verdi. Qeyd edildi ki, inşa olunacaq Füzuli Memorial Kompleksində dağıdılmış binaların xarabalıqları olduğu kimi qorunub saxlanılacaq. Kompleksdə İşğal və Zəfər muzeyləri yaradılacaq.

Sonda dövlət başçılarına Füzulinin baş planına uyğun olaraq həyata keçirilən və görüləcək işlər barədə məlumat verildi.

Bildirildi ki, baş planda 2040-cı ilədək Füzuli şəhərinin inzibati ərazisinin 1943 hektara, əhalisinin 50 min nəfərə çatdırılması nəzərdə tutulur. Müasir standartlara və memarlıq xüsusiyyətlərinə uyğun inşa ediləcək Füzuli işğaldan azad edilmiş ərazilərdə ən böyük şəhərlərdən biri olacaq. Füzuli şəhərinin dayanıqlı inkişafına, sakinlərin və sahibkarların rifahına töhfə verəcək





rəqəmsal həllərdən istifadə etməklə, ənənəvi şəbəkə və xidmətlərin daha səmərəli olmasının təmin edilməsi məqsədilə hazırlanmış "ağıllı şəhər" konsepsiyası irəli sürülüb. Şəhərdə rahat və müasir həyat şəraitinin təmin edilməsi üçün orta və azmərtəbəli yaşayış binaları, həyətyanı torpaq sahələri olan fərdi evlər inşa ediləcək, təhsil, səhiyyə, mədəniyyət, istehsalat müəssisələri, rekreasiya və digər təyinatlı zonalar yaradılacaq. Burada şəhərsalmanın bütün müasir tələblərinə cavab verəcək üç yaşayış kompleksi inşa olunur. Komplekslərdə ümumilikdə 2462 mənzil olacaq. Baş plana əsasən, təxminən 22,5 hektar ərazidə Mərkəzi park yaradılacaq. Parkda istirahət zonaları, botanika bağı, sıx meşə zonası, piknik və idman meydançaları, "Poeziya" meydanı, amfiteatr, kafe-restoranlar və s. fəaliyyət göstərəcək. Burada müayinə və müalicənin yüksək səviyyədə aparılması üçün ən müasir tibbi avadanlıqla təchiz ediləcək 180 çarpayılıq Füzuli Rayon Mərkəzi Xəstəxanası inşa olunacaq.

Vurğulandı ki, ötən ilin avqustunda Füzuli şəhərində Özbəkistanın hədiyyəsi olan 960 şagird yerlik Mirzə Uluqbəy adına məktəbin, bu ilin martında Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinin istifadəyə verilməsi, eləcə də Prezident Sadır Japarovun təşəbbüsü ilə Ağdam rayonunda Qırğızıstan tərəfindən tikiləcək orta məktəbin təməlinin qoyulması ölkələrimizin və xalqlarımızın dostluğunun, qardaşlığının sarsılmazlığının parlaq nümunələridir.

Həmçinin bildirildi ki, 2021-ci ilin oktyabrında təməli qoyulan və inşası sürətlə davam edən Ağdam-Füzuli avtomobil yolu Qarabağ iqtisadi rayonu ərazisində icra olunan, işğaldan azad edilmiş rayon və kəndlərin sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq layihələrdən biri sayılır. Bərdə-Ağdam avtomobil magistralının davamı olan bu yolun uzunluğu 64,8 kilometrdir.

## Azərbaycan və Qırğızıstan prezidentləri Ağdam şəhərində olublar



**Aprelin 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qırğız Respublikasının Prezidenti Sadır Japarov Ağdam şəhərində olublar.**

AZƏRTAC xəbər verir ki, dövlət başçılarına şəhərin baş planı barədə məlumat verildi.

Bildirildi ki, bir vaxtlar qaynar həyatın olduğu, əməksevər insanların qurub-yaratdıqları abad şəhərdən əsər-əlamət qalmayıb. Erməni işğalçılar xislətlərinə uyğun olaraq, Ağdamın ağ damlarını xarabalığa çevirib, şəhəri yerlə yeksan ediblər. Buna görə Ağdamı "Qafqazın Xirosiması" adlandırırlar.

Məlumat verildi ki, Ermənistan silahlı qüvvələrinin daşı-daş üstə qoymadığı Ağdam şəhəri Azərbaycan dövləti tərəfindən yenidən salınır. Müasir şəhərsalma həlləri əsas götürülməklə yeni şəhər inşa olunur. Ağdamın bərpası konsepsiyasında şəhərin turizm potensialı da nəzərə alınaraq, ona uyğun infrastruktur yaradılır. Bu məqsədlə "Agdam City Hotel" və "Hilton Garden Inn" layihələri icra edilir. Şəhərdə İşğal və Zəfər muzeyləri kompleksi də yaradılır. Kompleks İşğal muzeyindən başlayacaq və Zəfər muzeyi ilə başa çatacaq. Onların arasında isə Xatirə bağı yerləşəcək. Ərazidə dağıntılar olduğu kimi saxlanılacaq. Muzey erməni vandallığının və işğal tarixinin şahidi olaraq gələcək nəsillərə Ağdamın 30 illik acı taleyini çatdıracaq, tarixi həqiqətləri unutmağa imkan verməyəcək.

Həmçinin qeyd olundu ki, şəhərin mərkəzi hissəsində 960 yerlik ümumtəhsil məktəbi də tikiləcək. Muğam Mərkəzi isə birmərtəbəli və ikimərtəbəli bloklardan ibarət olacaq.

Bildirildi ki, şəhərdə salınacaq Mərkəzi park üçün 5 hektar ərazi ayrılıb. Parkın ərazisi 4 zonaya bölünüb və insanların asudə vaxtlarının səmərəli keçirmələri üçün lazımi şərait yaradılacaq.

## Ağdamda Pənahəli xanın sarayı və İmarət kompleksində görülən işlərlə tanışlıq







**Aprelin 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qırğız Respublikasının Prezidenti Sadır Japarov Ağdamda Pənahəli xanın sarayı və İmarət kompleksində görülən işlərlə tanış olublar.**

AZƏRTAC xəbər verir ki, mədəniyyət naziri Adil Kərimli görülən işlər barədə dövlət başçılarına məlumat verdi.

Bildirildi ki, Ağdam rayonunda erməni vandalizminə məruz qalan tarixi-memarlıq abidələrindən biri də Qarabağ xanlığının banisi Pənahəli xanın sarayıdır. XVIII əsrə aid bu tarix-memarlıq abidəsi xan nəslinin ilk mülklərindəndir. Kompleksin ərazisinə tarixi abidələr, Pənahəli xanın iqamətgahı, qonaq evi, Mehdiqulu xanın məqbərəsi, Xanoğlan məqbərəsi, İbrahim xanın məqbərəsi, Pənahəli xanın məqbərəsi, Xurşidbanu Natəvanın abidəsi və qəbiristanlıq daxildir. Xan sarayının yaxınlığında yerləşən və Qarabağ xan nəslinin bir çox nümayəndələrinin dəfn edildiyi İmarət qəbiristanlığı erməni vəhşiliyinin canlı şahididir. Ağdam şəhəri işğal olunduqdan sonra İbrahimxəlil xanın türbəsi və Xurşidbanu Natəvanın qəbirüstü abidəsi ermənilər tərəfindən dağıdılıb.





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq tapşırığına əsasən, bu kompleksin bərpası işlərinə başlanılıb. Həmçinin 2022-ci il oktyabrın 4-də XIX əsr Azərbaycan romantik şeirinin görkəmli nümayəndəsi, şair, rəssam, xan qızı Xurşidbanu Natəvanın qəbirüstü abidəsinin bərpadan sonra açılışı olub.

İlkin konsepsiyaya əsasən, kompleks Pənahəli xanın sarayı, məqbərələr, kassa, məlumat mərkəzi və Qarabağ atları parkından ibarət olacaq. Pənahəli xanın sarayı bərpa edilərək interaktiv muzey kimi fəaliyyət göstərəcək.

Sonra dövlət başçıları Qarabağ atlarına baxdılar.

Azərbaycan Prezidenti İlham Əliyev Qırğızıstan Prezidenti Sadır Japarova Qarabağ atı hədiyyə etdi.

## Qırğızıstan Prezidenti Sadır Japarovun Azərbaycana dövlət səfəri

# əlaqələrinin yeni dövrü

## Prezident İlham Əliyev və Prezident Sadır Japarov Ağdam Cümə məscidinin bərpadan sonra açılışında iştirak ediblər

**Aprelin 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qırğız Respublikasının Prezidenti Sadır Japarov Ağdam Cümə məscidinin bərpadan sonra açılışında iştirak ediblər.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Prezidentinin köməkçisi Anar Ələkbərov dövlət başçılarına məsciddə görülən işlər barədə məlumat verdi.

Diqqətə çatdırıldı ki, işğaldan azad olunan ərazilərdə tarixi-mədəni və dini abidələrin bərpası layihələri çərçivəsində Ağdam Cümə məscidindəki işlər yekunlaşıb və məscid əvvəlki görkəminə qaytarılıb. Ağdam şəhərindəki Cümə məscidi memar Kərbəlayı Səfixan Qarabaği tərəfindən 1868-1870-ci illərdə tikilib. Şəhər Ermənistan silahlı qüvvələrinin işğalı altında olduğu müddətdə Cümə məscidi ermənilər tərəfindən yandırılaraq vandalizmə məruz qalmışdı.





Torpaqlarımız işğaldan azad olunduqdan sonra 2022-ci ilin martından Ağdam Cümə məscidinin bərpasına başlanılıb. Konservasiya və restavrasiya işləri məscidin ilkin memarlıq üslubuna uyğun olaraq Heydər Əliyev Fondu tərəfindən aparılıb. "PAŞA Holdinq" şirkətinin dəstəyi ilə aparılan bərpa işlərinə yerli mütəxəssislərlə yanaşı, xarici mütəxəssislər, Avstriyanın "Brugger&KO Restauratoren GmbH" şirkəti də cəlb olunmuşdu.

Restavrasiya prosesinin qüsursuz yerinə yetirilməsi məqsədilə ilkin tikinti zamanı istifadə olunan materiallar avstriyalı ekspertlər tərəfindən araşdırılıb. Ərazidəki dağıntılar aradan qaldırılıb, məscidin daxilində sütunların və kənar divarların yanında kəşfiyyat qazıntıları, giriş hissəsindəki tarixi daş döşəmənin üzə çıxarılması, tarixi və texniki tələblər əsasında müvafiq suvaq nümunələrinin və laboratoriya analizləri əsasında boya nümunələrinin yaradılması, sınıq günbəzin və tağların taxta konstruksiyalarla bərkidilməsi işləri yerinə yetirilib.



Məscidin eyvan divarlarında daş və birləşmələr qeyri-təbii materiallardan təmizlənərək bərpa olunub, həmçinin bünövrələrin möhkəmləndirilməsi işləri aparılıb. Qırıq minarə daşları bərpa olunub, taxta konstruksiyaların bərpası və konservasiyası işləri görülüb.

Qeyd edək ki, işğal dövründə - 2000-ci il mayın 9-da Ümummilli Lider Heydər Əliyevə təqdim olunmuş Ağdam Cümə məscidinə aid daş parçası da burada nümayiş etdirilir.

Damdakı günbəzlərin zədələnmiş suvağının aradan qaldırılması, günbəzlərin və anbarların əhəng suyu və əhəng qatı ilə gücləndirilməsi, divar tacının yenidən qurulması və uyğun təbii daşlarla doldurulması prosesi tamamlanıb. Məscidin içindəki daşlar, giriş qapısı bərpa olunub, fasadı tarixi görkəminə uyğun restavrasiya edilib.



## Azərbaycan və Qırğızıstan prezidentləri Ağdam Konfrans Mərkəzi ilə tanış olublar

**Aprelin 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qırğız Respublikasının Prezidenti Sadır Japarov Ağdam Konfrans Mərkəzi ilə tanış olublar.**



AZƏRTAC xəbər verir ki, dövlət başçılarına mərkəzdə yaradılan şərait barədə məlumat verildi. Bildirildi ki, Konfrans Mərkəzi Ağdam rayonu işğaldan azad edildikdən sonra inşa olunub. Ağdam Konfrans Mərkəzində müasir tələblərə uyğun tədbirlərin - konfransların, seminarların, forumların, simpoziumların, işgüzar görüşlərin, konsertlərin keçirilməsi üçün hər cür şərait yaradılıb. Mərkəz artıq beynəlxalq və yerli tədbirlərə evsahibliyi edir.

Dövlət başçıları Ağdam, Füzuli və Xocavənddə görülən işlərdən, eləcə də bu rayonlarda həyata keçiriləcək layihələrdən bəhs edən videoçarxa baxdılar.



## Azərbaycan və Qırğızıstan prezidentləri Ağdamın Xıdırlı kənd tam orta məktəbinin təməlqoyma mərasimində iştirak ediblər

**Aprelin 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qırğız Respublikasının Prezidenti Sadır Japarov Ağdam rayonunun Xıdırlı kənd tam orta məktəbinin birgə təməlqoyma mərasimində iştirak ediblər.**



AZƏRTAC xəbər verir ki, mərasimin keçirildiyi ərazidə quraşdırılan yurtada qırğız xalq musiqisi və milli mətbəxinin nümunələri nümayiş etdirildi.

Dövlət başçılarına layihə barədə məlumat verildi.

Bildirildi ki, Xıdırlı kənd tam orta məktəbinin inşası üçün 2,7 hektar ərazi ayrılıb. İki yerüstü və bir yeraltı mərtəbədən ibarət olacaq binada 22 kabinet yaradılacaq. Məktəbdə həmçinin idman və akt zalları, 2 əmək kabineti, kitabxana, fizika, kimya və biologiya laboratoriyaları, 2 informatika kabineti, ilkin hərbi hazırlıq kabineti istifadəyə veriləcək. Məktəbin ərazisində idman meydançası, köşk, kiçik skamyalar, qazanxana yaradılacaq. Tikinti işlərinin 2024-cü ilin sonunadək başa çatdırılması planlaşdırılır.



Ardı 4-cü səh.

## Qırğızıstan Prezidenti Sadır Japarovun Azərbaycana dövlət səfəri

# Tarixi qardaşlıq və dostluq əlaqələrinin yeni dövrü

## Azərbaycan və Qırğızıstan prezidentləri Ağdamın Xıdırlı kənd tam orta məktəbinin təməlqoyma mərasimində iştirak ediblər



*Əvvəli 3-cü səh.*

Azərbaycan Prezidenti İlham Əliyev və Qırğızıstan Prezidenti Sadır Japarov Xıdırlı kənd tam orta məktəbinin təməlini qoydular.

Qeyd edək ki, Azərbaycan və qırğız xalqları arasında tarixən ənənəvi dostluq və qardaşlıq əlaqələri mövcud olub. İki ölkənin möhkəm təməllər üzərində qurulan münasibətləri yüksələn xətlə inkişaf edir. Qırğızıstan Prezidentinin təşəbbüsü ilə Qırğızıstan dövləti adından Ağdamın Xıdırlı kəndində tam orta məktəb binasının inşası iki ölkə arasında sarsılmaz qardaşlıq münasibətlərinin göstəricisidir.

Dövlət başçıları inşaatçılarla xatirə şəkli çəkdirdilər.





## Prezidentlər İlham Əliyev və Sadır Japarov Ağdamda Şahbulaq qalasında olublar

**Aprelin 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qırğız Respublikasının Prezidenti Sadır Japarov Ağdamda Şahbulaq qalasında olublar.**

AZƏRTAC xəbər verir ki, dövlət başçılarına qalanın bərpası işləri barədə məlumat verildi.

Bildirildi ki, XVIII əsrə aid bu qala Qarabağ ərazisindəki ən məşhur abidələrdən biridir. Ağdam şəhərinin 10 kilometrliyində, Şahbulaq kəndi yaxınlığında yerləşən qala 1751-1752-ci illərdə Qarabağ xanlığının banisi Pənahəli xan tərəfindən inşa etdirilib. Elmi ədəbiyyatda "Şahbulaq qəsri" adı ilə tanınan abidə, əslində, iri qəsr kompleksinin iç qalası olub. Kompleks yaşayış evlərindən, bazar, hamam və məsciddən ibarət idi. Pənahəli xan Şuşa qalasını inşa etdirənədək Şahbulaq qalası Qarabağ xanlığının inzibati mərkəzi olub. Ermənilər Ağdamı işğal etdikdən sonra bir sıra abidələrimiz kimi Şahbulaq qalasını da erməniləşdirməyə çalışıb, yaxınlıqdakı məscidi isə kilsə kimi təqdim ediblər.

Hazırda abidədə Azərbaycan dövləti tərəfindən bərpa işləri aparılır. Burada 12 hektar ərazi abadlaşdırılıb, inzibati bina, bilet satışı məntəqəsi, avtodayanacaq tikilib. Şahbulaq iqamətgahı, Şah Abbas məscidi, restoran, hotel kompleksi, söhbətgahlar, tədbir meydançası və anbar binası yaradılıb.

Dövlət başçıları Şahbulaq qalasının həyətində təndir çörəyinin və qutabın bişirilməsinə baxdılar.





## Azərbaycan və Qırğızıstan prezidentləri birgə nahar ediblər



Aprelin 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qırğız Respublikasının Prezidenti Sadır Japarov birgə nahar ediblər.

## Qırğızıstan Prezidentinin Azərbaycana dövlət səfəri başa çatıb

**Qırğız Respublikasının Prezidenti Sadır Japarovun Azərbaycan Respublikasına dövlət səfəri aprelin 25-də başa çatıb.**

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Füzuli Beynəlxalq Hava Limanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.



Prezident Sadır Japarovu Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov, Prezidentin xüsusi nümayəndəsi Emin Hüseynov və digər rəsmi şəxslər yola saldılar.

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 226** **QƏRAR** **Bakı şəhəri, 24 aprel 2024-cü il**

## “Azərbaycan Dövlət Aqrar Universiteti” publik hüquqi şəxsin nəzdində “Gəncə Dövlət Aqrar Kolleci” publik hüquqi şəxsin yaradılması haqqında

"Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 97-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 3 fevral tarixli 759 nömrəli Fərmanının 2.5.2-ci yarımbəndinə uyğun olaraq, Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin təklifinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində fəaliyyət göstərən "Azərbaycan Dövlət Aqrar Universiteti" publik hüquqi şəxsin nəzdində "Gəncə Dövlət Aqrar Kolleci" publik hüquqi şəxs yaradılsın.

2. Bu Qərarın 1-ci hissəsi ilə yaradılan publik hüquqi şəxsin təsisçisinin səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilsin:

2.1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə publik hüquqi şəxsin yenidən təşkili və ləğv edilməsi;

2.2. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyinə bu Qərarın 2.1-ci bəndində qeyd edilənlər istisna olmaqla, "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikası Qanununun 8.2-ci maddəsi ilə publik hüquqi şəxsin təsisçisinin səlahiyyətlərinə aid edilmiş digər məsələlərin həll edilməsi.

3. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi:

3.1. Gəncə Dövlət Aqrar Kollecinin dövlət qeydiyyatına alınması üçün "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada tədbirlər görsün;

3.2. bu Qərardan irəli gələn digər məsələləri həll etsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 227** **QƏRAR** **Bakı şəhəri, 24 aprel 2024-cü il**

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Uşaqların dövlət və bələdiyyə tərəfindən yaradılan ailə tipli kiçik qrup evlərinə qəbulu, qrup evlərini tərk etməsi, qrup evlərində xidmətin təşkili, həmçinin qrup evlərində uşaqların təminatı və yaşayış şəraitinə dair Qaydalar”ın təsdiq edilməsi haqqında” 2021-ci il 26 aprel tarixli 111 nömrəli və “Uşaqların dövlət və bələdiyyə tərəfindən yaradılan uşaq evləri sosial xidmət müəssisələrinə qəbulu, həmin müəssisələri tərk etməsi, uşaq evlərində xidmətin təşkili, həmçinin uşaq evlərində uşaqların təminatı və yaşayış şəraitinə dair Qaydalar”ın təsdiq edilməsi haqqında” 2021-ci il 26 aprel tarixli 112 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 26 aprel tarixli 111 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 4, maddə 414 (Cild I); 2024, № 1, maddə 110) ilə təsdiq edilmiş "Uşaqların dövlət və bələdiyyə tərəfindən yaradılan ailə tipli kiçik qrup evlərinə qəbulu, qrup evlərini tərk etməsi, qrup evlərində xidmətin təşkili, həmçinin qrup evlərində uşaqların təminatı və yaşayış şəraitinə dair Qaydalar"ın 2.3.10-cu yarımbəndi aşağıdakı redaksiyada verilsin:

"2.3.10. aktiv hava-damcı yolu ilə keçən və ya dəri-zöhrəvi yoluxucu xəstəliklərin olmaması, habelə təhlükəli yoluxucu xəstəliklər və psixi sağlamlıq vəziyyəti barədə məlumat göstərilməklə, uşağın sağlamlığı haqqında tibbi arayış.".

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 26 aprel tarixli 112 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 4, maddə 415 (Cild I); 2024, № 1, maddələr 75, 110) ilə təsdiq edilmiş "Uşaqların dövlət və bələdiyyə tərəfindən yaradılan uşaq evləri sosial xidmət müəssisələrinə qəbulu, həmin müəssisələri tərk etməsi, uşaq evlərində xidmətin təşkili, həmçinin uşaq evlərində uşaqların təminatı və yaşayış şəraitinə dair Qaydalar"ın 2.3.10-cu yarımbəndi aşağıdakı redaksiyada verilsin:

"2.3.10. aktiv hava-damcı yolu ilə keçən və ya dəri-zöhrəvi yoluxucu xəstəliklərin olmaması, habelə təhlükəli yoluxucu xəstəliklər və psixi sağlamlıq vəziyyəti barədə məlumat göstərilməklə, uşağın sağlamlığı haqqında tibbi arayış.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 228** **QƏRAR** **Bakı şəhəri, 24 aprel 2024-cü il**

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsinin yaxşılaşdırılması tədbirləri haqqında” 2001-ci il 7 noyabr tarixli 179 nömrəli, “Dövlət məktəbəqədər təhsil müəssisələrində təhsilalanların sosial müdafiəsi Qaydası”nın təsdiq edilməsi haqqında” 2017-ci il 29 dekabr tarixli 622 nömrəli, “Uşaqların dövlət və bələdiyyə tərəfindən yaradılan ailə tipli kiçik qrup evlərinə qəbulu, qrup evlərini tərk etməsi, qrup evlərində xidmətin təşkili, həmçinin qrup evlərində uşaqların təminatı və yaşayış şəraitinə dair Qaydalar”ın təsdiq edilməsi haqqında” 2021-ci il 26 aprel tarixli 111 nömrəli və “Uşaqların dövlət və bələdiyyə tərəfindən yaradılan uşaq evləri sosial xidmət müəssisələrinə qəbulu, həmin müəssisələri tərk etməsi, uşaq evlərində xidmətin təşkili, həmçinin uşaq evlərində uşaqların təminatı və yaşayış şəraitinə dair Qaydalar”ın təsdiq edilməsi haqqında” 2021-ci il 26 aprel tarixli 112 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsinin yaxşılaşdırılması tədbirləri haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 7 noyabr tarixli 179 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 11, maddə 719 (Cild I); 2024, № 1, maddə 123) 2-ci hissəsinin üçüncü abzasında "Bütün tipdən olan internat məktəblərdə, əqli və ya fiziki cəhətdən qüsurlu uşaqlar üçün internat məktəblərdə, uşaq evlərində, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum uşaqlar üçün internat məktəblərdə tərbiyə olunan uşaq və yeniyetmələrin" sözləri "İnternat tipli ümumi təhsil müəssisələrində təhsilalanlar və dövlət və ya bələdiyyə tərəfindən yaradılan uşaq evləri, ailə tipli kiçik qrup evləri sosial xidmət müəssisələrində tərbiyə olunan uşaqların" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 29 dekabr tarixli 622 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 12 (II kitab), maddə 2567 (Cild I) ilə təsdiq edilmiş "Dövlət məktəbəqədər təhsil müəssisələrində təhsilalanların sosial müdafiəsi Qaydası"nın 2.1.3-cü yarımbəndində "Bütün tipdən olan internat məktəblərdə, əqli və ya fiziki cəhətdən pozuntusu olan uşaqlar üçün internat məktəblərdə, uşaq evlərində, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olan uşaqlar üçün internat məktəblərdə tərbiyə olunan uşaq və yeniyetmələrin geyim, ayaqqabı," sözləri "İnternat tipli ümumi təhsil müəssisələrində təhsilalanlar və dövlət və ya bələdiyyə tərəfindən yaradılan uşaq evləri, ailə tipli kiçik qrup evləri sosial xidmət müəssisələrində tərbiyə olunan uşaqların geyim, ayaqqabı və" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 26 aprel tarixli 111 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 4, maddə 414 (Cild I); 2024, № 1, maddə 110) ilə təsdiq edilmiş "Uşaqların dövlət və bələdiyyə tərəfindən yaradılan ailə tipli kiçik qrup evlərinə qəbulu, qrup evlərini tərk etməsi, qrup evlərində xidmətin təşkili, həmçinin qrup evlərində uşaqların təminatı və yaşayış şəraitinə dair Qaydalar"ın 3.8.2-ci yarımbəndində "Bütün tipdən olan internat məktəblərdə, əqli və ya fiziki cəhətdən pozuntusu olan uşaqlar üçün internat məktəblərdə, uşaq evlərində, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum uşaqlar üçün internat məktəblərdə tərbiyə olunan uşaq və yeniyetmələrin" sözləri "İnternat tipli ümumi təhsil müəssisələrində təhsilalanlar və dövlət və ya bələdiyyə tərəfindən yaradılan uşaq evləri, ailə tipli kiçik qrup evləri sosial xidmət müəssisələrində tərbiyə olunan uşaqların" sözləri ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 26 aprel tarixli 112 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 4, maddə 415 (Cild I); 2024, № 1, maddələr 75, 110) ilə təsdiq edilmiş "Uşaqların dövlət və bələdiyyə tərəfindən yaradılan uşaq evləri sosial xidmət müəssisələrinə qəbulu, həmin müəssisələri tərk etməsi, uşaq evlərində xidmətin təşkili, həmçinin uşaq evlərində uşaqların təminatı və yaşayış şəraitinə dair Qaydalar"ın 3.7.2-ci yarımbəndində "Bütün tipdən olan internat məktəblərdə, əqli və ya fiziki cəhətdən pozuntusu olan uşaqlar üçün internat məktəblərdə, uşaq evlərində, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum uşaqlar üçün internat məktəblərdə tərbiyə olunan uşaq və yeniyetmələrin" sözləri "İnternat tipli ümumi təhsil müəssisələrində təhsilalanlar və dövlət və ya bələdiyyə tərəfindən yaradılan uşaq evləri, ailə tipli kiçik qrup evləri sosial xidmət müəssisələrində tərbiyə olunan uşaqların" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 229** **QƏRAR** **Bakı şəhəri, 24 aprel 2024-cü il**

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 6 noyabr tarixli 177 nömrəli Qərarı ilə təsdiq edilmiş “Dövlət müəssisə və təşkilatlarının, habelə nizamnamə kapitalında dövlətin payı olan müəssisələrin balansında olan yararsız hala düşmüş, həmçinin oğurlanmış və ya naməlum şəraitdə itmiş əsas vəsaitlərin (fondların) silinməsi və bu vəsaitlərin söküntüsündən əldə edilən material qiymətlilərinin satışı üzrə Qaydalar”da dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 6 noyabr tarixli 177 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 11, maddə 965 (Cild I) ilə təsdiq edilmiş "Dövlət müəssisə və təşkilatlarının, habelə nizamnamə kapitalında dövlətin payı olan müəssisələrin balansında olan yararsız hala düşmüş, həmçinin oğurlanmış və ya naməlum şəraitdə itmiş əsas vəsaitlərin (fondların) silinməsi və bu vəsaitlərin söküntüsündən əldə edilən material qiymətlilərinin satışı üzrə Qaydalar"da aşağıdakı dəyişikliklər edilsin:

1. 2.5-ci bəndin birinci cümləsində "25,0 milyon" sözləri "5000" rəqəmləri ilə əvəz edilsin və həmin bəndin ikinci cümləsində "Əmlak Məsələləri Dövlət Komitəsinin" sözləri "İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin (bundan sonra - Xidmət)" sözləri ilə əvəz edilsin.

2. 2.6-cı bənddə "25,0 milyon" sözləri "5000" rəqəmləri ilə və həmin bənddə "Əmlak Məsələləri Dövlət Komitəsindən" sözləri "Xidmətdən" sözü ilə əvəz edilsin.

3. 2.7-ci bənddə "avtomobil nəqliyyatı" sözləri "daşınmaz dövlət əmlakı və nəqliyyat" sözləri ilə, həmin bənddə və 2.8-ci bəndin birinci abzasında ismin müvafiq hallarında "Əmlak Məsələləri Dövlət Komitəsi" sözləri ismin müvafiq hallarında "Xidmət" sözü ilə əvəz edilsin.

4. 2.9-cu bəndin birinci abzasında "gündən gec olmayaraq" sözləri "gün müddətində, əlavə araşdırma tələb edilən hallarda isə 15 gün müddətinə uzadılmaqla" sözləri ilə və həmin bəndin birinci və ikinci abzaslarında "Əmlak Məsələləri Dövlət Komitəsi" sözləri "Xidmət" sözü ilə əvəz edilsin.

5. Aşağıdakı məzmunda 2.9-1-ci bənd əlavə edilsin:

"2.9-1. Təqdim edilmiş sənəd və məlumatların ilkin təhlili zamanı balansdan silinməsi nəzərdə tutulan əsas vəsaitlərin istismara və digər sahələrdə istifadəyə yararlılığı müəyyən edildiyi halda, həmin əsas vəsaitlərin (fondların) səmərəli istifadə imkanlarının araşdırılması məqsədilə bu Qaydanın 2.9-cu bəndi ilə müəyyən edilmiş müddət ərzində yerində baxış keçirilir və baxış aktı tərtib edilir. Balansdan silinməsi nəzərdə tutulan əsas vəsaitlərə (fondlara) baxış keçirilməsi üçün zəruri şərait yaradılması balanssaxlayıcı tərəfindən təmin edilir.

Xidmətin rəsmi qaydada müsbət rəyi alınanadək silinməyə təqdim edilmiş əsas vəsaitlərin mövcud vəziyyətinin qorunub saxlanılmasına görə balanssaxlayıcı mülki məsuliyyət daşıyır.

Balansdan silinməsi nəzərdə tutulan daşınmaz dövlət əmlakının vəziyyətinin qənaətbəxş və səmərəli istifadə imkanlarının olduğu müəyyən edilərsə, balanssaxlayıcı və Xidmət tərəfindən həmin daşınmaz dövlət əmlaklarının səmərəli istifadəsinin təmin edilməsi istiqamətində Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 iyun tarixli 586 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında dövlət əmlakının idarə edilməsinin təkmilləşdirilməsi üzrə Dövlət Proqramı"na uyğun olaraq zəruri tədbirlər görülür.

Balansdan silinməsi nəzərdə tutulan daşınar dövlət əmlakının (o cümlədən nəqliyyat vasitələrinin və ya onların hissələrinin) tərtib edilmiş baxış aktına əsasən istifadəyə və ya satışa yararlı olması müəyyən edilərsə, həmin əmlakın açıq hərrac yolu ilə satışı həyata keçirilir.".

6. 2.11-ci bənd aşağıdakı redaksiyada verilsin:

"2.11. Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyən edilmiş hallar istisna olmaqla, xüsusi əhəmiyyətli əsas vəsaitlərin (fondların) silinməsi barədə Xidmət tərəfindən rəy Azərbaycan Respublikasının Nazirlər Kabineti ilə razılaşdırılmaqla verilir.

Xüsusi əhəmiyyətli əsas vəsaitlərin (fondların) silinməsinin razılaşdırılması məqsədilə zəruri sənəd və məlumatlar Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim edilir.".

7. 2.14-cü bənddə "Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin" sözləri "Xidmətin" sözü ilə əvəz edilsin.

8. Aşağıdakı məzmunda 3.5-ci bənd əlavə edilsin:

"3.5. Əsas vəsaitlərin (fondların) söküntüsündən əldə edilən mal-materialların və metal qırıntılarının satışından sonra 10 (on) iş günü müddətində təsdiqedici sənəd və məlumatlar balanssaxlayıcı və ya baş idarəetmə orqanı tərəfindən Xidmətə təqdim edilir.".

9. Həmin Qaydalara 1 nömrəli əlavədə "ƏMLAKIN (QİYMƏTLİLƏRİN) LƏĞVİ AKTI" cədvəlinə "Məbləği" sütunundan sonra "Qalıq balans dəyəri" sütunu əlavə edilsin və həmin əlavənin "Qeyd" hissəsinin ikinci abzasında "25 milyon manatadək (25 milyon manatdan yuxarı olduğu halda Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin müvafiq rəyi əsasında)" sözləri "5000 manatadək (5000 manatdan yuxarı olduğu halda Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin müvafiq rəyi əsasında)" sözləri ilə əvəz edilsin.

10. Həmin Qaydalara 2 nömrəli əlavədə "AVTOMOBİL NƏQLİYYATI VASİTƏLƏRİNİN LƏĞVİ AKTI"nın adında "AVTOMOBİL NƏQLİYYATI" sözləri "NƏQLİYYAT" sözü ilə, mətnində "avtomobil nəqliyyatı" və "avtonəqliyyat" sözləri "nəqliyyat" sözü ilə əvəz edilsin və həmin əlavənin "Qeyd" hissəsinin ikinci abzasında "Əmlak Məsələləri Dövlət Komitəsinin" sözləri "İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin" sözləri ilə əvəz edilsin.

11. Həmin Qaydalara 3 nömrəli əlavənin "Qeyd" hissəsinin ikinci abzasında "Əmlak Məsələləri Dövlət Komitəsinin" sözləri "İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 230** **QƏRAR** **Bakı şəhəri, 24 aprel 2024-cü il**

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 15 iyul tarixli 308 nömrəli Qərarı ilə təsdiq edilmiş “İlkin mediasiya sessiyası zamanı mediasiya xidmətinin göstərilməsinə görə haqqın və digər xərclərin məbləği”ndə və 2019-cu il 5 sentyabr tarixli 385 nömrəli Qərarı ilə təsdiq edilmiş “Mediasiya prosesinin həyata keçirilməsi Qaydası”nda dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 26 dekabr tarixli 1079-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 15 iyul tarixli 308 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 7, maddə 1331 (Cild I) ilə təsdiq edilmiş "İlkin mediasiya sessiyası zamanı mediasiya xidmətinin göstərilməsinə görə haqqın və digər xərclərin məbləği"nin cədvəlinin 3-cü hissəsi ləğv edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 5 sentyabr tarixli 385 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 9, maddə 1539 (Cild I) ilə təsdiq edilmiş "Mediasiya prosesinin həyata keçirilməsi Qaydası"nın 7.2-ci bəndindən "kommersiya mübahisələri, həmçinin" sözləri çıxarılsın.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Ali Məclisin yaz sessiyasının növbəti plenar iclası keçirilib

**Aprelin 25-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin yaz sessiyasının növbəti plenar iclası keçirilib.**

Ceyhun Ramiz oğlu Cəlilovun Naxçıvan Muxtar Respublikasının Baş naziri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin təqdimatına baxılması ilə əlaqədar məsələ iclasın gündəliyinə salınıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini Anar İbrahimov bildirib ki, Naxçıvan Muxtar Respublikası Konstitusiyasına əsasən, Ali Məclisin sədri Naxçıvan Muxtar Respublikasının Baş naziri vəzifəsinə təyin edilməsi üçün Azərbaycan Respublikasının Prezidenti tərəfindən təqdim olunmuş şəxsin namizədliyini Ali Məclisə təqdim edir.

Təqdimat oxunub, namizəd haqqında ətraflı məlumat verildikdən sonra "Ceyhun Ramiz oğlu Cəlilovun Naxçıvan Muxtar Respublikasının Baş naziri təyin edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qərarı səsə qoyularaq qəbul edilib.

Anar İbrahimov Ali Məclis adından Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin yüksək etimadı ilə yeni vəzifəyə təyin olunması münasibətilə Ceyhun Cəlilovu təbrik edib, gələcək fəaliyyətində uğurlar arzulayıb.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin yüksək etimad göstərərək onu Naxçıvan Muxtar Respublikasının Baş naziri vəzifəsinə təqdim etdiyinə görə dərin minnətdarlığını bildirən Ceyhun Cəlilov çıxış edərək deyib ki, Azərbaycan dövləti həqiqətən də tarixinin ən qüdrətli dövrlərini yaşamaqdadır. Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının təqribən yarıməsrlik dövrü xalqımızın Ümummilli Lideri Heydər Əliyevin fəaliyyəti ilə sıx bağlıdır. Məhz Ulu Öndərin çoxşaxəli fəaliyyəti sayəsində ölkəmizin bütün regionlarının, o cümlədən Naxçıvanın sosial-iqtisadi inkişafının möhkəm bünövrəsi qoyulub və bu siyasət davam etdirilməkdədir. Azərbaycan Respublikası regionlarının, o cümlədən Naxçıvan Muxtar Respublikasının inkişafı ölkədə uğurla həyata keçirilən davamlı sosial-iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsidir. Bu strategiyanın həyata keçirilməsində, o cümlədən bölgələrin inkişafının yeni keyfiyyət mərhələsinə yüksəlməsində regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul edilmiş dövlət proqramları xüsusi əhəmiyyət kəsb edir.

Qarşıda duran vəzifələrə görə tədbirlərin kompleks və uğurla icra edilməsi məqsədilə səylərini əsirgəməyəcəyini deyən Ceyhun Cəlilov muxtar respublika rəhbərliyinə, təqdimatı yekdilliklə qəbul etdiyinə görə deputatlara təşəkkür edib.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Azərbaycanın xarici siyasətinin prioritetlərindən biri türk dünyasında əməkdaşlığın gücləndirilməsidir

**Aprelin 25-də Milli Məclisin Sədri Sahibə Qafarova Türk Dövlətləri Parlamentlərinin Xarici Əlaqələr Komitələri Sədrlərinin birinci iclasının iştirakçıları ilə görüşüb.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, qonaqları Milli Məclisdə salamlamaqdan böyük məmnunluq duyduğunu deyən spiker Sahibə Qafarova qeyd edib ki, belə bir iclasın keçirilməsi təşəbbüsü Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən irəli sürülüb və qardaş ölkələrin parlamentlərinin, Türk Dövlətləri Parlament Assambleyasının üzvü olan parlamentlərin təmsilçiləri buradadır. Eyni zamanda həm Türk Dövlətləri Təşkilatında, həm də TürkPA-da müşahidəçi statusuna malik olan Şimali Kipr Türk Cümhuriyyəti parlamentinin nümayəndələri də tədbirdə iştirak edirlər. Spiker diqqətə çatdırıb ki, bu yaxınlarda parlamentimizdə Şimali Kipr parlamenti ilə əlaqələr üzrə işçi qrupu yaradılıb və bu göstərir ki, biz həm ikitərəfli, həm də çoxtərəfli formatda əlaqələrimizin inkişaf etdirilməsində maraqlıyıq.

Milli Məclisin Sədri qeyd edib ki, bu il fevralın 7-də Azərbaycanda növbədənkənar prezident seçkiləri keçirildi. Bu seçkilər ilk dəfə Azərbaycanın bütün suveren ərazilərində təşkil olundu. Yenidən prezident seçilən cənab İlham Əliyev Milli Məclisdə keçirilmiş andiçmə mərasimində yeni dövrdə Azərbaycanın qarşısında duran vəzifələrdən danışarkən, türk dünyasını bizim ailəmiz adlandırdı, bizim başqa ailəmizin olmadığını bildirdi. Cənab Prezident Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindən birinin türk dünyasında mövcud olan əməkdaşlıq mexanizminin - Türk Dövlətləri Təşkilatının gücləndirilməsi, qlobal arenada vacib oyunçuya, güc mərkəzinə çevrilməsi olduğunu xüsusi vurğuladı. Bütün bunlar üçün lazım olan şərtlər mövcuddur. Çoxtərəfli əsasda əməkdaşlığımızın əsas mexanizmi isə Türk Dövlətləri Təşkilatıdır. Bu gün beynəlxalq səviyyədə parlamentlərin, parlament diplomatiyasının rolunun getdikcə artdığı bir dövrdə qardaş ölkələrimizin parlamentlərini eyni çətir altında birləşdirən Türk Dövlətləri Parlament Assambleyası xüsusi əhəmiyyətə malikdir.

Söhbət zamanı Milli Məclisin Sədri deyib ki, bu gün həm regionumuzda, həm də qlobal səviyyədə baş verən proseslər, mövcud olan çağırışlar qardaş ölkə parlamentlərimizin xarici əlaqələr komitələrinin birgə işinin gücləndirilməsini labüd edir. Bu iclasın keçirilməsi zərurəti də buradan irəli gəlir. Bu gün dünyada olduqca gərgin proseslər baş verir, ölkələrimiz müxtəlif təzyiqlərlə, ikili standartlarla üzləşirlər. 30 il işğal altında qalmış torpaqlarını öz gücünə azad edən Azərbaycanın bu gün hansı təzyiqlərlə, hansı gizli planlarla üzləşdiyi göz önündədir.

Görüşdə iştirak edən Türkiyə Böyük Millət Məclisinin Xarici əlaqələr komitəsinin sədri Fuat Oktay qonaqpərvərliyə görə təşəkkür edərək, Türk Dövlətləri Parlamentlərinin Xarici Əlaqələr Komitələri Sədrlərinin birinci iclasının əhəmiyyətindən danışıb. Fuat Oktay diqqətə çatdırıb ki, Prezident İlham Əliyev tərəfindən irəli sürülmüş bu təşəbbüs parlamentlərimizin xarici əlaqələr komitələri arasındakı əlaqələrin institusional inkişafı, beynəlxalq təşkilatlar çərçivəsində əlaqələndirmə, qarşılıqlı dəstək baxımından mühüm əhəmiyyət kəsb edir. O, bu çərçivədə əməkdaşlığa verilən dəstəyə görə Milli Məclisin Sədri Sahibə Qafarovaya və iştirakçı dövlətlərin parlament sədrlərinə minnətdarlığını ifadə edib. Fuat Oktay türk dövlətlərinin birlikdə olmasının vacibliyindən danışaraq qeyd edib ki, güc birlikdədir.

Söhbət zamanı regionda baş verən proseslərə və Azərbaycan-Ermənistan münasibətlərinə dair də fikir mübadiləsi aparılıb. Bildirilib ki, iclas iştirakçıları Şuşaya və Xankəndiyə də səfər edəcəklər.

Görüşdə Azərbaycan Respublikası Milli Məclisinin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov, Qazaxıstan Respublikası Parlament Məclisinin Beynəlxalq məsələlər, müdafiə və təhlükəsizlik komitəsi sədrinin müavini Aydos Sarım, Qırğızıstan Respublikası Joqorku Keneşinin Beynəlxalq məsələlər, müdafiə, təhlükəsizlik və miqrasiya komitəsinin sədr müavini xanım Leyla Lurova, Özbəkistan Respublikası Ali Məclisinin Qanunvericilik Palatasının Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri xanım Dilorom Favziyeva, Şimali Kipr Türk Cümhuriyyəti Məclisinin Hüquq, siyasi işlər və xarici əlaqələr komitəsinin sədri xanım Yasemin Öztürk, Türk Dövlətləri Parlament Assambleyasının Baş katibi Mehmet Süreyya Er və digər rəsmi şəxslər iştirak ediblər.

*"Azərbaycan"*

# Türk Dövlətləri Parlamentlərinin nümayəndə heyətləri Fəxri xiyabanı və Şəhidlər xiyabanını ziyarət ediblər

**Azərbaycanda səfərdə olan Türk Dövlətləri Parlamentlərinin Xarici Əlaqələr Komitələri Sədrlərinin birinci iclasında iştirak edəcək qonaqlar aprelin 25-də Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini dərin ehtiramla yad edib, məzarı önünə əklil qoyub, tər çiçəklər düzüblər.**







Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, nümayəndə heyətləri sonra Şəhidlər xiyabanına gələrək ölkəmizin azadlığı və suverenliyi uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini ehtiramla anıb, məzarları üzərinə tər çiçəklər düzüb, "Əbədi məşəl" abidəsi önünə əklil qoyublar.

Bakının ən hündür nöqtəsindən Azərbaycan paytaxtının mənzərəsini seyr edən qonaqlara Şəhidlər xiyabanının tarixi və paytaxtımızda aparılan abadlıq-quruculuq işləri barədə məlumat verilib.

Nümayəndə heyətləri sonra 1918-ci ildə Azərbaycanın ərazi bütövlüyü və Bakının azad edilməsi uğrunda döyüşlərdə həlak olmuş qəhrəman türk əsgərlərinin xatirəsinə ucaldılmış "Türk şəhidliyi" abidəsini ziyarət edib, gül dəstələri düzüblər.

Ziyarət zamanı nümayəndə heyətlərini Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov və digər rəsmi şəxslər müşayiət ediblər.

*"Azərbaycan"*

# Türk Dövlətləri Parlamentlərinin Xarici Əlaqələr Komitələri Sədrlərinin birinci iclası keçirilib

**Aprelin 25-də Milli Məclisdə Türk Dövlətləri Parlamentlərinin Xarici Əlaqələr Komitələri Sədrlərinin birinci iclası keçirilib.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, tədbirdə Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Şimali Kipr Türk Cümhuriyyəti parlamentlərinin Xarici əlaqələr komitələrinin sədr və sədr müavinləri, Türk Dövlətləri Parlament Assambleyasının Baş katibi Mehmet Süreyya Er və digər rəsmi şəxslər iştirak ediblər.

Azərbaycan Milli Məclisinin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov iclas iştirakçılarını salamlayaraq, görüşdən məmnunluğunu ifadə edib. Komitə sədri Türk Dövlətləri Parlamentlərinin Xarici əlaqələr komitələri sədrlərinin iclasının Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə keçirildiyini vurğulayıb. Qeyd edib ki, bu ideya Azərbaycan Prezidenti tərəfindən Türkiyə Böyük Millət Məclisi Xarici əlaqələr komitəsinin sədri Fuat Oktayın ötən il Azərbaycana səfəri zamanı baş tutan görüşdə səsləndirilib. O, bu tədbirin bir ənənəyə çevriləcəyini və türk dövlətləri arasında münasibətlərin güclənməsinə töhfə verəcəyini söyləyib.

Səməd Seyidov türk dövlətləri başçılarının müntəzəm olaraq zirvə toplantılarının keçirildiyini, böyük nüfuza malik Türk Dövlətləri Təşkilatının formalaşdığını, Beynəlxalq Türk Mədəniyyəti Təşkilatının (TÜRKSOY) yaradıldığını, Türk Dövlətləri Parlament Assambleyasının (TÜRKPA), habelə Türk Akademiyasının, Türk Mədəniyyət və Miras Fondunun, Türk Biznes Şurasının fəaliyyət göstərdiyini bildirib.

Qeyd olunub ki, bu gün dünyada gedən mürəkkəb proseslər fonunda dövlətlərin müxtəlif təşkilatlar çərçivəsində fəaliyyətinin yüksək səviyyədə təşkili vacib məsələlərdəndir. Bu baxımdan Türk Dövlətləri Təşkilatı konstruktiv dialoqun təşviqi üçün mühüm platforma kimi önəmli rol oynayır. Türkdilli dövlətlər arasında əməkdaşlığın inkişafı Azərbaycanın xarici siyasətinin prioritet istiqamətlərindən biridir. Azərbaycan Prezidenti İlham Əliyevin bu il keçirilmiş növbədənkənar prezident seçkilərində əldə etdiyi qələbədən sonra andiçmə mərasimində səsləndirdiyi "Bizim başqa ailəmiz yoxdur. Bizim ailəmiz türk dünyasıdır" - fikirləri bunun bariz nümunəsidir. Azərbaycan dövlət başçısının son dövrdə Türk Dövlətləri Təşkilatına üzv və müşahidəçi ölkələrə etdiyi səfərlər qardaş türk dövlətləri ilə qarşılıqlı hörmət və etimada əsaslanan münasibətlərin möhkəmlənməsində önəmli rol oynayır.

Komitə sədri vurğulayıb ki, bu gün parlamentlər səviyyəsində əlaqələrimiz müvəffəqiyyətlə inkişaf edir. Milli Məclisin Sədri Sahibə Qafarovanın türk dövlətlərinə çoxsaylı işgüzar səfərləri, Türk Dövlətləri Təşkilatına üzv ölkələrin nümayəndələri ilə keçirdiyi görüşlər, qardaş ölkələrin parlamentlərində etdiyi çıxışlar bu istiqamətdə aparılan uğurlu siyasətin göstəricisidir.

Səməd Seyidov ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin inkişafında Türk Dövlətləri Parlament Assambleyasının da rolunu xüsusi olaraq qeyd edib. Təşkilata üzv ölkələr arasında əlaqələrin gücləndirilməsində parlamentlərdə fəaliyyət göstərən dostluq qruplarının da mühüm töhfələr verdiyini deyib. Bildirilib ki, TÜRKPA-da təmsil olunan deputatlarımız müxtəlif beynəlxalq təşkilatlarda dünya ölkələrinin parlamentariləri ilə qarşılıqlı faydalı əlaqələrin qurulmasında fəal iştirak edirlər.

O, təəssüflə bildirib ki, bu gün ölkəmizə qarşı təzyiqlər davam edir, qərəzli qətnamələr qəbul olunur. Bir sıra Qərb dövlətləri Azərbaycanın öz əzəli torpaqlarını öz gücü hesabına işğaldan azad etməsini qəbul edə bilmirlər. Buna baxmayaraq, Azərbaycan artıq dünyada güclü mövqeyi olan, böyük nüfuza malik bir dövlətdir. Ölkəmiz müxtəlif beynəlxalq əhəmiyyətli tədbirlərin keçirilməsinə evsahibliyi edir. Cari ildə BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29-un Azərbaycanda keçirilməsi ölkəmizin dünya miqyasında artan rolunun daha bir bariz nümunəsidir.

Türkiyə Böyük Millət Məclisinin Xarici əlaqələr komitəsinin sədri Fuat Oktay görüşün yüksək səviyyədə təşkil edilməsinə görə təşəkkürünü bildirib. O, türk dövlətləri arasında əlaqələrin gücləndirilməsinin vacibliyindən söhbət açıb. Bu gün dünyada inkişafın, sülhün və təhlükəsizliyin təmin edilməsində türk dövlətləri birliyinin əsas gücə çevrildiyini söyləyib. Türk Dövlətləri Təşkilatının türk dünyasında qarşılıqlı etimad mühitinin möhkəmləndirilməsi, siyasi həmrəyliyin gücləndirilməsi, iqtisadi əməkdaşlığın genişləndirilməsi və digər sahələrdə önəmli rolundan danışıb.

Fuat Oktay TÜRKPA-ya üzv dövlətlərin parlamentləri arasında əlaqələrin mühüm əhəmiyyət kəsb etdiyini deyib. O, qardaş ölkə parlamentarilərinin qarşılıqlı əməkdaşlığın və dostluğun möhkəmləndirilməsi istiqamətində birgə səylərini yüksək qiymətləndirib. Belə görüşlərin türk dünyasında birlik və həmrəyliyin daha da güclənməsinə, münasibətlərimizin daha da dərinləşməsinə xidmət etdiyini söyləyib. Komitə sədri bu toplantının qanunverici orqanlar arasında əlaqələrin dərinləşməsinə töhfə verəcəyini vurğulayıb.

Sonra Özbəkistan Respublikası Ali Məclisi Qanunvericilik Palatasının Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Dilorom Favziyeva, Şimali Kipr Türk Cümhuriyyəti Məclisinin Hüquq, siyasi işlər və xarici əlaqələr komitəsinin sədri Yasemin Öztürk, Qazaxıstan Respublikası Parlament Məclisinin Beynəlxalq məsələlər, müdafiə və təhlükəsizlik komitəsinin sədr müavini Aydos Sarım, Qırğız Respublikası Joqorku Keneşinin Beynəlxalq məsələlər, müdafiə, təhlükəsizlik və miqrasiya komitəsinin sədr müavini Leyla Lurova çıxış ediblər.

Çıxışlarda TÜRKPA-nın türk dövlətləri arasında mövcud qardaşlıq və dostluq əlaqələrinin parlamentlərarası səviyyədə inkişafı baxımından vacib platforma olduğu diqqətə çatdırılıb. Üzv dövlətlər arasında siyasi, iqtisadi, sosial, mədəni, humanitar və digər istiqamətlərdə əməkdaşlığın genişləndirilməsində parlament diplomatiyasının əhəmiyyəti vurğulanıb. Türk dövlətləri arasında müxtəlif səviyyələrdə təmasların artırılması, TÜRKPA çərçivəsində əlaqələrin genişləndirilməsi, digər regional və beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı faydalı əməkdaşlığın inkişafı ilə bağlı fikirlər səsləndirilib. Parlamentlərarası dostluq qruplarının münasibətlərin möhkəmləndirilməsi istiqamətində rolu qeyd olunub.

Türk Dövlətləri Parlament Assambleyasının Baş katibi Mehmet Süreyya Er bildirib ki, dünyada baş verən siyasi hadisələr, yaşanan gərginliklər, yeni çağırışlar və təhdidlər fonunda parlament diplomatiyasının üzərinə mühüm vəzifələr düşür. Parlamentlər böhranların idarə edilməsi, demokratiyanın inkişafı, Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunması, sülh və təhlükəsizliyin təmin edilməsi baxımından olduqca əhəmiyyətli rola və çəkiyə malikdirlər. Bu gün türk dünyasında sürətlə inkişaf edən əməkdaşlıq prosesləri ortaq tarixi, mədəniyyəti, dəyərləri paylaşan xalqlarımızın rifahının daha da yaxşılaşmasına xidmət edir. O, TÜRKPA çərçivəsində parlament diplomatiyası sahəsində müsbət təcrübələrin qazanıldığını deyib və bu tədbirin türk dünyasında parlament əməkdaşlığının daha da gücləndirilməsi istiqamətində yeni bir mərhələnin başlanğıcı olacağına, beynəlxalq aləmdə TÜRKPA-nın daha çox tanınmasına töhfə verəcəyinə əminliyini söyləyib.

Azərbaycan-Şimali Kipr Türk Cümhuriyyəti parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Cavanşir Feyziyev tədbirin əhəmiyyəti, türk ölkələri arasında əlaqələrin genişləndirilməsində parlamentlərdə fəaliyyət göstərən dostluq qruplarının rolu barədə fikirlərini bölüşüb.

Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov yekun sözündə tədbir iştirakçılarına müzakirələrdə fəal iştirak etdikləri üçün təşəkkürünü ifadə edib. O, qardaş türk dövlətlərinin parlament üzvləri arasında təmasların qarşılıqlı əlaqələrin daha da gücləndirilməsinə, regionda sülhün və sabitliyin təmin edilməsinə, davamlı inkişafa xidmət etdiyini vurğulayıb.

Sonra iclas iştirakçıları ailə fotosu çəkdirmək üçün bir araya gəliblər.

İclasda Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini Sevinc Fətəliyeva, üzvləri Sahib Alıyev, Kamran Bayramov, Tural Gəncəliyev, Ramil Həsən, Azər Kərimli, Asim Mollazadə, Rasim Musabəyov, Nəsib Məhəməliyev, Elman Nəsirov iştirak ediblər.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Türk Dövlətləri Parlamentlərinin Xarici Əlaqələr Komitələri Sədrlərinin birinci iclasının yekunlarına dair mətbuat konfransı

**Aprelin 25-də Milli Məclisdə Türk Dövlətləri Parlamentlərinin Xarici Əlaqələr Komitələri Sədrlərinin birinci iclasının yekunlarına həsr olunmuş mətbuat konfransı keçirilib.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, tədbirdə Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov Türk Dövlətləri Parlamentlərinin Xarici Əlaqələr Komitələri Sədrlərinin ilk iclasının türk dünyası üçün tarixi əhəmiyyətindən söz açıb, iclasın yekunları və müzakirə olunan məsələlərin önəmi barədə fikirlərini bölüşüb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin andiçmə mərasimində söylədiyi nitqində bizim türk dünyasından başqa ailəmizin olmadığı ilə bağlı dediyi fikirlərinə diqqət yönəldən komitə sədri türk dövlətləri arasında əlaqələrin ikitərəfli və çoxtərəfli istiqamətlərdə, o cümlədən parlamentlər müstəvisində inkişaf etdirilməsinin vacib olduğunu vurğulayıb.

Türkiyə Böyük Millət Məclisinin Xarici əlaqələr komitəsinin sədri Fuat Oktay tədbirin uğurlu keçdiyini, faydalı müzakirələrin aparıldığını bildirib. O, iclasın keçirilməsi təşəbbüsünə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə, verdiyi dəstəyə görə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana, qardaş türk dövlətlərinin başçılarına, parlament rəhbərlərinə minnətdarlığını bildirib. Fuat Oktay türk dövlətlərinin ortaq mənafelərinin qorunmasında parlament diplomatiyasının və parlamentlərarası əməkdaşlığının əhəmiyyətindən danışıb, bu əməkdaşlığın gələcək perspektivləri ilə bağlı fikirlərini bölüşüb.

Sonra konfrans iştirakçıları media nümayəndələrinin suallarını cavablandırıblar.

Tədbirdə Özbəkistan Respublikası Ali Məclisinin Qanunvericilik Palatasının beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Dilorom Favziyeva, Qazaxıstan Respublikası Parlament Məclisinin Beynəlxalq məsələlər, müdafiə və təhlükəsizlik komitəsi sədrinin müavini Aydos Sarım, Qırğız Respublikası Joqorku Keneşinin Beynəlxalq məsələlər, müdafiə, təhlükəsizlik və miqrasiya komitəsinin sədr müavini Leyla Lurova, Şimali Kipr Türk Cümhuriyyəti Məclisinin Hüquq, siyasi işlər və xarici əlaqələr komitəsinin sədri Yasemin Öztürk və Türk Dövlətləri Parlament Assambleyasının Baş katibi Mehmet Süreyya Er iştirak ediblər.

*"Azərbaycan"*

# Milli Məclisin Sədri Sahibə Qafarova Monteneqroya rəsmi səfərə gedib





**Azərbaycan Respublikası Milli Məclisinin Sədri Sahibə Qafarovanın başçılığı ilə parlament nümayəndə heyəti aprelin 25-də Monteneqro Respublikasına rəsmi səfərə gedib.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, nümayəndə heyətinə Milli Məclisin Monteneqro ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri İqbal Məmmədov, deputatlar Hikmət Məmmədov, Aqiyə Naxçıvanlı, Kamaləddin Qafarov, Sevil Mikayılova, parlament Aparatının rəhbəri Fərid Hacıyev və digər rəsmi şəxslər daxildirlər.

Səfər çərçivəsində spiker Sahibə Qafarovanın bir sıra görüşləri nəzərdə tutulub.

*"Azərbaycan"*

# Azərbaycan Respublikası Baş nazirinin müavini Şahin Mustafayevin Xidmətinin məlumatı

**25.04.2024-cü il**

Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasındakı sərhəddə koordinatların dəqiqləşdirilməsi işləri çərçivəsində aparılan geodeziya ölçmələri əsasında 2024-cü il aprelin 25-dək 20 sərhəd dirəyi quraşdırılıb. İki dövlətin ekspert qruplarının işi davam edir.

Xəbər verildiyi kimi, Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Azərbaycan Respublikası Dövlət Komissiyasının və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə Ermənistan Respublikası Komissiyasının 8-ci görüşünün yekunlarına əsasən əldə edilmiş razılaşmalara müvafiq olaraq, Azərbaycan Respublikası ilə Ermənistan Respublikası sərhədində iki ölkənin ekspert qrupları ərazidə geodeziya ölçmələri əsasında koordinatların dəqiqləşdirilməsi prosesinə başlayıblar.

# Əlcəzair həmişə Azərbaycanın haqq işini dəstəkləyib



**Aprelin 25-də Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov ölkəmizdə səfərdə olan Əlcəzair Xalq Demokratik Respublikası Xalq Milli Assambleyasının Milli müdafiə komitəsinin sədri, Əlcəzair-Azərbaycan dostluq qrupunun rəhbəri Qarbi Abdelbasetin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, qonaqları salamlayan komitə sədri Ziyafət Əsgərov bu il ölkələrimiz arasında diplomatik əlaqələrin qurulmasının 30 illiyinin tamam olduğunu xatırladaraq, Azərbaycanla Əlcəzairin oxşar tarixi, müstəqillik yolu barədə danışıb. O bildirib ki, Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə öz ərazi bütövlüyünü, suverenliyini bərpa etmiş ölkədir.

Komitə sədri ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində uğurlu əməkdaşlığından, Əlcəzairin həmişə Azərbaycanın haqq işini dəstəkləməsindən məmnunluğunu ifadə edib, iki ölkə arasında parlamentlərarası əməkdaşlığın daha da inkişaf etdirilməsinin zəruriliyindən söhbət açıb.

Ziyafət Əsgərov torpaqlarımızın işğal altında olduğu dövrdə ermənilər tərəfindən şəhərlərimizin dağıdılmasından, Xocalı soyqırımının törədilməsindən, tarixi abidələrimizin məhv edilməsindən danışıb, həmçinin Fransanın Əlcəzairdə əhaliyə qarşı etdiyi ağlasığmaz hərəkətlər barədə fikirlərini bölüşüb.

Əlcəzair Xalq Demokratik Respublikası Milli Xalq Assambleyasının Milli müdafiə komissiyasının sədri, Əlcəzair-Azərbaycan dostluq qrupunun rəhbəri Qarbi Abdelbaset Azərbaycanda olmaqdan məmnunluğunu ifadə edib, torpaqlarımızın işğaldan azad edilməsinə görə Azərbaycan xalqını təbrik edib, əlaqələrimizin inkişaf etdirilməsinin zəruriliyini vurğulayıb.

Sonra görüş qarşılıqlı maraq doğuran məsələlər barədə fikir mübadiləsi şəraitində davam etdirilib.

*"Azərbaycan"*

# Azərbaycan Qlobal Dayanıqlı Turizm Şurasına üzv qəbul edilib

**Dövlət Turizm Agentliyi Qlobal Dayanıqlı Turizm Şurasına üzv qəbul edilib.**

Agentlikdən AZƏRTAC-a bildirilib ki, bu haqda qərar İsveç Krallığının Stokholm şəhərində keçirilən "Dayanıqlı Turizm" konfransında qəbul edilib. Həmçinin konfrans çərçivəsində Azərbaycan Turizm Bürosu və Qlobal Dayanıqlılıq Turizm Şurası arasında Anlaşma Memorandumu imzalanıb.

Anlaşma memorandumuna əsasən, dayanıqlı turizmin inkişafına dəstək göstərilməsi, qlobal dayanıqlı turizm standartlarının milli səviyyəyə uyğunlaşdırılması, eləcə də ölkəmizdə şuranın meyarlarının tətbiqi nəzərdə tutulur.

Tədbirdə çıxış edən Azərbaycan Turizm Bürosunun Baş icraçı direktoru Florian Zenqstşmid şuraya üzvlüyün turizm sənayesindəki yerli tərəfdaşlarla birgə fəaliyyətin həvəsləndirilməsinə, qlobal turizm sənayesində dayanıqlı və əsaslı dəyişikliklərin edilməsində Azərbaycanın rolunun artırılmasına, eləcə də marketinq kampaniyaları vasitəsilə yerli turizm sənayesinin dayanıqlı inkişafına töhfə verəcəyini bildirib.

Qlobal Dayanıqlılıq Turizm Şurası 2007-ci ildə "Rainforest Alliance" təşkilatı, BMT-nin Ətraf Mühit Proqramı, Əhali Fondu və BMT Turizm təşkilatı ilə birgə təşəbbüsü olan "Qlobal Dayanıqlı Turizm Kriteriyaları"nın formalaşdırılması məqsədilə yaradılıb.

Şura qlobal turizm biznesləri, dövlət orqanları, destinasiya menecmenti təşkilatları üçün dayanıqlı turizm prinsiplərinin tətbiq edilməsi təcrübələrinin bölüşdürülməsi üzrə platforma rolunu oynayır. Şuranın fəaliyyətinin əsas məqsədi dayanıqlı turizm təcrübələrini tətbiq edən biznes və destinasiyaların sertifikatlaşdırılması yolu ilə dəstəklənməsi, həmçinin destinasiyaların dayanıqlılığının təmin edilməsinə dəstək olmaqdır.

# Avropa Parlamentinin 2024-cü il 25 aprel tarixli qətnaməsinə Azərbaycan Respublikası Milli Məclisinin münasibəti

**Azərbaycan Respublikasının Milli Məclisi 2024-cü il aprelin 25-də Avropa Parlamentinin Azərbaycanda vətəndaş cəmiyyəti və insan hüquqları məsələsinə dair obyektivlikdən uzaq qətnamə qəbul etməsini ölkəmizə qarşı qərəzli siyasi aksiya kimi qiymətləndirir, yalan və saxta məlumatlar üzərində qurulmuş əsassız ittihamları qətiyyətlə rədd edir.**

Bu beynəlxalq təşkilatın Azərbaycan torpaqlarının Ermənistan tərəfindən 30 illik işğalına son qoyulması ilə nəticələnmiş İkinci Qarabağ müharibəsindən sonra Azərbaycana qarşı düşmənçilik və qarayaxma kampaniyası aparan qüvvələrin əlində alətə çevrilməsi təəssüf doğurur. Təsadüfi deyil ki, 2021-ci ildən bəri Avropa Parlamenti müxtəlif bəhanələr altında Azərbaycana qarşı 8 qətnamə qəbul etmişdir.

Ermənistan ilə Azərbaycan arasında münaqişədən sonra normallaşma prosesinin irəliyə aparılması üçün tədbirlərin görüldüyü, xüsusən sərhədlərin delimitasiyası istiqamətində ilk ümidverici nəticələrin əldə edildiyi dövrdə Avropa Parlamentinin növbəti aksiyası Cənubi Qafqazda yaranmış yeni reallıqları qəbul etmək istəməyən, səlibçilik düşüncəsinə qapılan qüvvələrin bu sülh prosesinə zərbə vuran, Azərbaycan Respublikasının nüfuzuna xələl gətirməyə yönələn bir addımdır.

Bütün bunlar təşkilatda hökm sürən azərbaycanofob, türkofob və islamofob əhvali-ruhiyyənin son dövrdə daha da gücləndiyini nümayiş etdirir. Digər tərəfdən, sözügedən qətnamənin Avropa Parlamentinin Azərbaycana qarşı məqsədyönlü fəaliyyət göstərən deputatlarının təhriki ilə hazırlanıb müzakirəyə çıxarılması erməni lobbisinin və onu dəstəkləyən qüvvələrin Avropa Parlamentinə təsirinin miqyası haqqında təsəvvür yaradır. Avropa Parlamentində təmsil olunan bir sıra deputatların Avropa seçicilərinin deyil, lobbi qruplarının maraqlarını təmsil etməsi onların irqçi və şovinist mövqeyindən xəbər verir. Qətnamənin müəllifləri çirkin siyasi məqsədlərinə nail olmaq üçün hətta Avropa İttifaqının Azərbaycanla əməkdaşlığını pozmağa, ümumiyyətlə, onun Cənubi Qafqaz siyasətini təhlükə altına atmağa belə razıdırlar.

Qətnamədə yer alan əsassız iddialara gəlincə, Azərbaycan insan hüquqlarının və əsas azadlıqların qorunması, qanunun aliliyinin təmin edilməsi, hüquqi dövlət prinsiplərinin ardıcıl həyata keçirilməsi mövqeyinə həmişə sadiqdir. Azərbaycan Respublikası Konstitusiyasının üçdə bir hissəsi insan hüquqlarına və əsas azadlıqlara həsr olunmuşdur. Ölkəmizdə demokratik institutların qurulması və sərbəst fəaliyyət göstərməsi, vətəndaş cəmiyyətinin əsas tərkib hissələrinin yaradılması, digər amillər Azərbaycan dövlətinin demokratik inkişaf yolu ilə irəliyə getmək əzmini və iradəsini nümayiş etdirir.

Azərbaycan Respublikasında insan hüquqlarının və azadlıqlarının qorunması, o cümlədən birləşmək hüququnun, sərbəst toplaşmaq, ifadə, söz və məlumat azadlıqlarının təmin edilməsi sahəsində vəziyyətin ikili standartlar əsasında qeyri-obyektiv şəkildə qiymətləndirilməsi yolverilməzdir. Bu da təəssüf doğurur ki, insan hüquqlarının və azadlıqlarının qorunması ilə bağlı Azərbaycana böhtan atmaqdan çəkinməyən Avropa Parlamenti Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalı dövründə doğma yurdlarından qovularaq etnik təmizləməyə, soyqırımı aktlarına məruz qalaraq bütün hüquq və azadlıqlarından məhrum edilmiş 1 milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkünün insan ləyaqətinin tapdalanması barədə həmişə susmağa üstünlük vermişdir.

Məsələnin başqa bir tərəfi də budur ki, konkret cinayət əməlləri törətdiklərinə görə məhkəmə qərarları ilə məhkum edilmiş şəxslərin "siyasi məhbus" adlandırılmasının və ya bu cür əməlləri törətdiklərinə əsaslı şübhələr olduğuna görə cinayət qanunvericiliyinin müvafiq maddələri ilə barələrində ittiham irəli sürülmüş şəxsləri qeyd-şərtsiz azadlığa buraxmağın tələb edilməsinin hansı məntiqdən irəli gəldiyi aydın deyildir. Məlum olduğu kimi, bu cür məsələlər məhkəmənin səlahiyyətinə daxildir və kiminsə azad edilməsi, yaxud cinayət məsuliyyətinə cəlb edilməsi məhkəmə baxışının nəticəsindən asılıdır. İnsanların cəmiyyətdəki mövqeyinin onlara məhkəmə təqibindən immunitet hüququ verdiyini iddia etməyə heç bir şəxsin və ya təşkilatın ixtiyarı yoxdur.

Qeyd edilməlidir ki, ölkəmizə qarşı yönələn bu cür qərəzli kampaniyalar ikitərəfli münasibətlərin inkişaf perspektivlərinə xələl gətirməklə yanaşı, Avropa Parlamentinin nüfuzuna yeni bir zərbə vurur. Azərbaycan Respublikasının Milli Məclisi Avropa Parlamentini ölkəmizdə demokratik quruculuq sahəsində həyata keçirilən işlərə kölgə salan hərəkətlərdən çəkinməyə, ölkəmizlə bağlı məsələlərdə obyektiv mövqe tutmağa, siyasi mülahizələrə əsaslanan birtərəfli yanaşmadan çıxış etməməyə çağırır. Eyni zamanda Azərbaycan parlamenti bəyan edir ki, heç bir qüvvə Azərbaycanı demokratik inkişaf yolundan döndərə bilməz.

# Azərbaycan ilə Qazaxıstan arasında hərbi əməkdaşlığın inkişaf perspektivləri müzakirə edilib

**Aprelin 25-də Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə rəsmi səfərdə olan Qazaxıstanın müdafiə nazirinin birinci müavini - Qazaxıstan Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi general-leytenant Sultan Kamaletdinovun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Qazaxıstan nümayəndə heyəti əvvəlcə Fəxri xiyabanda xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın məzarlarını, həmçinin Şəhidlər xiyabanını ziyarət edərək əklil və gül dəstələri qoyub, xatirələrinə dərin hörmət və ehtiram nümayiş etdiriblər.

Sonra Müdafiə Nazirliyində təntənəli qarşılanma mərasimi keçirilib. Fəxri qarovul dəstəsinin önündən keçiddən sonra hər iki ölkənin Dövlət himnləri səsləndirilib, protokola uyğun olaraq "Şərəf kitabı" imzalanıb.

General-polkovnik Z.Həsənov onları ölkəmizdə görməkdən məmnunluğunu bildirib. Nazir Qazaxıstanla dostluq və qardaşlıq münasibətləri üzərində qurulan hərbi əməkdaşlığın xüsusi əhəmiyyətə malik olduğunu və bu əlaqələrin genişləndirilməsinin zəruriliyini qeyd edib.

Qazaxıstanlı nümayəndələr Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə ordumuzda aparılan islahatlar barədə məlumatlandırılıb.

General-polkovnik S.Kamaletdinov isə ölkələrimiz arasında hərbi əməkdaşlığın inkişafında belə görüşlərin vacibliyini xüsusi vurğulayıb.

Görüşdə eyni zamanda Azərbaycanla Qazaxıstan arasında hərbi, hərbi-texniki, hərbi-təhsil və digər sahələrdə əməkdaşlıq məsələləri müzakirə edilib. Sonra müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev Qazaxıstan nümayəndə heyəti ilə görüşüb.

Azərbaycan Ordusunun Baş Qərargahında keçirilən görüşdə ölkələrimiz arasında hərbi əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri müzakirə edilib, birgə təlimlərin keçirilməsinin vacibliyi vurğulanıb, eləcə də qarşılıqlı maraq doğuran bir sıra digər məsələlərə dair ətraflı fikir mübadiləsi aparılıb.

Görüşün sonunda Qazaxıstan nümayəndə heyəti Azərbaycan Silahlı Qüvvələrinin Qazaxıstandakı hərbi attaşesi polkovnik Zaur Kərimova "Beynəlxalq əməkdaşlığın inkişafında xidmətlərinə görə" medalını təqdim edib.

# Qərbi Azərbaycan İcması ABŞ Dövlət Departamentinin insan hüquqlarına dair növbəti ölkə hesabatları ilə bağlı bəyanat yayıb

**Qərbi Azərbaycan İcması ABŞ Dövlət Departamentinin insan hüquqlarına dair növbəti ölkə hesabatları ilə bağlı bəyanat yayıb.**

AZƏRTAC bəyanatı təqdim edir: "Amerika Birləşmiş Ştatlarının (ABŞ) Dövlət Departamenti insan hüquqlarına dair növbəti ölkə hesabatlarını dərc etmişdir.

Əvvəla qeyd edək ki, ABŞ konqresinin tapşırığı ilə hazırlanan illik hesabatlar insan hüquqlarının təşviq olunması ilə heç bir əlaqəsi olmayan siyasi təzyiq vasitəsidir. Dünyada baş vermiş insan hüquqları pozuntularına görə böyük məsuliyyət daşıyan və öz daxilində insan haqları sahəsində vəziyyəti heç də ürəkaçan olmayan ABŞ-nin bu hesabatı hansı mənəvi əsasla hazırlaması sual doğurur.

ABŞ bu il də həmin hesabatlar vasitəsilə Azərbaycana təzyiq etməyə çalışıb, qərəz və ayrı-seçkiliyə yol verib. Azərbaycana aid hesabatda digər əsassız iddialar ilə yanaşı, ölkəmizdə ermənilərin hüquqlarının guya pozulması kimi böhtanlara gen-bol yer verilib. Lakin Ermənistana aid hesabatda oradan azərbaycanlıların qovulması, onların mədəni irsinin dağıdılması və qayıdışına imkan verilməməsi kimi kütləvi insan haqları pozuntuları faktlarına toxunulmur.

Qərbi Azərbaycan İcması ABŞ-nin Dövlət Departamentinin insan hüquqları kimi ali dəyərdən öz siyasi məqsədləri üçün sui-istifadə etməsini, Azərbaycana və azərbaycanlılara qarşı yol verdiyi ayrı-seçkiliyi və qərəzi qınayır. İcma ABŞ-ni bir daha Ermənistandan qovulmuş azərbaycanlıların qayıdış hüququna hörmət etməyə çağırır".

# Bakıda "Azərbaycan Arbitraj Günləri" adlı beynəlxalq tədbir başlayıb

**Aprelin 25-də Bakıda "Azərbaycan Arbitraj Günləri" adlı beynəlxalq tədbir başlayıb.**






AZƏRTAC xəbər verir ki, tədbirdə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri Gündüz Kərimov, bir sıra dövlət və hökumət nümayəndələri, müxtəlif ölkələrdən gələn qonaqlar iştirak ediblər.

Tədbirdə çıxış edən Azərbaycan Arbitraj Assosiasiyasının sədri Kəmalə Mehdiyeva Azərbaycanda "Arbitraj haqqında" qanunun qəbul edildiyini xatırladaraq deyib: "Azərbaycanda arbitraj bütün tərəflərin iştirakı ilə inkişaf edəcək və ölkəmiz beynəlxalq və yerli arbitraja şərait yaradan məkana çevriləcək. Həmçinin Azərbaycanda arbitraj sisteminin yaradılması beynəlxalq nizama da töhfə verəcək. Çünki ictimai sektor da münaqişələrin həllinin sülh yolu ilə həyata keçirilməsinə həmrəyliyini bildirir. Bütün bunlar ölkənin iqtisadiyyatına müsbət təsir göstərəcək".

Çıxış edən Ali Məhkəmənin və Məhkəmə-Hüquq Şurasının sədri İnam Kərimovun sözlərinə görə, sahibkarlıq iqtisadi inkişafın təməl daşı kimi dayanıqlı iqtisadi sistemin qurulmasına və iqtisadi tərəqqiyə təkan verməklə yanaşı, həm də sosial rifahın yüksəldilməsində mühüm rol oynayır: "Ona görə də bu fəaliyyətin dəstəklənməsi və sahibkarlığın inkişafı dövlətimizin hər zaman əsas hədəflərindən biridir. Bununla yanaşı, kommersiya məhkəmələrinin yaradılması sahibkarlıq fəaliyyətilə bağlı mübahisələrin həllində hüquqi müəyyənliyin təmin edilməsi, sahibkarların hüquqlarının müdafiəsinin gücləndirilməsi və nəticədə ölkəmizdə biznes və investisiya iqliminin daha da yaxşılaşdırılması istiqamətində önəmli mərhələ olub".

İ.Kərimov bildirib ki, Ali Məhkəmə məhkəmə islahatlarının mərkəzində yer alan aparıcı qüvvə kimi digər dövlət orqanları ilə birlikdə qabaqcıl beynəlxalq təcrübəni öyrənib və təhlil edib. Nəticədə vahid məhkəmə təcrübəsinin formalaşdırılması, məhkəmə hakimiyyətinin institusional potensialının gücləndirilməsi, məhkəmə sisteminin təkmilləşdirilməsi ilə bağlı bir çox normativ hüquqi aktlar qəbul olunub: "Təbii ki, bütün bunlar ədalət mühakiməsinin yüksək keyfiyyətlə həyata keçirilməsi, məhkəmə müdafiəsinin daha da güclənməsinə müsbət təsir göstərməkdədir.

Ötən il Azərbaycanda "Arbitraj haqqında" qanunun qəbul edilməsi ilə arbitraj institutunun inkişafı istiqamətində irəliyə doğru addım atılıb. Yeni Qanun Beynəlxalq Kommersiya Arbitrajı haqqında BMT-nin Model Qanunu əsasında hazırlanıb. Bu isə o deməkdir ki, burada sınaqdan keçmiş işlək beynəlxalq təcrübə nəzərə alınıb. Bununla da ölkəmizdə ilk dəfə olaraq qanunvericiliklə həm beynəlxalq, həm də daxili arbitrajın həyata keçirilməsi ilə bağlı münasibətlər tənzimlənəcək. Qanun həmçinin arbitrajın yaradılması və tənzimlənməsi ilə bağlı mühüm aspektləri əhatə edir və nəticədə mübahisələrin alternativ həlli sahəsində, xüsusən də biznes dairələri üçün yeni imkanlar açır. Yerli məhkəmələr olaraq, arbitraja münasibətdə yardım və nəzarət funksiyalarının, eyni zamanda arbitraj qərarlarının tanınması və icra edilməsi kimi qanunvericiliklə üzərimizə düşən vəzifələrin yerinə yetirilməsinə davam edəcəyik. Bu baxımdan yerli məhkəmələr Azərbaycanda arbitraj institutunun uğurlu olması üçün bütün lazımi dəstəyi verəcək. Yeni arbitraj institutu nəinki məhkəmə sisteminin iş yükünün azaldılmasına, həm də sahibkarlara mübahisələrin həlli istiqamətində ən uyğun məkanı seçmək imkanları da yaradacaq. Əminliklə deyə bilərəm ki, mübahisələrin alternativ həlli sahəsində aparılan hərtərəfli islahatlar ölkəmizdə güclü və etibarlı arbitraj institutunun yaradılmasına önəmli töhfə verəcək, hətta bəlkə də bu institut bütün region üçün nümunə olacaq".

Azərbaycan Sahibkarlar Konfederasiyasının prezidenti Məmməd Musayev Prezident İlham Əliyevin rəhbərliyi ilə sosial-iqtisadi və məhkəmə-hüquq sahələrində də ardıcıl islahatların uğurla həyata keçirildiyini diqqətə çatdırıb. M.Musayev bildirib ki, bunların məntiqi nəticəsi olaraq Azərbaycanda dayanıqlı və sabit iqtisadi sistem formalaşmaqdadır: "Ölkəmizdə "Arbitraj haqqında" qanunun və effektiv arbitraj institutunun yaradılması da bu islahatların məntiqi davamıdır. Belə ki, məhz arbitraj təsisat olaraq həm məhkəmələrin iş yükünün azaldılmasına xidmət edir, həm də sahibkarlara, investorlara mübahisələrin həlli ilə bağlı əlavə imkanlar açır. Dünya təcrübəsi göstərir ki, müstəqil və effektiv arbitraj məhkəməsinin biznes mühitinin əlverişliliyinin artırılmasına, xarici investorların cəlb edilməsinə və özəl sektorun iqtisadi inkişafda rolunun gücləndirilməsinə birbaşa təsiri var. Arbitraj məhkəməsi və bu çərçivədə hüquqi icraat ölkənin hüquq sisteminin inkişafına, insanların hüquq mədəniyyətinin yüksəlməsinə də təsir göstərir. Məhz bu səbəbdən ölkəmizdə "Arbitraj haqqında" qanunun qəbul edilməsi irəliyə doğru atılmış bir addım kimi bütün ölkə ictimaiyyəti, o cümlədən sahibkarlar tərəfindən dəstəklənib".

Beynəlxalq Ticarət Palatasının Arbitraj Məhkəməsinin keçmiş sədri Aleksis Mourre çıxışında hazırda iqlim dəyişmələrinin dünyanı narahat edən əsas məsələlərdən biri olduğunu və bununla bağlı mübahisələrin sayının artdığını diqqətə çatdırıb: "İqlim dəyişmələrinə təkan verən səbəbləri və mənfi nəticələri aradan qaldırmaq üçün əksər ölkələr BMT-nin iqlim dəyişmələri ilə bağlı Konvensiyasını ratifikasiya edib və Paris Sazişinə qoşularaq üzərilərinə öhdəliklər götürüblər. Bununla da dövlətlər iqlim dəyişmələri ilə mübarizəyə töhfə vermiş olacaqlar. Bundan başqa, ölkələr tərəfindən iqlim dəyişmələri ilə bağlı milli tədbirlər planı qəbul edilməkdədir. Bu, beynəlxalq qanuna uyğundur. Buna baxmayaraq, iqlim dəyişmələri ilə bağlı beynəlxalq mübahisələrin sayı artmaqdadır".

Onun sözlərinə görə, dünyada bu istiqamətdə beynəlxalq mübahisələrin sayı getdikcə artacaq.

Tədbir panel müzakirələrlə davam edib.

"Azərbaycan Arbitraj Günləri" tədbiri aprelin 26-da yekunlaşacaq.

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİ ADMİNİSTRASİYASININ VƏTƏNDAŞ QƏBULU MƏRKƏZİNDƏ 2024-cü ilin may ayında vətəndaşların qəbulu cədvəli

| Qəbulu aparan şəxs | Qəbul günü |
|---|---|
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri** Nağdəliyev Zeynal Səfər oğlu | 1 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri** Hacıyev Hikmət Fərhad oğlu | 2 |
| **Azərbaycan Respublikası Birinci vitse-prezidentinin Katibliyinin rəisi** Həsənov Altay Tofiq oğlu | 3,10,24 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin müdiri** Ələsgərov Fuad Murtuz oğlu | 3,23 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hərbi məsələlər şöbəsi** | 6 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri** Mövsümov Şahmar Arif oğlu | 7 |
| **Azərbaycan Respublikası Prezidentinin mətbuat katibi** Qasımov Azər Məhəmməd oğlu | 7 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri** Əmirov Natiq Ərziman oğlu | 8 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri** Məmmədəliyev Yusuf Ülfət oğlu | 10 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri** Əliyeva Fərəh Şirməmməd qızı | 13 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Dövlət nəzarəti məsələləri şöbəsinin müdiri** Həsənov Kərəm Əvəz oğlu | 14 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri** Məcidov Tələt Tahir oğlu | 15 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin Əfv məsələləri sektoru** | 16 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri** İsmayılov Süleyman Abbas oğlu | 17 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsi** | 21 |
| **Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Hüseynov Emin Zamin oğlu | 21 |
| **Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Məmmədov Məsim Əhməd oğlu | 22 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri** Kərimov Gündüz Hacı oğlu | 24 |
| **Şuşa rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Kərimov Aydın Zöhrab oğlu | 27 |
| **Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Hacıyev Vahid Rasim oğlu | 29 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri** Vəliyev Ədalət Məqsəd oğlu | 30 |
| **Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Yusubov Elçin Mustafa oğlu | 30 |
| * * * | |
| **Azərbaycan Respublikasının Təhlükəsizlik Şurası Azərbaycan Respublikası Təhlükəsizlik Şurasının katibi** Usubov Ramil İdris oğlu | 31 |

**Qeyd: Vətəndaşlar Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzində qəbul olunurlar.**
**Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Zaur Nudirəliyev,79.**
**Qəbula yazılış qəbul gününə ən geci 1 iş günü qalmış dayandırılır.**
**Qəbul saat 14:00-dan başlayır.**
**Əlaqə üçün: Çağrı Mərkəzi - 1111.**

# Azərbaycan türk dünyasının daha bir ölkəsi ilə iqtisadi əlaqələrini genişləndirir

**Azərbaycan və Qırğızıstan arasında iqtisadi əlaqələr də durmadan inkişaf edir. Qırğız Respublikasının Prezidenti Sadır Japarovun ölkəmizə rəsmi səfəri zamanı müzakirə olunan məsələlər və imzalanan sənədlər bu əlaqələrin daha da genişlənməsinə təkan verəcək. Elə təkcə o faktı qeyd etmək kifayətdir ki, Azərbaycan-Qırğızıstan İnkişaf Fondunun vəsaitləri artırılır. Çünki bu imkandan istifadə etmək istəyən sahibkarlardan çoxlu müraciətlər daxil olur. Beləliklə, investisiya sahəsində qarşılıqlı fəaliyyətin yeni üfüqləri görünür.**

Azərbaycan və Qırğızıstan Dövlətlərarası Şurasının 2-ci iclası bir sıra digər sahələrdə də əməkdaşlığın inkişafı üçün perspektivlərin olduğunu göstərdi. Məsələn, Qırğızıstan energetika sahəsində böyük potensiala malikdir və Azərbaycan şirkətləri bərpaolunan enerji sahəsində işləməkdə maraqlıdır. Eləcə də gələcəkdə ölkələrimiz arasında əmtəə dövriyyəsinin artırılması üçün perspektivlər mövcuddur. Nəqliyyat sahəsində də fəal əməkdaşlıq nəzərdə tutulur. Çünki həm Qırğızıstanda, həm də Azərbaycanda nəqliyyat sahəsində iri infrastruktur layihələri həyata keçirilir. Buna görə də fəaliyyətlərin birləşdirilməsi və əlaqələndirilməsi yeni dəhlizlər açmaq, yeni nəqliyyat arteriyaları yaratmaq üçün müstəsna dərəcədə əhəmiyyətlidir.

Bu il aprelin 24-də imzalanmış sənədlər bir sıra sahələrdə əməkdaşlığın inkişafı üçün məhz möhkəm baza rolunu oynayacaq. Azərbaycan-Qırğızıstan sənədlərinin imzalanması mərasimi hər iki ölkənin prezidentlərinin iştirakı ilə keçirildi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qırğız Respublikasının Prezidenti Sadır Japarov "Azərbaycan Respublikası və Qırğız Respublikasının Dövlətlərarası Şurasının ikinci iclasının Qərarı"nı və "Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Qırğız Respublikasının Prezidenti Sadır Japarovun Birgə Bəyannaməsi"ni imzaladılar. Məlumdur ki, bu iki ölkənin müvafiq nazirlikləri və idarələri daim təmasdadırlar, müntəzəm məsləhətləşmələr keçirir və əməkdaşlığı genişləndirirlər. İmzalanan sənədlər də məhz bu məqsədə xidmət edir. Həmin sənədlərin ümumi sayı 18-dir və xeyli hissəsi iqtisadi sahələrə aiddir. Onlardan biri "Azərbaycan Respublikasının Energetika Nazirliyi ilə Qırğız Respublikasının Energetika Nazirliyi arasında energetika sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"dur. Eləcə də "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə Qırğız Respublikasının Rəqəmsal İnkişaf Nazirliyi arasında Qırğız Respublikasında dövlət xidmətləri mərkəzlərinin təkmilləşdirilməsinə dair Anlaşma Memorandumu" imzalandı. Həmin gün imzalanan sənədlər sırasında "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə Qırğız Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Gömrük Xidməti arasında qarşılıqlı ticarətdə statistik məlumatların mübadiləsi sahəsində əməkdaşlıq haqqında Protokol" və "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə Qırğız Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Gömrük Xidməti arasında gömrük idarəetməsinin təkmilləşdirilməsi məqsədilə əməkdaşlıq və qarşılıqlı yardım haqqında Saziş" də var. Həmçinin "Azərbaycan Respublikası Hökuməti ilə Qırğız Respublikası Nazirlər Kabineti arasında miqrasiya sahəsində əməkdaşlıq haqqında Saziş", "Azərbaycan Respublikası Hökuməti ilə Qırğız Respublikası Nazirlər Kabineti arasında Azərbaycan-Qırğız İnkişaf Fondunun yaradılması haqqında Sazişə dəyişikliklərin edilməsi haqqında Əlavə Saziş" və "Azərbaycan Respublikası ilə Qırğız Respublikası arasında gəlirlərə görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında Saziş" imzalanıb.



Dövlətimizin başçısı mətbuata bəyanatında genişlənən bu əməkdaşlığın əhəmiyyətli olduğunu vurğulayıb: "Çox şadam ki, biz iqtisadi-ticari sahədə fəal əməkdaşlıq edirik. Ticarət dövriyyəsinin dəfələrlə artmasına dair bu gün rəqəmlər səsləndirildi. Baxmayaraq ki, mütləq rəqəmlər hələ çox böyük deyil. Amma potensialın artması tendensiyası mövcuddur. Bu gün həmçinin Azərbaycan-Qırğız İnkişaf Fondunun Nizamnamə fondu haqqında Sazişə əlavə imzalandı. Biz Nizamnamə fondunu 4 dəfə - 25 milyon dollardan 100 milyon dollara qədər artırdıq. Başlıca səbəb odur ki, çoxlu müraciət var. Bizə məruzə edildi ki, Qırğızıstanda investisiya layihələrinin həyata keçirilməsi üçün fonda 40-dan çox müraciət daxil olub. Ona görə də düşünürəm ki, 100 milyon dollar da son hədd deyil. Biz müvafiq hökumət strukturlarına birgə investisiya fondu çərçivəsində layihələrin həyata keçirilməsi mexanizmini daha tez reallaşdırmaq üçün birlikdə tapşırıq verdik. Amma bu, ticarət dövriyyəsinin artırılması üçün yeganə mexanizm deyil. Bizim investisiya siyasəti üzrə başqa formalarımız da var".

Azərbaycan tərəfindən İssık-Kul gölünün sahilində beşulduzlu hotelin tikilməsi nəzərdə tutulub. Bizim Ağdam rayonunda isə Qırğızıstan tərəfindən orta məktəb binası inşa ediləcək. Məktəbin tikintisini Qırğızıstan erməni vandalizmindən zərər çəkmiş regionların bərpasına özünün töhfəsi sanır. Azərbaycan və Qırgızıstan prezidentləri artıq məktəbin təməlini də qoymuşlar.

Azərbaycan və Qırğızıstan rəhbərlərinin hər il qarşılıqlı səfərlərinin həyata keçirilməsi üzrə yaxşı ənənəsi formalaşıb. Ötən il və ondan əvvəlki il Azərbaycan Prezidenti Qırğızıstanda, Qırğızıstan Prezidenti isə Azərbaycanda olub. Bu il yenidən ölkəmizə səfərə gələn Qırğızıstanın dövlət başçısı işğaldan azad olunmuş ərazilərimizi də ziyarət edib. "Bizim hələ yayda Şuşada Türk Dövlətləri Təşkilatının qeyri-rəsmi Zirvə görüşünün keçirilməsi zamanı Azərbaycanda görüşmək imkanımız olacaq. Həmçinin Sadır Nurqojoyeviçi noyabr ayında COP29 beynəlxalq konfransında iştiraka dəvət etdim, - deyib Prezidentimiz. Deməli, əlaqələr, tədbirlər, görüşlər davam edir. Hər bir görüş isə, dövlətimizin başçısının dediyi kimi, qarşılıqlı fəaliyyətin, ünsiyyətimizin gücləndirilməsi, eləcə də ikitərəfli və çoxtərəfli əməkdaşlığın mühüm məsələlərinin həlli baxımından əhəmiyyətli və dəyərlidir.

***Flora SADIQLI,***
***"Azərbaycan"***



# İlham Əliyevdən ədalət dərsi

## Prezident həqiqətləri açıqladı, vəziyyəti dəyərləndirdi, yeni əməkdaşlıq formatı təklif etdi və bəzi dairələrə ciddi mesajlar ünvanladı

**Cənubi Qafqazın lider ölkəsi kimi Azərbaycan son günlər bir daha dünyanın diqqət mərkəzinə çevrilib. Son bir həftə ərzində baş verən siyasi proseslər Prezident İlham Əliyevin tam müstəqil siyasətinin, etibarlı tərəfdaşlığının yaratdığı reallığı şərtləndirir desək, yanılmarıq.**

Rusiya sülhməramlılarının vaxtından əvvəl Qarabağı tərk etməsi, ardınca İlham Əliyevin Vladimir Putinin dəvəti ilə Rusiyaya səfəri, zəngin keçən görüş, müzakirə edilən mühüm məsələlər, ardınca 30 ölkədən 64 beyin mərkəzinin nümayəndələrinin iştirakı ilə ADA Universitetində keçirilən "COP29 və Azərbaycan üçün Yaşıl Baxış" mövzusunda beynəlxalq forumda İlham Əliyevin çıxışı, verdiyi mesajlar, Qırğızıstan Prezidenti Sadır Japarovun Azərbaycana səfəri, imzalanan yeni sənədlər, əldə olunan razılaşmalar - bütün bunlar cəmi 3 gün ərzində reallaşdı.

### Sabitlik məkanına əsassız hücumlara qarşı layiqli cavab veriləcək

ADA Universitetində keçirilən beynəlxalq forum ilk növbədə onu göstərdi ki, İlham Əliyevin qətiyyətli siyasəti nəticəsində bütün istiqamətlər üzrə inkişaf etmiş dövlətimiz həm də müasir tarixi dövrün ən geniş dialoq məkanına çevrilib. Sivilizasiyalararası, mədəniyyətlərarası, dinlərarası dialoqlara həsr edilmiş beynəlxalq səviyyəli möhtəşəm zirvə toplantıları, sammitlər, forumlar, simpoziumlar ölkəmizdə dünyanın, regionun, ölkələrarası münasibətlərin, qlobal problemlərin geniş və işgüzar şəkildə müzakirəsinə meydan açıb.

Öncə onu vurğulayaq ki, İlham Əliyevin forumdakı konseptual, əhatəli çıxışı bir daha göstərdi ki, Azərbaycan Prezidenti hətta xarici dildə sərbəst nitq, analitik təhlil mədəniyyəti, problemə kompleks yanaşmaq istedadı, proqnozlaşdırmaq məharəti ilə dünya liderləri sırasında fərqli bir təfəkkür sahibidir.

İlham Əliyevin hər bir çıxışı Azərbaycan həqiqətlərinin təbliğində zəngin mənbədir. Bu baxımdan Prezidentin səsləndirdiyi fikirlər, bir-birindən mühüm məqamlar, çağırışlar, bəyanatlar həqiqi ünvanlara çatmış oldu. Xüsusən də Ermənistana və havadarlarına ünvanlanan mesajlar da diqqət çəkdi.

Forumda bir daha əsl həqiqətləri açıqlayan İlham Əliyevin bəyanatlarını ədalət dərsi də adlandırmaq olar. Çünki Prezident hər zaman olduğu kimi, qətiyyətli siyasət nümayiş etdirərək regionla bağlı bəzi dairələrin hansı məkrli oyunlar oynadıqlarını dünyaya bəyan edir. Azərbaycanın dəyişməz mövqeyini, müəyyənləşdirdiyi yol xəritəsini və gələcək planlarını açıqlayaraq Ermənistana, onun bəzi havadarlarına, antiazərbaycançı qüvvələrə mesajlar ünvanlayır.

Prezident bildirdi ki, bu gün bəzi ölkələrdən Azərbaycana qarşı əsassız hücumlar var. Bunun müqabilində Azərbaycan cavab tədbirləri görməyə bilməz. Çünki heç bir təhdid, hədə-qorxu Azərbaycanı qorxutmur. Hər bir təxribata, təzyiqə cavab verməyə yetərincə gücümüz var. Lazım olarsa, diplomatik yolla, lazım gələrsə, güc yolu ilə...

### Azərbaycan heç vaxt "qırmızı xət"ləri keçmir

Bəzi ölkələrin, əslində, Azərbaycana qarşı soyuq müharibəyə başladıqlarını vurğulayan dövlətimizin başçısı bildirib ki, ölkəmiz tam eyni tədbirləri görür və qırmızı xətləri keçmir.

İlham Əliyev region dövlətlərinə səslənərək bəyan etdi ki, Cənubi Qafqazda ayırıcı xətləri çəkmək üçün bəzi cəhdlər göstərilir: "Məhz bu səbəbdən Avropa Komissiyasının sədri, ABŞ-nin Dövlət katibi və Ermənistanın baş nazirinin tarixdə görünməmiş Brüssel görüşündən narahatlığımızı bildirdik". Dövlət başçısının söylədiyi kimi, çünki bu təsisatın tarixində heç zaman keçmiş SSRİ respublikası ilə bu cür görüş olmayıb. Hətta Ukrayna, Gürcüstan və Moldova ilə belə görüş keçirilməyib.

Prezident yenə də sözünü açıq söylədi və heç nəyi gizlətmədi. Sülh danışıqlarına gəlincə, İlham Əliyev hər kəsin diqqətinə həqiqəti çatdıraraq dedi ki, bu gün sülh sazişinin imzalanmasına heç vaxt olmadığı qədər yaxınlıq var. İşğal zamanı buna heç vaxt bu qədər yaxın olmamışıq. Həmin vaxt baza prinsipləri üzərində belə razılığa gəlmək mümkün olmayıb. Hətta "Madrid prinsipləri" üzrə razılığa gəlinmədiyini xatırladan dövlət başçısı bildirdi ki, o zaman sülh sazişinin layihəsi belə yox idi: "İndi bizim sülh sazişinin necə olması ilə bağlı ümumi anlayışımız var. Biz, sadəcə, təfərrüatları işləməliyik. Lakin, əlbəttə, hər iki tərəfə vaxt lazımdır".

Dövlət başçısı COP29-dan əvvəl Azərbaycanla Ermənistan arasında razılaşmanın, ən azı baza prinsipləri ilə bağlı razılaşmanın əldə olunmasının tamamilə real göründüyünü dedi: "Hesab edirəm ki, baza prinsipləri ilə bağlı razılığa gəlmək və sonra məzmunun təfərrüatlarına daha çox vaxt ayırmaq da bir variantdır. Lakin hətta layihə hazır olsa da, düşünürəm ki, bunun üçün hər iki tərəf gərgin işləməli və ola bilsin görüşləri bir gün deyil, bir neçə gün keçirməlidir".

Tarixi proseslərdən, dəyişməyən erməni xislətindən də bəllidir ki, Hayastan əksər zamanlarda aman diləsə də, zaman keçdikcə məkrli oyunlarını yenə işə salıb. Prezidentin fikirlərindən aydın olduğu kimi, artıq ermənilər də "Dağlıq Qarabağ" amilinin olmaması və bu adın sülh sazişinə daxil edilməməsi ilə razılaşıblar. Bu o deməkdir ki, əsas maneə artıq mövcud deyil. Yox, əgər onlar o qədər də vacib olmayan bəzi terminlərdən yapışsalar, onda bəlli olacaq ki, bu, vaxtdan istifadə edərək daha çox silahlanmaq və Azərbaycana yenidən hücum etmək planının tərkib hissəsi imiş. Lakin əlbəttə ki, onlara belə bir şans verilməyəcək.

Son zamanlarda baş verən proseslər də göstərir ki, Ermənistan sülhə hazır olduğunu söyləsə də, silahlanmaqda davam edir. Prezident bu ölkəyə silah-sursat verən dövlətlərin adını çəkərək bir daha xəbərdarlığını ünvanladı: "Fransa, Hindistan və Yunanıstan Ermənistanı bizə qarşı silahlandırır. Özü də onlar bunu açıq və nümayişkaranə şəkildə edirlər və hətta çalışırlar ki, bununla bizə nə isə sübuta yetirsinlər. Biz sadəcə oturub gözləyə bilmərik. Biz bu mövqeyi açıq şəkildə Ermənistan hökumətinə və Ermənistanın bu gün qayğısına qalmağa çalışan tərəflərə bildirmişik. Əgər özümüzə ciddi təhdid görsək, biz ciddi tədbirlər görməli olacağıq".

Bu, Ermənistanın havadarlarına göndərilən sərt xəbərdarlıq idi. Həm Hayastan, həm də onun havadarları yaxşı bilirlər ki, İlham Əliyev deyir və edir. Nəyin nə zaman reallaşacağını da çox yaxşı bilir.

### Yeni əməkdaşlıq üçün yaxşı fürsət var

Azərbaycanın bu gün dünyada tutduğu mövqeyini və baxışlarını diqqətə çatdıran İlham Əliyev forum iştirakçılarının regional və qlobal əhəmiyyət daşıyan suallarına da geniş şəkildə cavab verdi. Prezident bildirdi ki, bu gün Azərbaycanda ciddi və ya potensial qaydada yarana biləcək hər hansı risk yoxdur. Üzləşə biləcəyimiz yeganə potensial risklər isə xaricdən gələ bilər. Bu səbəbdən də Azərbaycan düşünülmüş siyasət yürütməyə məcburdur. Belə ki, risklərlə üzləşməmək üçün qapılarımız hərc-mərclik yaradanların üzünə bağlı, sadiq qonaqlarımızın üzünə isə açıq saxlanmalıdır.

Dövlət başçısı misal kimi hazırda quru sərhədlərin müəyyən dövrdə bağlı qalmasından sonra Azərbaycanda təhlükəsizliyin gücləndiyini göstərib: "Biz kənardan gələn ciddi təhdidlər və problemlərlə üzləşmişdik. Bizim bütün potensial risklərimizin kənardan gəldiyini söylədikdə mən bunu nəzərdə tuturdum".

Bu gün Qafqazın qlobal miqyasda hadisələrin sürətlə inkişaf etdiyi bölgə olduğunu və proseslərin düzgün məcraya yönəldilməsi üçün proaktiv olmağın vacibliyini vurğulayan Prezident dedi ki, bunun üçün oturub gözləmək məqsədəuyğun deyil. Rahatlaşmaq uduzmağa məhkum edə bilər.

Prezident regionla bağlı mövcud durumu dəyərləndirərək görüləcək işlərin çox olduğunu və bu gündəliyin Cənubi Qafqazda təhlükəsizlik tədbirlərinin gücləndirilməsinə xidmət edəcəyini vurğuladı. Dövlət başçısı təkliflə çıxış edərək dedi ki, ümumilikdə Cənubi Qafqazda üç ölkə (Azərbaycan, Gürcüstan və Ermənistan) arasında ən azı məsləhətləşmə formatı yaradıla bilər: "...Bu, gələcək əməkdaşlığa yol açsın. Bu, misilsiz bir fürsətdir. Sülh şəraitində müstəqillik yoluna qədəm qoyan Baltik dövlətlərindən fərqli olaraq, Sovet İttifaqının süqutu bizi bu imkandan məhrum etdi. Biz müharibələrlə üzləşdik. İndi isə bu səhifəni çevirmək üçün fürsət var, biz bunu edirik və COP29 bunun gözəl nümunəsidir".

Bir sözlə, İlham Əliyev beynəlxalq forumun ali tribunasından istifadə edərək Azərbaycanın yeni dövr üçün prioritet və hədəflərini açıqladı. Ölkəmizin xoşniyyətli bütün təkliflər üçün açıq olduğunu bildirdi və Cənubi Qafqazda sabitliyin təminatının, yeni dövrün tələblərinə uyğun addımların atılmasının vacibliyini vurğuladı.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Azərbaycan suverenliyini tam təmin edib

## Sülhməramlıların ərazilərimizdə işi olmadığına görə Rusiyaya qayıdıblar

**"Prezident ADA Universitetində keçirilmiş forumda Rusiya sülhməramlılarının Qarabağı tərk etməsi, Cənubi Qafqazdan çıxması və onun yerinin kənar qüvvələrlə əvəz olunması ilə bağlı ünvanlanan suala cavabında Qafqazın bir hissəsinin Rusiya daxilində olduğunu və əlbəttə ki, Rusiyanın bu regionu heç vaxt tərk etməyəcəyini bildirib. Rusiya region ölkəsidir və bizim qonşumuzdur, ölkələrimiz arasında çox möhkəm əməkdaşlıq və dostluq münasibətləri var".**



Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Azər Badamov deyib. Deputat bildirib ki, sülhməramlıların ərazilərimizdən çıxması ölkələrarası münasibətlərimizə xələl gətirmir, əksinə, gücləndirir. Sülhməramlıların Qarabağda yerləşdirilməsi 10 noyabr 2020-ci ildə imzalanmış üçtərəfli Bəyanata əsaslanır. Bu gün isə Azərbaycan öz ərazilərində tam şəkildə suverenliyi təmin edib və Qarabağda sülhməramlıların görməyə bir işi qalmayıb. Odur ki, ərazilərimizi vaxtından əvvəl tərk etmələri üçün qərar verildi. Burada Rusiya ilə Azərbaycan münasibətlərində fikir ayrılığı yaradacaq bir məqam yoxdur. O cümlədən Cənubi Qafqazın bütün respublikaları Rusiya ilə sıx bağlıdırlar. Regionumuzun Rusiya ilə iqtisadi, humanitar və mədəni əlaqələri mövcuddur. Biz Rusiya ilə münasibətlərin möhkəmlənməsinə yüksək dəyər veririk. "Cənab Prezident İlham Əliyevin Moskvaya işgüzar səfəri çərçivəsində Rusiya Prezidenti Vladimir Putinlə ölkələrimiz arasında əməkdaşlığın daha da genişləndirilməsi ilə bağlı məsələlər müzakirə olunub. Əməkdaşlığımız qarşılıqlı hörmət və fayda əsasında qurulub. Halbuki keçmiş sovetlər birliyində birgə yaşamış, eyni dilə və dinə malik respublikalar arasında münaqişələr və müharibələr davam edir. Həmin respublikalar da Azərbaycandan nümunə götürməli və Rusiya ilə münasibətlərin normallaşdırılmasına çalışmalıdırlar", - deyə deputat əlavə edib.

Azər Badamov qeyd edib ki, regiona kənar güclərin gəlməsi cəhdi var ki, bu da qəbulolunan deyil. Bunu Ermənistanla Qərb arasında baş verən danışıqlar prosesində müşahidə etməmək qeyri-mümkündür. Aprelin 5-də Brüsseldə keçirilmiş görüşün əsl məqsədi hamıya bəllidir, o cümlədən Fransa, Yunanıstan və Hindistanın Ermənistanı yenidən silahlandırmasını görməmək mümkün deyil. Onlar Ermənistana forpostları kimi yanaşaraq regionda öz maraqlarını reallaşdırmağa çalışırlar. Əlbəttə ki, Ermənistanın silahlanması onun daxili işidir. Amma bu, ölkəmizə qarşı təhdid yaradacağı halda, təbii ki, lazımi tədbirlər görüləcəkdir.

A.Badamov vurğulayıb ki, Ermənistan və onu revanşizmə hazırlayanlar Azərbaycana qarşı öz çirkin niyyətlərini reallaşdıra bilməyəcəklər: "Dünya Vətən müharibəsində və 23 saat aparılan lokal xarakterli antiterror tədbirlərində ordumuzun gücünü gördü. Ermənistan aldığı ağır zərbədən nəticə çıxarmalı və Azərbaycanla münasibətlərin normallaşdırılmasına çalışmalıdır. Dövlət başçımız forumda Ermənistana və havadarlarına birbaşa mesajlar göndərərək onları bu əməllərdən çəkinməyə çağırdı".

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Ermənistanı silahlandıranlar Azərbaycan Prezidentinin sözlərini nəzərə alsalar, daha yaxşı olar

**"ADA-da keçirilən "COP29 və Azərbaycan üçün Yaşıl Baxış" beynəlxalq forumunda Azərbaycanın mövqeyi Prezident İlham Əliyevin məzmunca və mahiyyətcə geniş və əhəmiyyətli çıxışı ilə bir daha nümayiş etdirildi. Azərbaycan öz haqlı mövqeyindən heç bir zaman geri çəkilməyəcəyini bütün dünyaya növbəti dəfə bəyan etdi. Dövlətimizin başçısı, həmçinin Azərbaycanla Ermənistan arasında 30 ildən artıq davam edən haqsız müharibədə birtərəfli mövqe tutan, işğalçını dəstəkləyən və bu siyasəti bu gün də davam etdirən ölkələrə xəbərdarlıq etdi".**



Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Jalə Əliyeva deyib. Deputat qeyd edib ki, Prezidentin xəbərdarlığının mahiyyəti ondan ibarətdir ki, Azərbaycan öz əzəli və əbədi torpaqlarında elan etdiyi suverenliyini sonuna qədər qoruyacaq və bundan sonra heç bir qüvvə ölkəmizin ərazi bütövlüyünə və müstəqilliyinə kölgə sala bilməyəcək: "Azərbaycanın suverenliyini hansısa formada təhdid etməyə cəhd göstərənlər mütləq cəzalandırılacaqlar. Dövlət başçısı forumda bununla bağlı bildirdi ki, "Biz Fransanın, Hindistanın və Yunanıstanın Ermənistanı bizə qarşı necə silahlandırdığını və bunu açıq, nümayişkaranə şəkildə etdiyini, sanki bizə nəyisə sübut etməyə çalışdığını görüb, sakit oturub gözləyə bilmərik. Biz, sadəcə, oturub gözləyə bilmərik və biz bu mövqeyi Ermənistan hökumətinə, indi Ermənistanın qayğısına qalmaq istəyənlərə açıq şəkildə bildiririk. Bizə qarşı ciddi təhlükə görsək, ciddi tədbirlər görməli olacağıq".

Jalə Əliyevanın sözlərinə görə, Ermənistan onlara çatdırılan silahların təhlükəli ya təhlükəsiz olmasına baxmayaraq, bu silahlanmanı dayandırmalıdır: "Bu, İrəvana heç bir üstünlük bəxş etməyəcək. Erməni xalqının tərəqqisi yalnız Azərbaycanla sülh müqaviləsi imzalamaqdan keçir. Hazırkı davranışları ilə sadəcə bir sıra qüvvələrin, eləcə də Fransanın Cənubi Qafqazda möhkəmlənmək istəyinin qurbanına çevrilirlər. O səbəbdən Azərbaycanın səmimi mesajlarını və sülh təklifini nəzərə almalarında fayda var. Dövlət başçısının "Yenə deyirəm, mənim mesajım qətiyyən təkəbbürlü xəbərdarlıq kimi qəbul edilməməlidir. Xeyr. Onların nə etməsindən asılı olmayaraq, müdaxilə etməyəcəyəm. Bu, onların həyatı və onların ölkəsidir. Amma onlar bizə qarşı hərbi güc nümayiş etdirəndə, bəzən öz qoşunlarını sərhədimizdə cəmləyəndə biz sakit otura bilmərik. Bu, bizim təhlükəsizliyimizdir və narahat olmağa haqqımız var. Ona görə də mənim onlara və onlardan Azərbaycana qarşı forpost kimi istifadə etmək istəyənlərə mesajım budur ki, bunu etməyin" xəbərdarlığı Ermənistan hökuməti və havadarları tərəfindən düşünülməli və bu istiqamətdə addımlar atılmalıdır".

Deputat yekunda vurğulayıb ki, Ermənistan nə qədər silahlanırsa, silahlansın, Azərbaycanın "dəmir yumruğ"u qarşısında hər zaman acizdir. İkinci Qarabağ müharibəsində qarşımızda diz çökən Ermənistanın acı məğlubiyyəti bunu sübuta yetirdi. Ermənistanı silahlandıranlar Azərbaycan Prezidentinin sözlərini unutmasınlar. Prezident İlham Əliyevin forumda qürurla qeyd etdiyi kimi, cəmi 44 gün adi insanların, sadəcə, gəzintiyə çıxa bilmədiyi dağlara çıxdıq və biz bunu yüngül silahlarla etdik, onların ordusunu tamamilə məhv etdik.

***N.QAFARZADƏ,***
***"Azərbaycan"***

# Ermənistan İlham Əliyevin yaratdığı reallıqları qəbul edir

**"ADA-da keçirilən "COP29 və Azərbaycan üçün Yaşıl Baxış" beynəlxalq forumunda Prezident İlham Əliyevin çıxışı, iştirakçıların suallarına verdiyi cavablar çoxşaxəli və dərin məzmunludur. Dövlət başçısı ölkəmizin və Cənubi Qafqazın gələcəyi ilə bağlı olduqca mühüm məsələlərə toxunub. Onların arasında Ermənistan tərəfindən işğal edilmiş dörd kəndimizin danışıqlar yolu ilə geri qaytarılması, demarkasiya prosesinin başlanılması xüsusi yer tutur".**



Bu fikirləri qəzetimizə açıqlamasında Milli Məclisin deputatı Musa Qasımlı deyib. Deputat bildirib ki, Qazaxın 4 kəndinin qaytarılması sadəcə ərazilərimizin vətənə qovuşdurulması anlamını daşımır, mövzu daha dərindir: "Dövlət başçısı çıxışı zamanı vurğulayıb ki, sərhəd delimitasiyası məsələsində Azərbaycan və Ermənistan olduqca konstruktiv davranış nümayiş etdirirlər. "Görünənlər bunun bir parçasıdır - bu, bir nəticədir. Lakin bu nəticə müntəzəm təmaslardan və müsbət dinamikadan qaynaqlanır" deyən Prezidentimiz bu işi konsolidasiya etməyin və irəliləməyin vacibliyini də vurğulayıb".

Musa Qasımlının sözlərinə görə, kəndlərimizin bir güllə belə atılmadan geri qaytarılması Azərbaycan Prezidentinin yürütdüyü prinsipial siyasətin nəticəsidir: "Bu həm də Ermənistan rəhbərliyinin reallığı qəbul etməsidir. Görünür, Azərbaycanın bütün qonşuları ilə, o cümlədən Ermənistanla dinc və mehriban münasibətlərdə yaşamaq istəyi müsbət nəticə verir. Rəsmi İrəvan artıq başa düşür ki, vaxtilə işğal edilmiş kəndlər sahiblərinə geri qaytarılmalıdır. Ermənistan rəhbərliyi Azərbaycanla indiyə qədər yürüdülən siyasətin yanlış olduğunu anlayır, normal münasibətlər qurmaq istəyir. Lakin Ermənistan daxilində buna müqavimət göstərən revanşist qüvvələr mövcuddur".

Deputat söyləyib k, Ermənistanın Azərbaycanla mehriban qonşuluq münasibəti yürütməsi əməkdaşlığa gətirəcək və erməni xalqı bundan faydalanacaq: "Ermənilər regiona sonradan gəlmə olsalar da, biz mehriban qonşulara çevrilməliyik. Azərbaycan xalqı müharibə istəmir, Ermənistandan qat-qat güclü olsaq da, bizə yeni müharibə, yeni itkilər lazım deyil. Qafqazın gələcəyi Qafqaz dövlətlərinin əlində, qonşuların mehriban dostluq münasibətlərində olmalıdır. Kənar qüvvələrin regiona müdaxiləsinə icazə verilməməlidir".

Musa Qasımlı Prezident İlham Əliyevin forumdakı nitqində diqqətçəkən digər məsələ - Ermənistanla Azərbaycan arasında sərhədlərin delimitasiyası və demarkasiyası barədə də fikir bildirib. Qeyd edib ki, bu hadisə müstəsna əhəmiyyət daşıyır: "Dövlət başçısının da dediyi kimi, bu məsələlərin görünən və pərdəarxası tərəfləri var. Görünən tərəfləri ilə ictimaiyyət əvvəlcədən xəbərdar olur, pərdəarxası tərəflər isə onun nəticələrində özünü göstərir. Ümumiyyətlə, sərhədlərin delimitasiyası elə ən başından Azərbaycanın istəyi olub. Lakin indi olduğu kimi, o vaxt da buna mane olan qüvvələr olub. Fikrimcə, sərhədlərin delimitasiyası və demarkasiyası prosesini digər dövlətlər topa tutmamalı, onu baltalamamalı, öz maraqlarını güdməməlidirlər. Bu proses Ermənistanla sülh çərçivəsində davam etdirilməlidir".

***Nəzrin QAFARZADƏ,***
***"Azərbaycan"***

# Sülh üçün mühüm tarixi şərait yetişib

## Ermənistan bundan istifadə etməzsə, yalnız özünə zərbə vuracaq

**"Biz sülhü müharibə ilə gətirdik. Bu da bir seçimdir və bunun mümkün olduğunu nümayiş etdiririk".**




Aprelin 23-də "COP29 və Azərbaycan üçün Yaşıl Baxış" mövzusunda beynəlxalq forumda Prezident İlham Əliyevin tədbir iştirakçılarının suallarını cavablandırarkən vurğuladığı kimi, Azərbaycanın İkinci Qarabağ müharibəsində zəfər çalması və ardınca suverenliyini tam bərpa etməsi regionda dayanıqlı sülhə də birbaşa rəvac verib.

Cəmi üç il ərzində ölkəmizin qazandığı ardıcıl qələbələr həm də illərdir dünyada davam edən bu tip münaqişələrin həll olunması baxımından mükəmməl Azərbaycan nümunəsini ortaya qoydu. Sübut edildi ki, bir halda ki, problem danışıqlar vasitəsilə çözülə bilmir, o zaman güc variantını seçmək qaçılmazdır və Azərbaycan da iki ölkə arasında 28 illik nəticəsiz danışıqları bu yolla sonlandırdı.

Bununla da, nəhayət ki, Cənubi Qafqazda sülh üçün zəmin yarandı, iki ölkə arasında normallaşma istiqamətində real addımlar atıldı. Qazax rayonunun 4 kəndinin azad edilməsi ilə delimitasiya proseslərinə başlanılması, iki ölkə arasında tarixdə ilk dəfə sərhəd dirəyinin quraşdırılması kimi mühüm işlərin həyata keçirilməsi də buna bariz nümunələrdir.

### Təşəbbüskar Azərbaycandır

Xüsusi vurğulayaq ki, sülh prosesinin təşəbbüskarı məhz Azərbaycan olub. 44 günlük Vətən müharibəsindən dərhal sonra Azərbaycan beş baza prinsipi əsasında Ermənistana təkmil sülh modeli təklif edib, ölkəmiz ötən dövrdə bu istiqamətdə əməli fəaliyyət göstərib. Lakin məhz İrəvanın Azərbaycan ərazilərinə iddiasından əl çəkməməsi və absurd istəklər irəli sürməsi bu müqavilənin bəndlərinin razılaşdırılmasına başlıca maneə törədirdi. Belə ki, Ermənistan çalışırdı ki, sülh sazişinə dırnaqarası "Dağlıq Qarabağ" məsələsini daxil etsin.

Forumda məhz sözügedən məqama da toxunan dövlətimizin başçısı söylədi ki, bu, bizim üçün tamamilə qəbuledilməz idi, çünki dırnaqarası "Dağlıq Qarabağ" Azərbaycanın Qarabağ regionu olub və olacaq, bu, Azərbaycanın daxili məsələsidir: "Bu, irəliləyişə nail ola bilməməyimizin başlıca səbəbi idi".

Cənubi Qafqazda daimi münaqişə ocağının olmasına maraq göstərən Qərb dairələrinin Ermənistana siyasi, hərbi dəstək vermələri bu ölkəni torpaq iştahasına salır və o, nəinki sülh müqaviləsini imzalamaqdan yayınır, eləcə də revanşa hazırlaşırdı. Bu regionu koloniyasına çevirmək istəyən Fransa Qərbdəki anti-Azərbaycan şəbəkəsinə başçılıq edir, siyasi təxribatları ilə sülh prosesinə maneçilik törədir, açıq şəkildə separatizmə dəstək verirdi. Xarici havadarlarına güvənən Ermənistan isə rəsmi səviyyədə Qarabağın Azərbaycan ərazisi olduğunu etiraf etməsinə baxmayaraq, imzası ilə bunu təsdiqləmək istəmirdi.

Ta ki 2023-cü ilin sentyabrına - Azərbaycanın antiterror tədbirləri həyata keçirdiyi zamana qədər.

### Vasitəçilərə ehtiyac yoxdur

Qarabağda separatizmin kökünün birdəfəlik kəsilməsi bölgədə barışın əldə olunmasına da tarixi fürsət yaratdı. Amma Ermənistan tərəfinin iki ay ərzində Bakının saziş layihəsi ilə bağlı şərhlərinə cavab verməməsi danışıqlara növbəti problem yaratdı.

Qeyd edək ki, buna qədər iki ölkə bir neçə dəfə saziş layihəsi ilə bağlı şərhlərin mübadiləsini həyata keçirmişdi. Halbuki sülh müqaviləsinin imzalanması ilk növbədə Ermənistana vacibdir və yalnız bu halda dalan ölkə olmaqdan qurtula bilər. Proseslərin gedişi və bölgədə baş verən hadisələr də İrəvanın sülhdən başqa çıxış yolu olmadığını diktə edirdi.

Görünür, elə Ermənistan hökuməti də başda Fransa olmaqla, bəzi qərəzli ölkələr kimi pis məsləhətçilərinə qulaq asmaqla deyil, yaxın qonşusu və sülh təşəbbüskarı Azərbaycanla danışıqlar aparmaqla sözün əsl mənasında xeyir tapacağını gec də olsa anlayıb. Beləliklə, danışıqlar bu yaxınlarda bərpa olunub və bununla mahiyyət etibarilə real danışıqlara da yaxınlaşılıb.

4 qeyri-anklav kəndin qaytarılması ilə bağlı iki ölkə arasında əldə olunmuş razılıq delimitasiya istiqamətində atılan ilk addımdır və delimitasiyanın məhz bu istiqamətdən başlaması Azərbaycanın təkidi ilə olub. Tərəflər razılaşıblar ki, delimitasiya prosesində 1991-ci il Alma-Ata Bəyannaməsinə əsaslanacaqlar.

Razılaşmadan dərhal sonra ard-arda gələn açıqlamalar göstərdi ki, problemin bu yöndə həlli beynəlxalq ictimaiyyət tərəfindən də alqışlanır və bu, sülh prosesində mühüm addım kimi dəyərləndirilir.

Ermənistan ilə Azərbaycan arasında ikitərəfli danışıqların aparılması, razılaşmalar əldə edilməsi daha bir məsələni də ortaya qoydu ki, bu prosesdə kənar vasitəçilərə heç bir ehtiyac yoxdur. Əksinə, vasitəçi kimi sülh prosesində iştiraka can atan bəzi qərəzli ölkələrin sülhə real maneə olduğu da faktdır.

Xatırladaq ki, iki ölkənin xarici işlər nazirlərinin növbəti görüşünün Qazaxıstanda baş tutması planlaşdırılır və bununla bağlı Bakı artıq öz razılığını bildirib. Ancaq burada söhbət hər hansı vasitəçilikdən getmir.

Tədbirdə bu məqama xüsusi vurğu edən dövlətimizin başçısı söylədi ki, bu gün sərhədimizdə baş verənlər onu nümayiş etdirir ki, bizimlə heç kəsin işi olmadığı, bu vəziyyətin kiminsə siyasi ambisiyaları naminə istifadə edilmədiyi halda biz gec-tez razılığa gələ bilərik.

### İlham ƏLİYEV: "Biz razılaşmaya heç vaxt bu qədər yaxın olmamışdıq"

Göründüyü kimi, proseslərin hazırkı inkişafı iki ölkə arasında barış əldə olunmasını, normallaşmanı daha da sürətləndirir. Bu isə mühüm və tarixi məqamdır. Nəhayət ki, Cənubi Qafqazda müharibə planları cızılmır, sülh müqaviləsi ilə bağlı danışıqlar aparılır. Problemlərin çözümü silah yox, sözlərlə aranır.

"COP29 və Azərbaycan üçün Yaşıl Baxış" mövzusunda beynəlxalq forumda Prezident İlham Əliyev də hesab etdiyini söylədi ki, biz razılaşmaya ola bilsin heç vaxt olmadığı qədər yaxınıq. Çünki işğal dövründə biz razılaşmaya heç vaxt bu qədər yaxın olmamışdıq. İndi sülh razılaşmasının necə olmalı olduğuna dair bizdə ümumi anlayış var. Biz, sadəcə, təfərrüatlar üzərində çalışmalıyıq. Lakin əlbəttə ki, hər iki tərəfə vaxt lazımdır, çünki sülh müqaviləsi imzalandığı təqdirdə bu, hər iki ölkə üçün tarixi razılaşma olacaqdır: "Buna görə hər bir söz, hər bir nöqtə, hər bir paraqraf vacibdir. Lakin vacib olan odur ki, hər iki tərəfin bunu etmək üçün siyasi iradəsi var".

Sülh üçün tarixi şərait tam yetişib. Ermənistan bundan istifadə etməzsə, yalnız özünə zərbə vuracaq.

*Yasəmən MUSAYEVA, "Azərbaycan"*

# Tarixdə ilk dəfə Azərbaycan-Ermənistan sərhədində demarkasiya dirəyi quraşdırılıb

**Rusiya sülhməramlı kontingenti müvəqqəti olaraq Qarabağ ərazisinə yerləşdiriləndə bu, mətbuatın və siyasi dairələrin ən çox müzakirə etdiyi mövzu idi. Bəzi siyasi qüvvələr, ekspertlər sülhməramlıların Azərbaycanda "əbədi" olaraq qalacağı, "baza statusu" alacağı haqqında proqnozlar verirdilər. Amma bu, özünü doğrultmadı, artıq sülhməramlılar Qarabağı tərk edirlər. Özü də vaxtından əvvəl...**




Əslinə qalsa, bu, siyasi əhəmiyyətinə görə tarixi bir hadisədir. Bu tarixi fakt ölkəmizin milli maraqlarının qorunması və təmin olunması, strateji müttəfiqlərinin və tərəfdaşlarının seçilməsi istiqamətində sistemli və qətiyyətli siyasət yürüdən Prezident İlham Əliyevin apardığı uğurlu siyasətin məntiqi nəticəsidir. Eyni zamanda Azərbaycanla Rusiya arasındakı əlaqələrin dövlətlərin suveren hüquqlarına münasibətdə qarşılıqlı hörmətə və etimada söykəndiyinin göstəricisi kimi dəyərləndirilməlidir.

Qeyd etmək yerinə düşər ki, Rusiya sülhməramlı kontingentinin müvəqqəti dislokasiya olunduqları Azərbaycan ərazilərini vaxtından əvvəl tərk etmələrini şərtləndirən çoxsaylı faktorlar var və bu faktorların formalaşmasında Azərbaycanın 10 noyabr 2020-ci il bəyanatı, həmçinin beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində yürütdüyü siyasət, eləcə də regionda davamlı sülhün əldə edilməsi istiqamətində göstərdiyi səylər, bütün aspektlərdən məsuliyyətli və sistemli davranışar müstəsna rol oynayıb.

Xatırladaq ki, 10 noyabr 2020-ci il üçtərəfli Bəyanatının imzalanmasından, eləcə də bu bəyantdan irəli gələn razılaşmaların əldə olunmasından sonra Azərbaycan üzərinə götürdüyü bütün öhdəlikləri yerinə yetirib, Qarabağın bir neçə rayonunda məskunlaşan erməni azlığının cəmiyyətimizə reinteqrasiya etmələri üçün maksimum səy və dözümlülük nümayiş etdirib, öz suveren hüquqları çərçivəsində bütün hüquqi və humanitar tədbirlərin həyata keçirilməsi üçün əlverişli şərait yaradıb, müharibədə qalib gəlməsinə baxmayaraq, sülh müqaviləsinin təşəbbüskarı kimi çıxış edib, nümunə ola biləcək, dinc birgəyaşayışa xidmət edən ləyaqətli və kifayət qədər tolerant davranış sərgiləyib.

Lakin öz qoşunlarını Azərbaycan ərazisindən çıxaracağı barədə öhdəlik götürən Ermənistan üçtərəfli Bəyanatın şərtlərini yerinə yetirməyərək məkrli niyyətindən əl çəkmədiyini hər fürsətdə nümayiş etdirib. Hətta himayədarlarından dəstək almaqla təxribatlarını davam etdirib.

Ermənistanın işğalçılıq niyyətindən əl çəkməməsi 2023-cü ilin sentyabrında Azərbaycanı öz mülki vətəndaşlarının təhlükəsizliyini təmin etmək istiqamətində ölkə konstitusiyasının tələblərinə və Beynəlxalq Humanitar Hüququn prinsiplərinə uyğun addımlar atmaq məcburiyyətində qoydu. Nəticədə mülki sakinlərin təhlükəsizliyi maksimum təmin edilməklə gerçəkləşdirilən antiterror tədbirləri sayəsində işğalçı qüvvələrin və qanunsuz hərbi birləşmələrin Azərbaycan ərazilərində mövcudluğuna son qoyuldu. Həmin ərazilərdə Azərbaycanın legitim təsisatlarının fəaliyyətinə imkan yaradıldı, təhlükəsizliyi təmin olundu. Azərbaycanın bütün hüquqi addımlarına, təqdim edilən reinteqrasiya planının real perspektivinə baxmayaraq, Qarabağın bəzi ərazilərində yaşayan və məskunlaşan erməni əhalinin əhəmiyyətli hissəsi Azərbaycan ərazilərini könüllü şəkildə tərk etdi və Ermənistanın rəsmi şəxsləri, o cümlədən baş nazir Nikol Paşinyan da bu hadisələr zamanı erməni azlığının təmsilçilərinə münasibətdə hər hansı bir təzyiqin olmadığını etiraf etdilər.

Bu faktdır ki, ölkəmiz antiterror tədbirləri keçirdikdən sonra vəziyyət tamamilə dəyişdi. Hazırda Azərbaycan işğaldan və separatizmin hərbi təzahürlərindən xilas edilən ərazilərində genişmiqyaslı və sürətli bərpa-quruculuq işləri həyata keçirir. Həmin ərazilərdə Azərbaycanın bütün dövlət qurumlarının müvafiq təmsilçilikləri yaradılıb, təhlükəsizlik ən yüksək səviyyədə təmin edilib. Artıq Rusiyanın sülhməramlı missiyasının Azərbaycan ərazisində mövcudluğuna da lüzum yox idi və onlar öz missiyalarını uğurla yerinə yetirmişdilər.

Bu məqamda bir məsələni də qeyd etməyi vacib bilirik. Rusiya sülhməramlı kontingentinin Azərbaycandan çıxması dövründə dövlətimizin başçısı İlham Əliyevin Rusiyaya işgüzar səfərini heç də təsadüfi hesab etmək olmaz. Hadisələrin gedişi deməyə əsas verir ki, bu proses iki ölkə liderinin qarşılıqlı anlaşma və qərarı əsasında, bir-birinə hörmət və yüksək siyasi mədəniyyət şəraitində baş verir.

Bu, Azərbaycanın xarici siyasətinin çoxistiqamətli olması, qonşu dövlətlərlə münasibətlərdə etibarlılıq, qarşılıqlı faydalı əməkdaşlığa xidmət edən münasibətlər qurmasının təzahürüdür.

Diqqətçəkən daha bir məqam isə Azərbaycan və Ermənistan sərhədində koordinatların dəqiqləşdirilməsi, demarkasiya prosesinə başlanmasının Rusiya sülhməramlı kontingentinin bölgəni tərk etməsi ilə eyni vaxta düşməsidir. Belə demək mümkünsə, artıq Ermənistanda anlayırlar ki, münaqişəni və mübahisəli məsələləri üçüncü tərəfin iştirakı olmadan həll etmək mümkündür. Azərbaycan sülhə gedən yolda qətiyyət və siyasi iradə nümayiş etdirərək öz prinsipial mövqeyindən və məqsədlərindən bir addım belə geri çəkilmədən daha bir maneəni aradan götürməklə hazırda şahidlik etdiyimiz ən yeni siyasi reallığı yarada bildi.

*Elşən QƏNİYEV, "Azərbaycan"*

# Regiona sülh lazımdır, savaş yox

## Prezident İlham Əliyev Ermənistanı silahlandıranlara bir daha xəbərdarlıq etdi

**Prezident İlham Əliyev ADA Universitetində "COP29 və Azərbaycan üçün Yaşıl Baxış" mövzusunda beynəlxalq forumda həm iştirak edib, həm hamının marağına səbəb olan çıxış edib, həm də sualları cavablandırıb. Dövlət başçısının bir neçə saat ərzində sualları cavablandırması forumda iştirak edənlərin dili ilə desək, hər kəsi təəccübləndirib.**



Mövzu ilə bağlı "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Anar İsgəndərov bildirib ki, tutarlı cavablar, dəlillər, faktlar və Azərbaycanın bu məsələlərə münasibəti dövlət başçısının Ermənistana və havadarlarına, bu gün də ona silah göndərən ölkələrə həm də mesajı oldu. "Bu, ondan ibarətdir ki, Cənubi Qafqaza əmin-amanlıq, sülh lazımdır. Bəzi dövlətlər Ermənistana bu qədər silah verirlərsə, bunun məqsədi, səbəbi nədir və nəticəsi necə ola bilər? Bunu fikirləşən varmı? Əgər belə müasir silahlar Ermənistana verilirsə, məqsəd nədir? Bir zamanlar Ermənistana havadarlıq edənlər ona kifayət qədər silah bağışladılar və Ermənistan dünyanın ən ağrılı hadisələrdən birini törətdi, qonşusu olan Azərbaycan torpaqlarını işğal etdi. Yüz minlərlə insan qaçqın və köçkün həyatı yaşamağa məcbur edildi", - deyə o əlavə edib.

A.İsgəndərov qeyd edib ki, Ermənistan və havadarları anlamalıdırlar ki, güclü Azərbaycan dövləti, onun on milyonluq "dəmir yumruq" kimi birləşmiş xalqı var. Eyni zamanda ən güclü orduya və müasir silahlara malikdir. Əgər Ermənistan bir daha təcavüzkar siyasətinə əl atacaqsa, bu, onlar üçün çox ağrılı nəticələrə gətirib çıxaracaq. Bu mənada Prezident İlham Əliyev bu məsələyə xüsusi münasibətini bildirdi və dönə-dönə qeyd etdi ki, bu, Azərbaycanın dövlət başçısının tövsiyəsidir.

Deputatın fikrincə, Ermənistan da, havadarları da iki ölkənin öz arasında məsələləri həll edə bildiyini dərk etməlidirlər: "Buna əyani misal Qazaxın dörd kəndinin dinc yolla qaytarılmasıdır. Yəni iki dövlət bu məsələləri həll edə bilir. Dövlətimizin başçısının dili ilə desək, təbii ki, Cənubi Qafqazda sülh, əmin-amanlıq, bu xalqların qonşu kimi yaşaması üçün hər kəs öz iddialarından əl çəkməlidir. Ölkəmizin rəhbəri qeyd etdi ki, Azərbaycanın Ermənistan ərazisinə heç bir iddiası yoxdur və heç vaxt da belə bir iddia olmayıb. Vaxtilə Ermənistan "Qarabağ Ermənistandır" deməklə müharibənin başlanmasına səbəb oldu. Sonra ermənilər özləri də etiraf etdilər ki, "Qarabağ Azərbaycandır". Amma yenidən bu fikir, yəni "Qarabağ Ermənistandır" deyilərsə, Ermənistan bunun acı nəticələr verə biləcəyini fikirləşməlidir".

Müsahibimiz sonda bildirib ki, Prezident İlham Əliyev beynəlxalq forumda bütün suallara ətraflı, hamını maraqlandıran, düşündürən və qane edən şəkildə cavab verib.

*Əsmər QARDAŞXANOVA "Azərbaycan"*

# Sülhməramlıların Qarabağdan getməsi Azərbaycanla Rusiya arasındakı qarşılıqlı anlaşmanı göstərir

**Son günlər qəzet və jurnallarda, televiziya və radio verilişlərində, habelə sosial şəbəkələrdə və mötəbər məclislərdə Rusiya sülhməramlılarının vaxtından əvvəl Qarabağı tərk etməsi əsas mövzuya çevrilib. Etiraf edək ki, bu xəbərdən əvvəl rus sülhməramlılarının uzun müddət Azərbaycandan çıxmayacağı ilə bağlı iddialar da səsləndirilirdi. Amma birdən-birə vəziyyət tam dəyişdi.**

Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyev bildirdi ki, 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanata əsasən, Azərbaycan ərazisində müvəqqəti olaraq yerləşdirilmiş Rusiya Federasiyası sülhməramlılarının ölkəmizin ərazisindən vaxtından əvvəl çıxarılması barədə hər iki ölkənin ali rəhbərliyi tərəfindən qərar qəbul edilmişdir. Artıq Azərbaycan və Rusiya Müdafiə nazirlikləri həmin qərarın icrası ilə bağlı müvafiq tədbirləri həyata keçirirlər.

Azərbaycan Prezidenti İlham Əliyev Rusiyaya işgüzar səfəri zamanı Rusiya Prezidenti Vladimir Putinlə təkbətək görüşündə bu kimi məsələlərə aydınlıq gətirərək demişdir: "Regional təhlükəsizlik məsələləri həmişə bizim görüşümüzün gündəliyindədir. Biz həmçinin şadıq ki, onlar öz həllini tapır. Rusiya Qafqazda və daha geniş coğrafiyada regional təhlükəsizlik üzrə əsas ölkədir. Ölkələrimiz arasında əməkdaşlıqdan, qarşılıqlı fəaliyyətdən çox şey asılıdır. Biz qarşılıqlı fəaliyyət və qarşılıqlı maraqlar ruhunda etimad tədbirlərinin, əməkdaşlığın, qarşılıqlı anlaşmanın möhkəmləndirilməsinə və bütün məsələlərin nizamlanmasına çalışırıq".

Xatırladaq ki, Rusiya sülhməramlılarının bölgəyə gəlişi 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatının 4-cü müddəasında nəzərdə tutulurdu. Həmin müddəada deyilir: "Rusiya Federasiyasının sülhməramlı kontingentinin qalma müddəti 5 ildir və müddətin bitməsinə 6 ay qalmış hazırkı müddəanın tətbiqinə xitam verilməsi niyyəti ilə bağlı tərəflərdən hər hansı biri çıxış etməzsə, müddət avtomatik olaraq növbəti 5 ilə uzadılır". Onu da xüsusi vurğulamaq lazımdır ki, 10 noyabr bəyanatındı sülhməramlıların 2025-ci ilə qədər müvəqqəti olaraq yerləşdirilməsi maddəsini məhz Prezident İlham Əliyev israr etmişdi. Üçtərəfli sənəddə "müvəqqəti" şərtinin qoyulması və prosesin məntiqi sona çatdırılması təbii ki, Azərbaycan Prezidentinin qətiyyətli siyasətinin nəticəsidir. Xalqımızda belə bir əminlik yaranıb ki, Prezident İlham Əliyev indiyə kimi nə deyibsə, hansı vədi veribsə, hamısını yerinə yetirib.

Yaxın tariximiz həm də Prezident İlham Əliyevin "Nəyi necə, nə vaxt etmək lazımdır, bunu mən bilirəm" fikrini dəfələrlə təsdiqləyib. Torpaqlarımızın işğalına son qoyan 44 günlük Vətən müharibəsi, Azərbaycanın suverenliyini tam təmin edən antiterror tədbirləri, bütün ölkə ərazisində bayrağımızın dalğalanması, Rusiya sülhməramlılarının artıq Azərbaycan ərazisini tərk etməyə başlaması və digər addımların hər biri ölçülüb-biçilmiş, düşünülmüş və vahid plan kimi həyata keçirilir.

Prezident İlham Əliyev ADA Universitetində "COP29 və Azərbaycan üçün Yaşıl Baxış" mövzusunda keçirilmiş beynəlxalq forumda tədbir iştirakçılarının suallarını cavablandırarkən demişdir: "5 illik müddət və heç bir tərəf etiraz etmədiyi təqdirdə uzadılma, əslində, qoşunların çıxarılmasının başlanğıc nöqtəsi oldu. Əgər həmin cədvəlimiz olmasaydı, vəziyyət necə olardı, biz bunu ancaq təxmin edə bilərik. Amma yenə də qeyd edirəm ki, qoşunların vaxtından əvvəl çıxarılması Azərbaycanla Rusiya arasında məsləhətləşmələrə əsasən qəbul olunmuş qərar idi. Azərbaycan hər zaman beynəlxalq öhdəliklərinə sadiqdir. Bizim mövqeyimiz ondan ibarət idi ki, əgər orada 2025-ci ilin noyabrı yazılıbsa, bu, elə 2025-ci ilin noyabrı da olmalıdır. Lakin eyni zamanda hər iki tərəf - Rusiya və Azərbaycan açıq-aydın başa düşürdü ki, əslində, onlar daha tez tərk edə bilərlər. Lakin yenə də bu, birgə verilmiş qərar idi və düşünürəm ki, bu qərar Rusiya-Azərbaycan əlaqələrini yalnız gücləndirdi".

Rusiya sülhməramlı kontingentinin Azərbaycandan getməsi ilə bağlı qərarın qəbulu həm də iki qonşu dövlətin - Azərbaycan və Rusiyanın münasibətlərindəki qarşılıqlı anlaşmanı, qonşuluq və strateji tərəfdaşlıq səviyyəsini göstərir. Bu, eyni zamanda Azərbaycan və Rusiyanın bir-birinin suverenliyinə hörmət etmələrinin nümunəsidir. Ekspertlərin fikrincə, qeyd edilən qərar Azərbaycanla Rusiya arasında münasibətləri zəifədən yox, gücləndirən faktor hesab olunmalıdır. İki ölkə arasında münasibətlər onsuz da yaxşı səviyyədədir, qonşuluq prinsiplərinə əsaslanır. Şübhəsiz ki, sülhməramlıların çıxarılmasından sonra ikitərəfli dostluq münasibətləri daha da güclənəcək. Çünki Qarabağ mövzusu artıq bitib, münaqişə həll olunub, indi bölgədə yeni reallıqlar yaranıb, belə olan halda Rusiya ilə ikitərəfli münasibətlərdə hərbi və sülhməramlı komponent mövcud deyil.

Münaqişənin həllindən sonra Rusiya nəzərə aldı ki, burada qoşunlarını saxlamaq mənasızdır. Artıq münasibətlərdən hərbi komponentin çıxarılması daha yaxşı əməkdaşlıq üçün imkanlar açacaq. Görünən odur ki, sülhməramlıların Azərbaycandan çıxarılması məmnunluq doğurur. Rusiya hərbçilərinin bölgəmizdən çıxmasından sonra Azərbaycan-Rusiya münasibətləri yeni mərhələyə qədəm qoyacaq. İki qonşu dövlətin bir-birinin ərazisində silahlı qüvvələri olmadan münasibətləri daha da şəffaflaşmış olacaq. Ən başlıcası, iki ölkə liderinin şəxsi münasibətləri fonunda Azərbaycan-Rusiya əlaqələri daha da güclənəcək.

*Rəhman SALMANLI, "Azərbaycan"*

# Antiazərbaycançı şəbəkənin qəsd planı iflasa məhkumdur

## ABŞ "demokratiyası"nın tərs aynası

### Dövlət Departamentinin şayiə və dedi-qodulara əsaslanan növbəti "əsəri" bunun bariz təcəssümüdür

**Bu günlərdə ABŞ Dövlət Departamenti 2023-cü ilə dair "Dünyada insan haqlarına hörmət" adlı illik hesabatını Konqresə təqdim edib. Artıq sirr deyil ki, Vaşinqtonun bu cür hesabatları müxtəlif dövlətlərdə real vəziyyəti əks etdirməkdən çox digər ölkələrə təzyiq aləti kimi istifadə olunur.**



Məhz elə bu və digər səbəblərdən dünya ölkələrində "insan haqlarına" dair hesabatı heç kəs ciddi qəbul etmir, çünki onun hazırlanması zamanı 2-ci və 3-cü dərəcəli ABŞ diplomatları ölkələrdə sosial mediada yayılan neqativ məlumatları toplayıb dəqiqləşdirmədən, peşəkar təhlil aparmadan hesabata daxil edirlər.

Əgər ABŞ dünyada insan haqları sahəsinə "nəzarət" rolunu üzərinə götürürsə, əvvəla sosial mediada yayılan, çox vaxt həqiqəti əks etdirməyən və təsdiqlənməyən şayiə və dedi-qodulara yox, təsdiqlənmiş real məlumatlara əsaslanmalıdır.

Məsələn, hesabatda yer alan Azərbaycan Silahlı Qüvvələrinin Qarabağda apardığı "etnik təmizləmə" iddialarını qəti şəkildə rədd edirik və bu iddiaların kənar təsirlər, xüsusilə də erməni diasporu tərəfindən dəstəkləndiyini və faktlar əvəzinə müxtəlif spekulyasiyalara əsaslandığını bildiririk. Üstəlik, saxta və uydurma ittihamlar polis zorakılığı, antisemitizm və irqçilik, "sifarişli" jurnalistika və fundamental konstitusiya hüquq və azadlıqlarına məhəl qoymama hallarının heç də nadir olmadığı bir dövlətdən gəlir. Onu da qeyd etməliyik ki, 200 illik təcrübəyə baxmayaraq, Birləşmiş Ştatlarda seçkilər zamanı iradənin demokratik ifadəsini təmin etmək təcrübəsi çox qeyri-kamil olaraq qalır. Hətta yerli "Newsweek" nəşrindəki yazıda etiraf olunur ki, amerikalı analitiklər ABŞ hökumətinin uğursuzluqlarından, səriştəsiz xarici siyasətindən və gənclər arasında psixi problemlərin fəlakətli miqyasından danışırlar. "Gallup" analitik və məsləhət şirkətinin yeni sorğusu isə göstərir ki, amerikalıların yalnız üçdəbiri ölkənin dünyadakı hazırkı mövqeyindən razılıq bildirir. 2000-ci ildə bu rəqəm 65 faiz idi.

XXI əsrdə Amerika hökumətin çoxsaylı uğursuzluqları, getdikcə zəifləyən siyasəti və gənclər arasında psixi problemlərin fəlakətli səviyyəsi də daxil olmaqla, hər yeni addımı ilə daha da tənəzzülə doğru gedir.

Ümumilikdə Vaşinqton özünü "dünyanın müəllimi" rolunda görürsə, ilk növbədə öz ölkəsində insan haqları sahəsində vəziyyətə dair könüllü və açıq şəkildə çıxış etməli, ABŞ-də rasizm, islamofobiya, miqrantların hüquqlarının pozulması, həbsxanalarda dözülməz şərait və digər məsələləri hesabata daxil etməlidir.

BMT, dünya dövlətləri də bir araya gəlib ABŞ-də insan haqları barədə hesabat hazırlamalıdırlar.

İsraillə Fələstin, Ukrayna ilə Rusiya arasında insan faciəsi, yaşayış məntəqələrinin Yer üzündən silinməsi ilə müşayiət edilən müharibələrin planları birbaşa Pentaqonda, Mərkəzi Kəşfiyyat İdarəsində hazırlanaraq Ağ Evdə təsdiq olunub. Xüsusilə qeyd etmək lazımdır ki, ABŞ-nin Rusiyanı zəiflətmək məqsədilə Ukraynada müharibəni qızışdırması Vaşinqtonun nə qədər riyakar olduğunu göstərir. Bu müharibədə Ukrayna dağılıb, əhalisi 20 milyona enib, amma özünü dünyada sülhpərvər dövlət kimi göstərməyə çalışan ABŞ bir dəfə də olsun bu müharibənin dayandırılmasına çağırış etməyib, əksinə, təhrikedici mövqedə dayanıb.

ABŞ Dövlət Departamenti 2023-cü ilin sonunda dünyada insan haqlarının vəziyyəti ilə bağlı dərc etdiyi hesabatda Rusiya-Ukrayna münaqişəsinin bir hissəsi kimi insan haqları pozuntularına yol verildiyini bildirsə də, heç bir sübut təqdim etməyib. Ancaq bir daha Ukraynadan uşaqların köçürülməsinə işarə edilib. Bu barədə məlumat verən Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarova deyir: "Ukrayna zindanlarında öldürülən amerikalı jurnalist Qonzalo Lira ilə bağlı hesabatda bir kəlmə də yoxdur, o zaman Dövlət Departamenti cinayət başında yaxalanan Gerşkoviç üçün hansı meyarlar əsasında belə hesabatlar hazırlayır? Məxfi sənədləri ötürərkən cinayət başında yaxalanan Gerşkoviç üçün (casusluqda ittiham olunan "Wall Street Journal" qəzetinin jurnalisti Evan Gerşkoviç - red.) Amerika rəsmiləri onun jurnalist olduğunu əsas gətirərək səslərini ucaldırlar, amma heç vaxt Lira haqqında bir söz deməyiblər. Bu, ikili standartlardır, əsl seqreqasiyadır".

ABŞ-nin "demokratikləşmə", "terrorçuluqla mübarizə" adı altında, əslində, ekspansiya və müasir müstəmləkəçilik siyasəti yürütdüyünü isə sübuta yetirməyə və hansısa xüsusi araşdırmalara ehtiyac yoxdur. Suriyada, Livanda, Liviyada, Əfqanıstanda, İraqda və Qəzzada partlayan hər bir bomba, qətlə yetirilən hər bir insan məhz ABŞ "demokratiyası"nın nəticəsidir.

Qanunsuz və məxfi fəaliyyət göstərən Əbu-Qreyb, Quantanamo həbsxanaları tarixdə ABŞ demokratiyasının "rəmzləri" kimi qalacaqlar. Bu həbsxanalarda insanlara məhz müsəlman olduqlarına görə ən qəddar üsullarla işgəncələr verilib.

Öz imperialist xisləti ilə ABŞ həm də dünya siyasətində quldurluq, reket ənənəsini yaradan və yaşadan dövlətdir. Bu səbəblərdən də dünyanın barmaqla sayılacaq çox az ölkəsində müəyyən nüfuza sahibdir.

Beynəlxalq sosioloji sorğu mərkəzləri son onilliklərdə 200-ə yaxın ölkədə respondentlər arasında ənənəvi rəy öyrənir: "Hansı dövləti özünüzə düşmən sayırsınız?" Bu suala uzun illərdir əsas cavab dəyişməz qalır: ABŞ! 150-dən artıq ölkənin vətəndaşları bu ölkəni birinci sırada, 30-a qədər dövlətdəki respondentlər isə ikinci sırada göstərirlər...

Şübhə yoxdur ki, dünyanın müxtəlif bölgələrində törətdiyi bütün əməllərə görə Vaşinqton nə vaxtsa cavab verməli olacaq.

İllik hesabatlara gəldikdə isə ümid edirik ki, ABŞ-nin yeni administrasiyası dövründə insan hüquqları üzrə ekspertlər sırasına "təzə qüvvələr" qoşulduqda bu sənəd nəhayət, müəyyən qədər obyektivləşəcək və ikili standartlardan, seqreqasiyadan qurtulacaq.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

## Qərbin yeni "Vardanyan şousu"

### Ucuz piar kampaniyası çürük çıxdı

**Ötən ilin sentyabrında erməni separatçılarının və dünya erməniliyinin Qarabağla bağlı status iddialarına birdəfəlik son qoyuldu. 23 saat çəkən antiterror tədbirlərindən sonra separatçılar və onların havadarları birdəfəlik taleyin ədalətli hökmünə boyun əymәli oldular.**



Antiterror tədbirləri nəticəsində Azərbaycanın hüquq-mühafizə orqanları Qarabağdakı qondarma rejimin başçıları olmuş Arkadi Qukasyan, Bako Saakyan, Arayik Harutyunyan, habelə "sabiq xarici işlər naziri" David Babayan, "parlament sədri" David İşxanyan, "generallar" Lyova Mnatsakanyan, David Manukyan və "keçmiş dövlət naziri" Ruben Vardanyan qandallanaraq Bakıya gətirildilər. Hazırda onların ayrı-ayrılıqda törətdikləri cinayət əməllərinə görə istintaq prosesi davam edir.

Son günlər Ruben Vardanyanla bağlı növbəti təbliğat kampaniyası başlayıb. Bu prosesə dünyanın məşhur PR şirkətləri də cəlb olunub. Elə R.Vardanyan Qarabağda olanda da bu cür kampaniya təşkil edilmişdi, indi isə onun azadlığa buraxılması və "qəhrəmanlaşdırılması" istiqamətində kampaniya aparılır.

Qeyd edək ki, Ermənistan vətəndaşı olan 1968-ci il təvəllüdlü R.Vardanyanın Cinayət Məcəlləsinin 214-1 (terrorçuluğu maliyyələşdirmə), 279.3 (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələrin və ya qrupların yaradılmasında və fəaliyyətində iştirak etmə) və 318.1-ci (Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə) maddələri ilə nəzərdə tutulan cinayət əməllərini törətməsinə əsaslı şübhələr müəyyən edilib.

Bütün bu reallıqların fonunda ABŞ-nin təcavüzkar Hayastanı dəstəkləməsi, özünü buraxdığını elan edən qondarma "Dağlıq Qarabağ Respublikası"nı, onun rəhbərlərini hələ də müdafiə etməsi birbaşa Cənubi Qafqazda savaş aparılmasına xidmət edir. Bunu Ruben Vardanyanla bağlı növbəti təbiğat kampaniyasından da görmək mümkündür. Bu prosesə dünyanın məşhur PR şirkətləri də cəlb olunub.

Heç kimə sirr deyil ki, rusiyalı milyarder Ruben Vardanyanın "xilaskar" obrazında qəfildən Qarabağda "zühur" etməsi təsadüfi deyildi. Onun "zühur"una kimi istər Ermənistanın bəzi dairələri, istərsə də qondarma separatçı rejimin təmsilçiləri Azərbaycanla danışıqlarda maraqlı görünürdülər. Başa düşürdülər ki, ermənilərin Qarabağda yaşamalarının yeganə yolu Azərbaycan Respublikasının qanunlarına əməl etməkdən keçir.

Ruben Vardanyanın Qarabağa gəlişi səbəbsiz deyildi. O, Qarabağa Nikol Paşinyanın hakimiyyətinə təhdid, danışıqlar prosesini pozmaq üçün ezam edilmişdi. Ruben Vardanyan Xankəndidə "məskunlaşandan" sonra Rusiya sülhməramlılarının müvəqqəti nəzarəti altında olan "Qızılbulaq" və "Dəmirli" yataqlarının yenidən qanunsuz istismara başlanması, sərvətlərimizin talan edilməsi, təbiətin vandalcasına məhvi də danışıqlar prosesini pozmağa yönəlmiş bir addım idi.

Faktdır ki, ABŞ-nin hakimiyyət orqanlarında, o cümlədən Konqresində kök salmış islamofob qüvvələrin güclənməsi nəticəsində müxtəlif təşkilatlar, xüsusən USAID humanitar yardım çətiri altında casus şəbəkəsi yaradaraq, müstəqil siyasət yeridən ölkələrdə "rəngli inqilablar" və dövlət çevrilişləri etməyə cəhd göstərməklə ölkələrin daxili işlərinə kobud müdaxilə edirlər. İndi isə Vardanyanın cibinə göz dikən CNN kimi kanallar ondan əldəqayırma qəhrəman obrazı yaratmağa cəhd göstərirlər. "Vardanyan şousu"nu düzəldərək insanları bu cür ucuz piarla aldatmağa çalışırlar. CNN kimi nəhəng televiziya kanalı separatçının oğlunu efirə çıxarıb danışdırır. Maraqlıdır, separatçı və qondarma "Artsax"ın əsas lideri Araik Arutyunyan var ikən birdən-birə Vardanyan amili niyə diqqət mərkəzinə gətirilir?

Bir neçə il bundan öncə ABŞ Beynəlxalq İnkişaf Agentliyinin rəhbəri Samanta Pauer "Avrora" mükafatı çətiri altında bu fondun təsisçisi, Ukraynada separatizmi maliyyələşdirən məşhur oliqarx və çirkli pulların yuyulması ilə məşğul olan Ruben Vardanyanla bir araya gəlib. Maraqlıdır ki, 2019-cu ildə Avropa Parlamentinin üzvləri "Troyka Dialoq"un təsisçisi Ruben Vardanyana qarşı çirkli pulların yuyulması sxemlərinə görə sanksiyalar tələb ediblər. Ruben Vardanyan da 2022-ci ilin oktyabrından Qarabağda möhkəmləndikdən sonra ABŞ-nin dəstəklədiyi Ermənistanın siyasi rəhbərliyinə qarşı dövlət çevrilişi planlaşdırırdı.

Hələ bu azmış kimi Vardanyanı "Sülh təşəbbüslərinin inkişaf etdirilməsi" və Qarabağda "humanitar fəlakət"in qarşısının alınmasında xidmətlərinə görə Nobel Sülh Mükafatı namizədliyini də irəli sürüblər. Aydın məsələdir ki, Vardanyan Qarabağ məsələsi ilə bağlı heç vaxt sülh təşəbbüsü ilə çıxış etməyib, əksinə, bölgənin erməni mənşəli sakinlərinin radikallaşmasında, rəsmi Bakının təklif etdiyi konstruktiv danışıqlardan imtina etməsində xüsusi rol oynayıb. Digər tərəfdən isə Qarabağda süni şəkildə humanitar fəlakətin yaşanmasına birbaşa şərait yaradıb. 2022-ci ilin sentyabrında Rusiya vətəndaşlığından imtina edərək dünyanın Azərbaycanın ayrılmaz parçası kimi qəbul etdiyi Qarabağa qeyri-qanuni gələrək, burada qondarma "dövlət naziri" vəzifəsini tutmaq nə vaxtdan bəri sülh təşəbbüsü olub?

Yeri gəlmişkən, qeyd edək ki, Vardanyanın sülh mükafatına namizəd kimi obrazının formalaşmasına Ukrayna Ali Radasının üzvləri də qarşı çıxıblar. Ukraynanın ali qanunverici orqanında bununla bağlı bəyanat da imzalanıb. Bəyanatda Ruben Vardanyan kimi cinayətkarın, separatçılığı, müharibəni dəstəkləyən və sahibi olduğu şirkətlərin qaranlıq fəaliyyətləri ortaya qoyulmuş şəxsin Nobel Sülh Mükafatı namizədi kimi təqdim olunmasından kəskin narazılıq və qəzəb ifadə olunub.

Göründüyü kimi, 5 milyard dollar həcmində sərvəti olduğu söyənilən Vardanyanın ailəsi onu mühakimədən qurtarmaq üçün milyonlar xərcləyir. Sözsüz ki, bu riyakar plan sonda iflasa məhkumdur. Çünki heç bir reklam və PR kampaniyası Ruben Vardanyanın separatçı, qanunsuz əməllərin icraçısı kimliyini şübhə altına ala bilməz.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

## Qarşılıqlı hörmət və etimadın təzahürü

### Azərbaycanla Rusiya arasında bütün məsələlər düşünülmüş siyasət, qarşılıqlı etimad formatında gerçəkləşir

**"Sülhməramlı kontingentin Azərbaycandan çıxarılmasından sonra Prezident İlham Əliyevin Rusiyaya səfərə getməsi iki ölkə liderinin qarşılıqlı hörmət və etimadını əks etdirir. Qərbin qızışdırıcı mövqeyi nəticəsində Rusiya ilə qeyri-bərabər mübarizəyə girmiş qonşu ölkələrin acınacaqlı taleyi Azərbaycanın nə qədər düzgün siyasət yürütdüyünü bir daha ortaya qoydu. Prezident İlham Əliyev böyük dövlətlərlə "mən sənə təhlükəli deyiləm" prinsipi üzrə davranmağın praktik nümunəsini göstərdi".**



Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Fazil Mustafa deyib. Deputat bildirib ki, dövlət başçısı təkcə Rusiyaya deyil, həm də ABŞ və Avropa İttifaqına münasibətdə də eyni mövqeni sərgiləyir. Azərbaycanın əsas siyasi xətti ondan ibarətdir ki, müstəqil dövlət olaraq tamamilə müstəqil siyasət yürüdür, eyni zamanda başqaları üçün təhlükəli rol oynamır. Görünən odur ki, xüsusilə böyük dövlətlər bunu anlayışla qarşılayır və bizim "qırmızı xətt"imizi qəbul edirlər. Azərbaycanın müstəqil siyasət yürütməsi ilə bağlı atdığı addımlara verilən beynəlxalq dəstək də məhz buradan qaynaqlanır.

Deputatın sözlərinə görə, Rusiya sülhməramlılarının Qarabağı tərk etməsindən sonra bu görüşün baş tutması bir daha göstərdi ki, məsələlər ağıllı siyasət və doğru danışıqlar formatında gerçəkləşir. "Bir çox qüvvələr də bu siyasi təcrübəni özləri üçün artıq ciddi nümunəyə çevirməlidirlər. Çünki regionun lideri olan Azərbaycanın qlobal liderlərlə müəyyən rəqabət içində olması və bunun özümüzə qarşı hansısa zorakılıq, yaxud da təzyiq alətinə çevrilməsinə imkan verməməyimizdən daha müdrik strategiya tapmaq olmaz", - deyə o əlavə edib.

F.Mustafa vurğulayıb ki, bu istiqamətdə göstərilən səyləri yüksək qiymətləndirməli və Prezidentin bu məsələdə çox doğru strategiya yürütdüyünü etiraf etməliyik. Xüsusilə də Ukrayna və Gürcüstanla münasibətlər kontekstində müqayisə aparsaq, görərik ki, Azərbaycanın bu siyasəti həqiqətən də alternativsizdir. Bu mənada Rusiya ilə münasibətlərin indiki mərhələsi bizim üçün qaneedicidir.

Deputat onu da deyib ki, bu səfərin Ermənistanın Qərblə münasibətlərdə xüsusi bir üstünlük qazanmadan Rusiya ilə əlaqələrini heçə endirməsi şəraitində baş verməsi təqdirəlayiqdir: "Bu məqam da Azərbaycanın məntiqli siyasətinin tərkib hissəsidir. Bu səfər bir daha sübuta yetirdi ki, Azərbaycanın xarici siyasəti çoxistiqamətlidir. Biz qonşu dövlətlərlə münasibətlərdə etibarlılığa və qarşılıqlı faydalı əməkdaşlığa üstünlük veririk".

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

## Azərbaycan istənilən təhdidə cavab vermək gücündədir

### Prezident həqiqətləri və ölkəmizin mövcud potensialını təqdim etdi

"Aprelin 23-də ADA Universitetində "COP29 və Azərbaycan üçün Yaşıl Baxış" mövzusunda keçirilən beynəlxalq forum Azərbaycan həqiqətlərinin və reallıqlarının təqdimatı, eləcə də dövlətimizin regional məsələlərdəki mövqeyinin nümayişi baxımından mühüm əhəmiyyətə malikdir.



Bu görüş Prezident İlham Əliyev tərəfindən təqdim olunan və izahatı verilən məsələlərin müzakirəsi, habelə Qafqazda baş verənlər və fərqli ölkələrin regiona münasibətlərinin qiymətləndirilməsi aspektindən də çox faydalıdır".

Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Vüqar Bayramov deyib. Deputat bildirib ki, dövlət başçısı sözügedən forumda Azərbaycanın regionda sülhə dəstək verən ölkə olduğunu bir daha bəyan edib. Azərbaycan sülh danışıqlarının davam etdirilməsində, bütövlükdə regionda təhlükəsizlik və stabilliyin formalaşmasında maraqlıdır və bununla bağlı real addımlar atır. Lakin Azərbaycan ərazi bütövlüyünü və suverenliyini tam bərpa etdikdən sonra bəzi dövlətlər, xüsusən də Fransa ölkəmizə qarşı kifayət qədər qərəzli və ikili standartlara əsaslanan siyasət yürüdür.

Prezident İlham Əliyev də ADA Universitetində keçirilən forumda həmin ölkələrin Azərbaycana qarşı soyuq müharibəyə başladıqlarını vurğuladı. Həmçinin dövlət başçısı bildirdi ki, biz tam eyni tədbirləri görürük və "qırmızı xətləri" keçmirik.

Vüqar Bayramov əlavə edib ki, bəzi ölkələrin Cənubi Qafqazla bağlı siyasəti regionda sülhün əldə edilməsinə deyil, gərginliyin artmasına xidmət edir: "Bəzi siyasi qüvvələr Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşmasına imkan vermirlər. Mövcud vəziyyət isə bu mövzuda nikbin düşünməyimizə səbəb olur. Prezident də forumda "COP29-dan əvvəl Azərbaycan ilə Ermənistan arasında sazişə nail olmaq, ən azı baza prinsipləri üzrə razılığa gəlmək tam real görünür" deyə bildirib. Həmçinin deyib ki, baza prinsipləri üzərində razılığa gəlmək həmçinin variant hesab olunur, sonra isə müddəaların təfərrüatlarına vaxt sərf etmək olar.

Deputat onu da deyib ki, forumda Prezident əsl həqiqətləri söyləyib: "Dövlət başçısı Azərbaycanın mövcud potensialını bir daha təqdim etdi və istənilən təhdidə cavab vermək gücündə olduğunu söylədi. Forum həm də ölkəmizin reallaşdırdığı layihələrin və gələcək üçün planlaşdırdığı təşəbbüslərin təqdimatına lazımi imkan yaratdı. Daim sülh tərəfdarı olan Azərbaycanın sülhə yaxın olduğu forum sayəsində yenə təsdiqləndi. İlham Əliyev bəyan etdi ki, biz məsələnin (sülh sazişinin imzalanmasına - red.) həllinə heç vaxt olmadığı qədər yaxınıq".

***Nəzrin QAFARZADƏ,***
***"Azərbaycan"***

# Sahibkarlar Gününə həsr olunmuş konfrans keçirilib






**Məlum olduğu kimi, 22 il bundan əvvəl - 2002-ci ilin 25 aprel tarixində Ümummilli Lider Heydər Əliyevin yerli sahibkarlarla, may ayında isə xarici iş adamları ilə tarixi görüşləri olub. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2016-cı il 21 aprel tarixli sərəncamı ilə 25 Aprel tarixi artıq 9 ildir ki, ölkəmizdə Sahibkarlar Günü kimi qeyd olunur.**



Sahibkarlar günü və Azərbaycan Sahibkarlar Konfederasiyasının (ASK) yaranmasının 25 illiyi ilə bağlı aprelin 25-də "Gülüstan" sarayında İqtisadiyyat Nazirliyinin dəstəyi, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) və Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının təşkilatçılığı ilə "Azərbaycanın sosial-iqtisadi inkişafının yeni dövrü" mövzusunda konfrans keçirilib.

Əvvəlcə tədbir iştirakçıları Fəxri xiyabanda Ümummilli Lider Heydər Əliyevin məzarını ziyarət edib, xatirəsini ehtiramla anaraq abidəsi önünə əklil qoyublar. Konfrans iştirakçıları həmçinin Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəmanlarımızın xatirəsini ehtiramla yad edib, "Əbədi məşəl" kompleksinə əklil qoyublar.

Konfrans öz işinə Azərbaycanın Dövlət himninin səslənməsi və Azərbaycanın ərazi bütövlüyü uğrunda canından keçmiş şəhidlərimizin əziz xatirəsinin birdəqiqəlik sükutla yad olunması ilə başlayıb.

Tədbirdə aidiyyəti dövlət qurumlarının rəhbər şəxsləri, sahibkarların ictimai birliklərinin nümayəndələri, eləcə də müxtəlif sahələrdə fəaliyyət göstərən iş adamları iştirak ediblər.

Konfransda iqtisadiyyat naziri Mikayıl Cabbarov (video müraciət), əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev, iqtisadiyyat nazirinin birinci müavini Elnur Əliyev, KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov, Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti Məmməd Musayev, "Hünər Qrup" şirkətinin təsisçisi və baş direktoru Ehtiram Quliyev çıxış ediblər. Çıxışlarda ölkəmizdə bazar münasibətləri prinsipləri əsasında iqtisadiyyatın, o cümlədən özəl sektorun formalaşması və inkişafında Ulu Öndərin rolu, bu siyasətin Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilməsi, özəl sektorun inkişafı, sahibkarların sosial rifah və məşğulluqda rolu, kiçik və orta biznesin inkişafının prioritetliyi, dövlət-özəl dialoqunun əhəmiyyəti barədə məlumat verilib.

Tədbirdə sahibkarlığın inkişafına və ASK-nın 25 illiyinə dair filmlər nümayiş olunub, dövlət-özəl dialoqunun inkişafına verdiyi töhfələrə görə bir qrup sahibkar mükafatlandırılıb.

Konfransın sonunda Prezident İlham Əliyevə konfrans iştirakçıları adından müraciət qəbul olunub.

Tədbir bədii hissə ilə başa çatıb.

## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

### Sahibkarlar Gününə və Azərbaycan Sahibkarlar Konfederasiyasının yaranmasının 25 illiyinə həsr olunmuş "Azərbaycanın sosial-iqtisadi inkişafının yeni dövrü" mövzusunda konfransın iştirakçılarının

## MÜRACİƏTİ

Möhtərəm cənab Prezident!

Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş müstəqil Azərbaycanın sosial-iqtisadi inkişaf strategiyası bu gün zati-aliniz tərəfindən uğurla davam etdirilir. Məhz bu siyasət nəticəsində ölkəmizdə sabitlik təmin olunmuş, iqtisadiyyatımızın müasir bazar münasibətlərinə keçidi uğurla başa çatmışdır.

Zati-alinizin rəhbərliyi ilə aparılan genişmiqyaslı işlər nəticəsində sahibkarlar ölkə iqtisadiyyatının aparıcı qüvvəsinə çevrilmiş, sağlam bazar münasibətləri, azad rəqabət mühiti, özəl bölmə üçün əlverişli imkanlar formalaşdırılmışdır. Aparılan islahatlar dünyanın qabaqcıl iqtisadi mərkəzləri tərəfindən də yüksək qiymətləndirilir.

Məhz Sizin müdrik siyasətinizlə sahibkarlığa dair qanunvericiliyin və inzibati prosedurların təkmilləşdirilməsi, regionlarda sahibkarlığın inkişafına dövlət dəstəyi mexanizmlərinin səmərəliliyinin artırılması, maarifləndirmə və işgüzar əlaqələrin inkişafı istiqamətində davam etdirilən məqsədyönlü tədbirlər nəticəsində özəl bölmənin ümumi daxili məhsulda payı 83 faiz, məşğulluqda payı isə 78 faizdən artıq olmuşdur. Belə yüksək nəticənin əldə olunması biz sahibkarları çox qürurlandırır. Sahibkarlara göstərdiyiniz diqqət və qayğını xüsusi minnətdarlıq hissi ilə vurğulayırıq.

Dünya birliyində öz layiqli yerini tutan, dayanıqlı və davamlı iqtisadi inkişafa nail olan Azərbaycan inkişaf etmiş ölkələrdən birinə çevrilmək hədəfinə doğru böyük inamla irəliləyir. Reallaşdırılan mühüm tədbirlər nəticəsində ölkəmizdə makroiqtisadi sabitlik qorunub saxlanılır, iqtisadiyyatın şaxələnməsi uğurla təmin olunur, özəl bölmənin inkişafı üçün daha əlverişli biznes və investisiya mühiti formalaşdırılır.

Sizin rəhbərliyinizlə 44 günlük Vətən müharibəsində torpaqlarımızın işğaldan azad edilməsi və 23 saatlıq lokal antiterror əməliyyatı nəticəsində respublika ərazisində separatizmə birdəfəlik son qoyularaq ölkəmizin konstitusiya quruluşunun tam bərpa edilməsi ilə dövlətimizin qüdrətinin artması inkişaf tariximizin yeni mərhələsinə qədəm qoymağımıza imkan yaratmışdır.

Siz Azərbaycan sahibkarlarının sonsuz məhəbbət bəslədiyi və daim əvəzolunmaz lider kimi tanıdığı rəhbərsiniz. Bu ilin fevral ayında keçirilmiş növbədənkənar Prezident seçkilərində Azərbaycan sahibkarları öz seçimlərini etdilər və birmənalı olaraq Sizin yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyinizə səs verdilər.

Möhtərəm cənab Prezident!

Bu gün hər bir sahibkar anlayır ki, Azərbaycanın tərəqqisi və gələcək inkişafı üçün Sizin rəhbərliyiniz ilə həyata keçirilən genişmiqyaslı tədbirlər davam etdirilməlidir. Biz - Azərbaycan Sahibkarlar Konfederasiyasının yaranmasının 25 illiyi və Sahibkarlar Gününə həsr olunmuş konfransın iştirakçıları Sizi əmin edirik ki, işğaldan azad olunmuş Qarabağda və Şərqi Zəngəzurda ən yeni texnologiyaların tətbiqi, yeni iş yerlərinin yaradılması, bərəkətli torpaqlarımıza yenidən həyatın qayıtması, əhalinin rifah halının yaxşılaşdırılması, ümumilikdə isə iqtisadiyyatımızın inkişafı istiqamətində əlimizdən gələni əsirgəməyəcəyik.

Azərbaycan sahibkarları daim dövlətin dəstəyini, qayğısını hiss edir və Sizin sərəncamınızla hər il 25 aprel tarixinin ölkəmizdə "Sahibkarlar günü" kimi qeyd edilməsi bizim üçün böyük bir bayrama çevrilir.

Zati-alinizə möhkəm cansağlığı və müstəqil, demokratik Azərbaycanın daha da möhkəmlənməsi, xalqımızın xoşbəxt gələcəyi naminə yorulmaz fəaliyyətinizdə uğurlar arzulayırıq!

Tanrı Sizi, xalqımızı və Azərbaycanımızı qorusun!

***Bakı şəhəri, 25 aprel 2024-cü il***

# COP29 "yaşıl dünya"ya qapı açacaq

**Son zamanlar Bakıda dünyanın maraq dairəsində olan BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) ilə bağlı mütəmadi tədbirlər, görüşlər keçirilir. İştirakçı dövlətlərin nümayəndələri Azərbaycana gəlir, təkliflərini verir, təşəbbüs irəli sürür, hazırlıqlarla tanış olurlar. Deməək olar ki, Bakı bu aylarda öz qapılarını daha geniş açaraq, xarici qonaqların işgüzar səfərləri çərçivəsində keçirilən görüşlərə meydan verir.**

Belə tədbirlərdən biri də aprelin 23-də ADA Universitetində "COP 29 və Azərbaycan üçün Yaşıl Baxış" mövzusunda keçirilən beynəlxalq forumdur. Məlumdur ki, forum dünyada maraq doğuran qlobal xarakterli məsələlərə dair geniş spektrli dialoqlar, fikir mübadilələri və müzakirələr aparmaq məqsədilə keçirilən tədbirdir. Qeyd edək ki, müxtəlif məzmunlu qlobal forumlar 2011-ci ildən keçirilməyə başlayıb. Bakıda ilk belə tədbir 2010-cu ilin yanvarında Prezident İlham Əliyev və Rusiyanın keçmiş Prezidenti Dmitri Medvedevin təşəbbüsü ilə keçirilən Humanitar Əməkdaşlıq üzrə I Azərbaycan-Rusiya Forumu olub. Sonra ardıcıl olaraq keçirilən IX və X Qlobal Bakı Forumu, "4-cü Sənaye İnqilabı dövründə Yeni Media" mövzusunda Şuşa Qlobal Media Forumu, "Təhsildə yeni çağırışlar" III Beynəlxalq Forumu, Kiçik və Orta Sahibkarlıq üzrə Dünya Forumu ("SME World Forum 2023"), Dayanıqlı İnkişafa dair II Bakı Forumu, eləcə də BMT-nin Mərkəzi Asiya Ölkələrinin iqtisadiyyatları üçün xüsusi proqramının - SPECA-nın iştirakçı ölkələrinin dövlət və hökumət başçılarının Zirvə görüşü Azərbaycanın dünya üzrə nüfuzunun artmasına, daha global səviyyədə tanınmasına səbəb olub. Çünki keçirilən forumlar Azərbaycanın konstruktivliyini, onun beynəlxalq proses və problemlərə həssaslığını göstərir. Eləcə də onun bütün dünyada müsbət mənada imicini artırır.

Bəzən bu fakt Azərbaycana qarşı qarayaxma kampaniyası aparanların xoşuna gəlmir, yeri gəldi-gəlmədi irad tuturlar. Bunlar əsasən Azərbaycandan iqtisadi gözləntilərini əldə edə bilməyən dövlətlərdir. Ölkəmizi dünyada neqativ tərəfdən tanıtmağa çalışırlar. Prezident İlham Əliyev aprelin 23-də ADA Universitetində "COP29 və Azərbaycan üçün Yaşıl Baxış" mövzusunda keçirilən beynəlxalq forumda bu məsələyə toxunaraq belə dedi: "COP29-un sədri olaraq bizim üzərimizdə olan məsuliyyət səviyyəsi, əlbəttə ki, artmaqdadır. Çünki birincisi, biz sədrliyimizə çox ciddi yanaşırıq, ikincisi, biz diqqət mərkəzindəyik. Sədrlik veriləndən dərhal sonra müxtəlif QHT-lər və media tərəfindən bizə qarşı hücumlar olmuşdur ki, yenə də neft hasil edən ölkə COP-a sədrlik edir. Sanki bu, bizim günahımız idi. Mənim isə onlara mesajım ondan ibarət idi ki, bizim neft ölkəsi olmağımız bizim günahımız deyil. Baxın görün, biz bu resurslardan necə istifadə edirik. Əvvəla baxın görün ki, biz bu resurslardan ölkənin inkişafı, yoxsulluğun azaldılması, sərvətin ədalətli paylanılması üçün necə istifadə edirik. Sonra baxın görün ki, biz ondan infrastruktur, "yaşıl enerji" üçün necə istifadə edirik. Beləliklə, bu gün biz sabit neft və artan qaz hasilatına malikik, eyni zamanda "yaşıl enerji" layihələrini inkişaf etdiririk".




Qlobal tədbirlərin keçirilməsində Azərbaycanın özünəməxsus təcrübəsi var. Asiya ilə Avropanı birləşdirən nəqliyyat marşrutlarının Azərbaycandan keçməsi və qonşu ölkələrin bu prosesə cəlb olunması iqtisadi baxımdan Azərbaycana dividendlər gətirir. Azərbaycanda siyasət, iqtisadiyyat, multikulturalizm, sivilizasiyalararası dialoq istiqamətində keçirilən hər bir forumun özünün konkret vəzifələri var. Adıçəkilən forumda da COP29-u əhatə edən məsələlərlə yanaşı, Azərbaycanın Avrasiyaya inteqrasiyası, Azərbaycan-Ermənistan sülh danışıqlarının hansı mərhələdə olması, enerji layihələri, ekoloji idarəetmə, Orta dəhlizin inkişafı fonunda Çin-Azərbaycan arasında əməkdaşlıq perspektivləri, Zəngəzur dəhlizi, Rusiyanın sülhməramlı missiyasının çıxması və gələcəkdə Qarabağla bağlı Azərbaycan-Rusiya münasibətləri, həmçinin Rusiyanın Qafqazda gələcək rolu, Avropa İttifaqı ilə bağlı münasibətlərin necə olacağı kimi məsələlər müzakirə olundu. Qeyd edək ki, "COP 29 və Azərbaycan üçün Yaşıl Baxış" mövzusunda keçirilən beynəlxalq forumun mərkəzində dayanan, adından da bəlli olduğu kimi, "yaşıl enerji", "yaşıl dünya" , "yaşıl iqtisadiyyat" kimi terminləri özündə ehtiva edən sualların cavabı İlham Əliyev tərəfindən açıqlandı. Təbii ki, belə bir qlobal forumun Azərbaycana həvalə olunması aktual məsələlərin müzakirəsində ölkəmizin ədalətli mövqe nümayiş etdirməsinin sübutudur. Prezidentin forumda söylədiyi bu fikirlər dediklərimizi təsdiq edir: "COP29 sülh prosesinin nəticəsidir. Budəfəki COP-un mövzusu maliyyə olmasına baxmayaraq, ev sahibi ölkə olaraq biz gündəliyə bir neçə əlavə edə bilərik və belə məsələlərdən biri sülh olacaqdır. Birincisi, ona görə ki, biz məhz sülh prosesi sayəsində COP29-a evsahibliyi etmək hüququ qazandıq. Çünki burada Ermənistan vetosunu aradan qaldırdı və biz də qarşılıqlı addımlar atdıq. Burada söhbət təkcə COP-dan və ötən dekabrdan getmir. Burada aramızda etimadın yaranmasından söhbət gedir. Çünki ən böyük çağırış qarşılıqlı etimadın olmaması və ya onun çox aşağı səviyyədə olmasıdır".

İlham Əliyev tədbirdə maraqlı bir məsələni diqqətə çatdırdı: "COP29 üçün sanki bir yenilik olan bir məsələ ondan ibarətdir ki, biz üçlük mexanizmini yaratdıq. Bu, COP28-i keçirmiş Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) və COP30-u keçirəcək Braziliya ilə birlikdə bu formata malik olmaq üçün Azərbaycanın təşəbbüsü idi. Artıq nazirlərin görüşü baş tutub və bu, bizə planlaşdırmaya kömək edəcək. Çünki 2024-cü ilin noyabrında Bakıda keçiriləcək COP29 bitəcək. Lakin proses davam etməlidir. Biz indi tədbirin hazırlanması və keçirilməsi üzrə Birləşmiş Ərəb Əmirliklərinin böyük təcrübəsindən yararlanırıq. Bu üçlükdə birlikdə olmaq bir sinerji, koordinasiya və proqnozlaşdırma yaradır".

Qeyd edək ki, ötən həftə Dubayda baş verən fırtına və sel qlobal istiləşmənin nəticəsidir. Unutmaq olmaz ki, belə fəlakətlərin hər zaman hər ölkədə baş verə biləcəyi qaçılmazdır. Ona görə də dünya dövlətləri birgə addım atmalı, əlbir olmalı, problemin həlli üçün var güclərini səfərbər etməlidirlər. Prezidentin də dediyi kimi, əvvəlki illərdə keçirilən COP tədbirlərinin nəticələri gündəlikdən çıxmamalı, COP29 özündən əvvəlki müzakirələrin nəticəsinə işıq tutmalıdır.

***Züleyxa ƏLİYEVA, "Azərbaycan"***

26 Aprel Beynəlxalq Əqli Mülkiyyət Günüdür

# Bəşəri dəyər

**Hər il aprelin 26-sı bütün dünyada Beynəlxalq Əqli Mülkiyyət Günü kimi qeyd olunur. Bu tarixin daşıdığı missiya haqqında geniş danışmaq olar. Lakin hər kəsə məlumdur ki, əqli fəaliyyət və onun keçdiyi tarixi yol bəşəriyyət üçün xüsusi önəm kəsb edir.**

Beynəlxalq Əqli Mülkiyyət Günü münasibətilə ölkəmizdə keçirilən tədbirlərdə elmimizin, mədəniyyətimizin nailiyyətləri təhlil olunur, görüləcək işlər planlaşdırılır və yeni hədəflər seçilir. Bu il "Əqli mülkiyyət müasir mərhələdə" mövzusunda keçirilən "dəyirmi masa"da da innovasiya və yaradıcılıq naminə müəllifliyin dəstəklənməsi, əqli mülkiyyət sahəsində həyata keçirilən tədbirlər, o cümlədən "internet cəmiyyətində" müəllif-hüquq qanunvericiliyinin tətbiqi məsələlərinə dair geniş müzakirələr aparılacaq.

Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri Kamran İmanov söhbət əsnasında bildirdi ki, 2001-ci ildən başlayaraq, hər il ölkəmizdə qeyd olunan Əqli Mülkiyyət Günü bu il xalqımız üçün xüsusi əhəmiyyət daşıyır. Belə ki, bu əlamətdar tarix artıq öz suverenliyini və bütövlüyünü tam bərpa edən doğma Vətənimizin bütün ərazisində qeyd olunur, bu isə hər bir azərbaycanlı üçün qürurvericidir.

Dövlətimizin başçısının 2024-cü il 14 fevral tarixində andiçmə mərasimindəki nitqində böyük inamla söylədiyi "İndi isə yeni dövr başlayır. Biz bu dövrə alnımız açıq, üzümüz ağ, başımız dik daxil oluruq. Bu dövrün böyük nailiyyətləri olacaq, mən buna şübhə etmirəm. Çünki son illərin tarixi onu göstərir ki, qarşıya qoyduğumuz bütün vəzifələr icra edildi" sözlərini xatırladan agentliyin sədri qeyd etdi ki, yeni dövrdə əqli mülkiyyət sisteminin qarşısında da mühüm vəzifələr durur və Prezident İlham Əliyevin rəhbərliyi altında biz bu vəzifələri layiqincə yerinə yetirəcəyik.

"Azərbaycanın son illərdə əldə etdiyi nəticələrin böyük təsiri kreativliyin, innovativliyin və təəssübkeşliyin inkişafında öz əksini tapır və gözəl bəhrələr verir. Çünki millətin ən dəyərli varidatı, onun intellekt böyüklüyünü təşkil edən keyfiyyətlər xalqın nümayəndələrinin yaradıcılığı və yenilikçiliyi ilə bağlıdır" deyən K.İmanov sübut kimi konkret misallar gətirdi. Bildirdi ki, 2023-cü ildə 386 müəllifə (hüquq sahibinə) məxsus 713 əsər qeydiyyatdan keçirilərək 717 şəhadətnamə verilmişdir ki, bu da 2022-ci illə müqayisədə 20 faiz çoxdur. O cümlədən "elektron xidmət" bölməsi vasitəsilə 324 müəllif (hüquq sahibi) tərəfindən 626 əsər qeydiyyatdan keçirilmişdir. Bu da 2022-ci illə müqayisədə 73 faiz çoxdur. Əlaqəli hüquqların obyektləri üzrə 162 ifa (2022-ci ildə 46 ifa) və 37 kompüter proqramı (2022-ci ildə 18) qeydiyyata alınmışdır.

Sənaye mülkiyyəti sahəsində 2023-cü ildə ixtira, faydalı model və sənaye nümunələrinin patentləşdirilməsinə dair agentliyə 302 iddia sənədi (2022-ci ildə 271 iddia sənədi) daxil olmuşdur. Bu isə ixtira fəallığının 11 faiz artması deməkdir. Nəticədə ixtiraya aid 103, faydalı modelə aid 36 və sənaye nümunələrinə aid 12 patent qeydiyyata alınmışdır.

Əmtəə nişanlarının qeydiyyatı ilə bağlı daxil olan iddiaların sayı 3862 olmuşdur, o cümlədən ekspertizanın sürətli aparılması üçün 1474 vəsatət (2022-ci ildə 931) daxil olmuşdur.

Gətirilən faktoloji statistika suverenliyimiz tam bərpa olunduğundan kreativ ruhun yüksəlməsindən irəli gələn müəllif-hüquq, ixtira və iqtisadi təəssübkeşliyin müsbət nəticələrinə dəlalət edir.

Üstəlik, agentliyin tətbiq etdiyi innovativ üsulların da əhəmiyyəti danılmazdır. Belə ki, müəllif-hüquq obyektlərinin qeydiyyatı tam elektronlaşdırılmış, sənaye mülkiyyəti obyektlərinin qeydiyyatı 24/7 rejimində PƏNAH rəqəmli sistemin tətbiqi nəticəsində iddiaçı ilə ekspertizanın və bu sahədə xidmət göstərən digər şəxslərin canlı təması aradan qaldırılmış, vahid pəncərə və istənilən yerdən xidmətə əlçatanlıq prinsipi əsasında operativlik və şəffaflıq təmin edilmişdir.

İxtiralar üzrə ekspertizanın müddəti ümumi qayda olaraq 12 ay təşkil etdiyi halda, 2023-cü ildə 8-9 ay müddətində aparılmış və məlumatlara əlçatanlığı təmin edən "açıq reyestr" prinsipinin tətbiqinə başlanılmışdır.

## Əqli mülkiyyətin hüquqi bazası

Böyük məmnunluq hissi ilə qeyd etməliyik ki, Ümummilli Lider Heydər Əliyev Ümumdünya İnsan Hüquqları Bəyannaməsində əsas hüquqlar kimi təsbit olunan əqli mülkiyyətlə bağlı münasibətlərin tənzimlənməsi məsələsinə hər zaman böyük əhəmiyyət verirdi. 1993-cü ildə Ulu Öndərin təşəbbüsü ilə mərkəzi icra hakimiyyəti orqanı statusunda Müəllif Hüquqları Agentliyi yaradılmışdır. 1995-ci ildə qəbul edilmiş Azərbaycan Respublikası Konstitusiyasının 30-cu maddəsində əqli mülkiyyət hüquqları əsas insan və vətəndaş hüquqlarından biri kimi təsbit olunmuşdur: "Hər kəsin əqli mülkiyyət hüququ vardır. Müəlliflik hüququ, ixtiraçılıq hüququ və əqli mülkiyyət hüququnun başqa növləri qanunla qorunur".

Konstitusiyanın qəbulundan sonra müstəqil Azərbaycan dövlətinin yeni inkişaf reallıqlarına uyğun olaraq əqli mülkiyyətin qorunması və inkişafı istiqamətində mühüm işlər görülmüş, bu sahədə zəngin qanunvericilik bazası yaradılmışdır. 1996-cı ildə müstəqil Azərbaycan Respublikasında əqli mülkiyyət sahəsində ilk dəfə "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" qanun qəbul edilmiş, bunun ardınca 1997-ci ildə "Patent haqqında", 1998-ci ildə "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikasının qanunları qəbul edilərək qüvvəyə minmişdir.

2003-cü ildə Azərbaycanın mədəni irsinin tərkib hissəsi olan milli folklor nümunələrinin əqli mülkiyyətin xüsusi növü kimi hüquqi qorunması, istifadəsi və müdafiəsinin təminatı ilə əlaqədar yaranan münasibətləri tənzimləyən "Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında" qanunun qəbulu da Ulu Öndər Heydər Əliyevin Azərbaycanın mədəni irsinə və əqli mülkiyyətinə verdiyi böyük dəyərin göstəricilərindən biridir. Bu qanun MDB məkanında və Şərqi Avropa ölkələrində folklor nümunələrinin əqli mülkiyyətin xüsusi növü kimi hüquqi qorunmasını təmin edən ilk sənəddir.

Ölkəmiz 1995-ci ildə Ümumdünya Əqli Mülkiyyət Təşkilatının (ÜƏMT) üzvüdür və əqli mülkiyyət sahəsində beynəlxalq konvensiyalara və müqavilələrə qoşulmuşdur.

## Kreativlik, müasirlik, şəffaflıq və yaradıcılığın dəstəklənməsi

2018-ci ildə ölkəmizdə aparılan struktur və iqtisadi islahatlar çərçivəsində həyata keçirilən tədbirlər nəticəsində əqli mülkiyyət sistemində əhəmiyyətli təşkilati və funksional dəyişikliklər baş vermişdir. Ölkə Prezidentinin 2018-ci il 20 aprel tarixli sərəncamı ilə Azərbaycan Respublikasının Müəllif Hüquqları Agentliyinin və Patent və Əmtəə Nişanları Mərkəzinin birləşmə formasında yenidən təşkili yolu ilə Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi yaradılmışdır. Bununla da ilk dəfə olaraq ölkəmizdə əqli mülkiyyətin bütün qolları vahid "çətir" altında birləşmiş və sahənin inkişafında yeni dövr başlamışdır.

ÜƏMT müasir çağırışlara cavab verən milli əqli mülkiyyət ofislərinin yaradılmasına aid təlimatların hazırlanması məqsədilə dünya üzrə 204 ofis arasından seçilmiş mükəmməl idarəetmə strukturuna və inzibatçılıq mexanizmlərinə malik olan 15 ölkənin ofisləri sırasına Azərbaycan Əqli Mülkiyyət Agentliyini də daxil etmişdir.

MDB məkanında fəaliyyət göstərən Avrasiya Patent Təşkilatı (APT) əqli mülkiyyət sahəsində Azərbaycanın müsbət təcrübəsini nəzərə alaraq "Müasir əqli mülkiyyət ofisinin formalaşması və fəaliyyəti" mövzusunda geniş prezentasiya və məqalə sifariş edərək, onu Moskvada nəşr olunan "Əqli mülkiyyət: Sənaye mülkiyyəti" jurnalının xüsusi buraxılışında (2023, №5) dərc etdirmişdir. Avrasiya Patent Təşkilatının rəhbəri tərəfindən üzv dövlətlərin patent ofislərinə Azərbaycan təcrübəsindən geniş istifadə etmək tövsiyə olunmuşdur.

Onu da qeyd edək ki, Azərbaycan Prezidentinin səyləri nəticəsində əqli mülkiyyət sahəsində ölkəmizdə uğurla həyata keçirilən islahatlar Rusiya Hüquqşünaslar Assosiasiyasının təşəbbüsü ilə bir nümunə kimi qəbul edilərək, bu nümunə əsasında Rusiya Federasiyası Hökumətinə müvafiq təkliflərin verilməsi qərara alınmışdır.

Həyata keçirilən tədbirlər çərçivəsində "İxtiraçılıq fəaliyyətinin stimullaşdırılması haqqında" Azərbaycan Respublikası Prezidenti 2022-ci il 15 iyun tarixli fərman imzalamışdır. Bu fərmanın icrasını təmin etmək məqsədilə Nazirlər Kabinetinin 2022-ci il 9 dekabr tarixli qərarı ilə "İxtiraların və faydalı modellərin Patent Əməkdaşlıq Sazişi (PCT) beynəlxalq sistemi vasitəsilə xarici dövlətlərdə patentləşdirilməsi və onların ilk üç il müddətində qüvvədə saxlanılması üçün Azərbaycan Respublikasının vətəndaşı olan hüquq sahiblərinin ödədikləri xərclərin 50 (əlli) faizinin dövlət tərəfindən maliyyələşdirilməsi Qaydası" təsdiq edilmişdir. Bu qaydaya uyğun olaraq, PCT beynəlxalq sistemi vasitəsilə ixtiranın və faydalı modelin patentləşdirilməsi və patentin ilk üç il müddətində qüvvədə saxlanılması üçün hüquq sahibi tərəfindən ödənilmiş vəsaitin 50 faizinin dövlət büdcəsindən agentliyə bu məqsəd üçün ayrılmış vəsait hesabına maliyyələşdirilməsinə başlanılmışdır.

Cəmiyyətdə əqli mülkiyyət sahəsində məlumatlılığın artırılması məqsədilə agentlik tərəfindən 2024-cü ilin aprel ayı "Əqli Mülkiyyət Aylığı" elan edilmişdir.

Hazırda "Əqli Mülkiyyət Aylığı" çərçivəsində maarifləndirici xarakterli silsilə tədbirlər keçirilir. İştirakçılar Azərbaycanda müəllif-hüquq sisteminin yaradılması və inkişaf mərhələləri barədə dolğun bilgi əldə edirlər. Agentliyin təcrübəli mütəxəssisləri tərəfindən ixtiranın qeydiyyatı və patentləşdirilməsi prosedurları, Azərbaycanda ixtiraçılıq və patent analitikası, patent ailələri, sənaye nümunələri, əmtəə nişanları və coğrafi göstəricilərin ekspertizası və qeydiyyatı barədə suallar dolğun şəkildə cavablandırılır. Universitetlərin və elmi-tədqiqat institutlarının mütəxəssisləri, tələbələr, ixtiraçılar, o cümlədən gənc ixtiraçılar və digər maraqlı şəxslər, habelə müəlliflərin əmlak hüquqlarının kollektiv idarəetmə təşkilatlarının əməkdaşlarının iştirakı ilə geniş müzakirələr aparılır. Bu sahədə işlər davam etdiriləcəkdir.




## Gəncliyin yaradıcı gücü

Əqli Mülkiyyət Agentliyi gənc ixtiraçılara daim dəstək verir. Gənclik hər zaman yeniliklərin, inkişaf meyillərinin hərəkətverici qüvvəsi rolunda çıxış edir. Müasir gənclər xüsusilə ixtiraçılıq istedadları, innovasiyalara olan böyük maraqları ilə fərqlənirlər. Onların yeni baxışları, enerjisi, marağı və çətinlikləri dəf etməyə hazır olmaları, eləcə də daha firavan gələcəyə can atmaları artıq mövcud yanaşmaları dəyişdirir, innovasiyalara və yeniliyə stimul verir, kreativliyə gətirib çıxarır.

Bir neçə gün əvvəl "Əqli Mülkiyyət Aylığı" çərçivəsində gənc ixtiraçılara dəstək məqsədilə agentlik tərəfindən "Rəqəmsal dövrdə əqli mülkiyyət" mövzusunda seminar keçirilib. Tədbirdə gənclərin yaradıcılığının daha da inkişaf etdirilməsi və onların həvəsləndirilməsi sahəsində qarşıda duran vəzifələr geniş müzakirə olunub. Gənc ixtiraçılar maraqlı təqdimatlar ediblər.

Qeyd edək ki, gənc ixtiraçılar tərəfindən nümayiş olunan ixtiraların patentləşdirilməsi üçün iddia sənədləri artıq Əqli Mülkiyyət Agentliyinə təqdim olunub və onlara lazımi dəstək göstərilir.

Agentliyin təşəbbüsü və dəstəyi ilə ölkəmizin gənc ixtiraçılarının beynəlxalq səviyyədə qazandıqları nailiyyətlər xüsusi vurğulanmalıdır. 2023-cü ildə İstanbul şəhərində Türkiyə Sənaye və Texnologiyalar Nazirliyinin, Türkiyə Patent və Əmtəə Nişanları Qurumunun (TÜRKPATENT), həmçinin Beynəlxalq İxtiraçılar Assosiasiyaları Federasiyasının (IFIA) təşkilatçılığı, Ümumdünya Əqli Mülkiyyət Təşkilatı və "Türkiyə Texnologiya Komandası"nın dəstəyi ilə keçirilən "ISIF 23: 8-ci İstanbul Beynəlxalq İxtiralar Sərgisi"ndə 5 azərbaycanlı ixtiraçı ölkəmizi layiqincə təmsil etmiş, 1 qızıl, 2 gümüş, 2 bürünc medala və 1 "Ən yaxşı xarici ixtira" sertifikatına layiq görülmüşlər.

Beləliklə, bir daha vurğulamaq istərdik ki, sahə üzrə davamlı olaraq həyata keçirilən islahatlar nəticəsində ölkəmizdə copyright, patent və digər əqli mülkiyyət sahələrini vahid "çətir" altında birləşdirən mükəmməl və müasir bir sistem formalaşdırılmışdır. Sistem zamanın çağırışlarına uyğun şəkildə daim təkmilləşdiriləcək, bəşəri dəyər olan əqli mülkiyyətin qorunmasını təmin edəcək və ölkəmizin sosial-iqtisadi inkişafına layiqli töhfələr verəcəkdir.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

# Romada "Agdam delenda est. Images from Karabakh" adlı fotokitabın təqdimatı olub

**Romada İtaliyanın "Artcloud Network International" şirkətinin kreativ direktoru Fabrisio Kontinin "Agdam delenda est. Images from Karabakh" adlı fotokitabının təqdimat mərasimi keçirilib.**




AZƏRTAC xəbər verir ki, "Adn Kronos International SRL" agentliyinin informasiya mərkəzində keçirilən təqdimat mərasimində Azərbaycanın İtaliyadakı səfiri Rəşad Aslanov, akademik dairələrin nümayəndələri, memarlar, analitik və ekspertlər iştirak ediblər.

Fabrisio Konti kitabda Qarabağda və işğaldan azad olunmuş digər ərazilərimizdə çəkilmiş 150-dən çox fotoşəklin toplandığını bildirib. O, dəfələrlə işğaldan azad edilən ərazilərə səfər etdiyini və Azərbaycan ərazilərinin təxminən otuzillik erməni işğalı dövründə vandalizmə məruz qaldığının canlı şahidi olduğunu deyib. Bildirib ki, "Agdam delenda est. Images from Karabakh" kitabı obrazlar vasitəsilə Qarabağın ruhuna səyahətdir.

Kreativ direktor hazırda Azərbaycan hökumətinin azad olunmuş ərazilərdə genişmiqyaslı yenidənqurma və bərpa işləri apardığını, Qarabağda möhtəşəm və nadir İşğal və Zəfər muzeyləri komplekslərinin inşa olunacağını qeyd edib.

Roma Sapienza Universitetinin tədqiqatçısı professor Daniel Pommier Vinçelli Azərbaycanın uzun illərdir Ermənistanın etnik təmizləmə siyasətinə məruz qaldığını, minlərlə azərbaycanlının öz yurd-yuvalarından didərgin salındığını və qaçqın şəraitində yaşamağa məcbur edildiyini bildirib. Qeyd edib ki, Ermənistan işğal dövründə Qarabağdakı maddi-mədəni və memarlıq irsini talan edib, məscidləri və qəbirləri dağıdıb. Azərbaycan tarixi ərazilərini işğaldan azad etdikdən sonra məcburi köçkünlərin öz ata-baba yurdlarına geri qayıtmasını prioritet kimi qoyub.

Ölkəmizin İtaliyadakı səfiri Rəşad Aslanov isə Azərbaycanın hazırda Qarabağda yenidənqurma və abadlıq-quruculuq işlərini müvəffəqiyyətlə yerinə yetirdiyini deyib. Rəşad Aslanov qeyd edib ki, Ermənistan otuz ilə yaxın hərbi işğalı dövründə nəinki Azərbaycanın şəhər və kəndlərini talayıb və dağıdıb, eyni zamanda minalar və digər partlayıcı qurğularla çirkləndirib. İşğaldan azad edilmiş ərazilərimizdəki mina probleminin miqyasının geniş olduğu və Azərbaycan hökumətinin bu təhlükəni aradan qaldırmaq üçün böyük səylər göstərdiyi vurğulanıb. Bildirilib ki, Qarabağdakı mina təhlükəsi münaqişədən sonrakı dövrdə də Azərbaycan vətəndaşlarının həyatı və sağlamlığı üçün böyük təhlükə mənbəyi olaraq qalır. Diplomat "Agdam delenda est. Images from Karabakh" fotokitabının həm Azərbaycanın işğal olunmuş şəhər və kəndlərinin uğradığı erməni vandalizminin nəticələri, həm də azad olunmuş ərazilərdəki bərpa işlərinin İtaliya ictimaiyyətinə çatdırılmasında mühüm vasitə olacağını deyib.

Tədbirdə Fabrisio Kontinin Qarabağda lentə aldığı, işğal dövründən qalan xarabalıqlar və işğaldan sonra bu ərazilərdə aparılan yenidənqurma işlərinə dair videoçarx təqdim olunub.

# Xocalıda insan qalıqları aşkarlanıb



**İşğaldan azad edilmiş Xocalı rayonunun Malıbəyli kəndi ərazisində aprelin 24-də insan qalıqlarının aşkarlanması barədə məlumat daxil olub.**

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının Baş Prokurorluğu və Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası birgə məlumat yayıb.

Məlumatda bildirilib ki, Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasında (Dövlət Komissiyası) təmsil olunan qurumların, o cümlədən Baş Prokurorluq, Dövlət Komissiyasının İşçi qrupu, Səhiyyə Nazirliyinin Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyi, Fövqəladə Hallar Nazirliyi, ANAMA və Milli Elmlər Akademiyasının Arxeologiya və Antropologiya İnstitutunun peşəkar mütəxəssis heyəti dərhal əraziyə ezam edilib.

İlkin araşdırma zamanı məlum olub ki, işğaldan azad edilmiş ərazilərdə bərpa-quruculuq və abadlıq işləri zamanı Xocalı rayonunun Malıbəyli kəndi ərazisində (1988-ci ildə yeni salınmış "Məhəllə" adlanan ərazi) torpaq səthi üzərində insan qalıqları aşkar olunub.

Keçirilən baxış istintaq hərəkəti zamanı qazıntı işləri aparılarkən ən azı 6 nəfərə aid olduğu ehtimal edilən sümük fraqmentləri aşkarlanıb.

Hazırda ərazidə olan insan qalıqlarının tam aşkarlanması istiqamətində işlər davam etdirilməklə, sümük fraqmentləri üzrə zərərçəkmişlərin şəxsiyyətinin, onların torpaqda qalma müddətinin müəyyənləşdirilməsi məqsədilə məhkəmə-tibb ekspertləri və mütəxəssislərin iştirakı ilə baxış davam etdirilir, eləcə də digər zəruri prosessual hərəkətlər icra olunur.

Faktla bağlı Baş Prokurorluğun Kriminalistika və informasiya texnologiyaları idarəsində araşdırma aparılır. Nəticəsi barədə ictimaiyyətə əlavə məlumatın verilməsi təmin ediləcək.

* * *

İşğaldan azad edilmiş Xocalı rayonunun Malıbəyli kəndi ərazisində (1988-ci ildə yeni salınmış "Məhəllə" adlanan ərazi) aprel ayının 24-də aparılan bərpa-quruculuq və abadlıq işləri zamanı insan qalıqlarının aşkar olunması faktı ilə bağlı Baş Prokurorluğun Kriminalistika və informasiya texnologiyaları idarəsində araşdırmalar davam etdirilir.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının Baş Prokurorluğu və Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası birgə məlumat yayıb.

Məlumatda bildirilib ki, qeyd olunan ərazidə həyata keçirilən baxış istintaq hərəkəti nəticəsində daha 2 nəfərə aid sümük fraqmentləri tapılıb və bununla da aşkar olunan insan qalıqlarının ən azı 8 nəfər şəxsə (biri azyaşlı olmaqla) məxsus olması müəyyən edilib.

Faktla bağlı toplanmış material üzrə zərərçəkmiş şəxslərin şəxsiyyətinin, həmçinin əhəmiyyət kəsb edən digər halların müəyyənləşdirilməsi məqsədilə müvafiq ekspertizalar təyin edilməklə zəruri prosessual hərəkətlər icra olunur.

# REGİONLAR

## Naxçıvandan Türkiyəyə ilk dəfə taxıl məhsulları ixrac olunub

**"Naxçıvanda müəssisələrdə istehsal olunan unun keyfiyyətinin daha da yüksəldilməsi və alıcıların tələblərinə uyğunlaşdırılması məqsədilə Türkiyədən dəvət olunmuş mütəxəssislər tərəfindən istehsal bölmələrində yenilənmə işləri aparılır. Növbəti aydan başlayaraq daha yüksəkkeyfiyyətli un növlərinin satışı həyata keçiriləcək".**

Bunu AZƏRTAC-a açıqlamasında "Naxçıvan Taxıl Məhsulları" MMC-nin icraçı direktoru Canməmməd Canməmmədov söyləyib. Onun sözlərinə görə, yeniləmə işləri bitdikdən sonra həmin bölmələrdə mannı istehsalı da həyata keçiriləк. "Cari ilin əvvəlindən etibarən MMC tərəfindən istehsal olunan məhsulların bir qisminin Türkiyəyə ixracına başlanılıb. 432 ton buğda kəpəyi, 25 ton ilkin sınaq məqsədilə buzov böyütmə yemi və ətlik iribuynuzlu yeminin ixracı baş tutub. Növbəti dövrdə isə un növlərinin, südlük iribuynuzlu yeminin ixracı üçün danışıqlar aparılır", - deyə icraçı direktor vurğulayıb.



Canməmməd Canməmmədov qeyd edib ki, ötən il "Naxçıvan Taxıl Məhsulları" MMC tərəfindən muxtar respublikada kənd təsərrüfatının inkişafına dəstək məqsədilə yerli təsərrüfatçılar tərəfindən tədarük olunmuş 5844 ton yerli buğda, 1735 ton qarğıdalı, 62 ton arpa qəbul edilib: "Qəbul edilən yerli buğdanın miqdarının artıq olması təsərrüfatçıların gələcəkdə bu sahədə daha əzmlə çalışmasına stimul verir. Həmçinin yerli məhsulun bol olması və vətəndaşların əsas qida növü olan una əlçatanlığı nəzərə alınaraq cəmiyyət tərəfindən satışa çıxarılan 50 kiloqramlıq un kisəsinin (buğda) qiyməti 37 manatdan 27 manata endirilib. İstehsal olunmuş məhsulların satış mərkəzlərinə daha operativ çatdırılması və müəssisənin fəaliyyətinin daha da inkişaf etdirilməsi məqsədilə son bir ay ərzində müəssisəyə 4 ədəd yükdaşıma avtomobilləri alınıb. Aprel ayının 23-dən başlayaraq "Naxçıvan Taxıl Məhsulları" MMC-də istehsal olunmuş müxtəlif çəkilərdə paket unlarının ilk dəfə Bakı şəhərində satışının təmin olunması üçün müəyyən şirkətlərlə müqavilələr bağlanılıb və satış üçün Bakıya yola salınıb".

## Daha iki rayonda ictimai dinləmələr keçirilir

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Dünya Bankının maliyyə dəstəyi ilə icra olunan "Məşğulluğa Dəstək Layihəsi" barəsində məlumatlılığı artırmaq məqsədilə bu gün Ağdaş və Göyçay rayonlarında ictimai dinləmələr keçirilir.**

Tədbirlərdə layihənin hədəf və məqsədləri, əhatə dairəsi, icrası zamanı ətraf mühit və sosial məsələlərə dair tələblər, proqramın gözlənilən faydaları, eləcə də müraciət və iştirak qaydalarına dair iştirakçılara ətraflı məlumat veriləcək.

● Reportaj

## Çiyid səpini sürətlənir

### "MKT-İK" MMC-nin Neftçala filialı üzrə hər gün 250-300 hektarda əkin aparılır



**Bu günlər kəndlinin üzü gülür. Hər kəs hava sarıdan ilin uğurlu gəlişindən razılıq edir. Yanvar ayında yağan qar, fevral-mart aylarındakı yağışlar torpağın iliyinə işləyib. Qar altında qalan taxıl, yonca sahələri "qış yorğanı"nın altında küləkdən, şaxtadan özlərini qoruyublar.**

Bu yağıntılar eyni zamanda həm çöldə-düzdə mal-qara üçün bol yem ehtiyatı yaranacağına zəmin, həm də yazda torpağın sinəsinə səpiləcək çiyid və digər toxumlar üçün məlhəm olub. Qarın, yağışın, şaxtanın təsirindən şum yumşalıb, əkinçi dili ilə desək, torpaq quzulayıb. Fermerlər həmin yerləri təzədən şumlayıb yaz aratına qoyublar. Bu il əkin suyunda hələlik bir problem olmadığından hər kəs yaz aratını vaxtında və keyfiyyətlə aparıb. Havaların istiləşməsi suvarılan sahələrin arata düşməsini əvvəlki illərlə müqayisədə xeyli sürətləndirib. Aprel ayının birinci ongünlüyündən səpinə başlanılıb. İndi hamı aratı ötürməmək, səpini vaxtında və keyfiyyətli aparmaq üçün gün çıxandan gün batanadək tarladadır.

Bu günlər "MKT-İK" MMC-nin Neftçala filialında olub çiyid səpininin gedişi ilə maraqlandıq. Məlumat üçün bildirək ki, cari il filial üzrə 4 min 866 hektarda pambıq yetişdirilməsi nəzərdə tutulub. Bunun üçün hələ yanvar ayında 931 nəfər torpaq mülkiyyətçisi və fermerlə müqavilə bağlanıb. İndiyədək 3 min hektarda səpin aparılıb. Hər gün 250 hektarda səpin həyata keçirilməklə may ayının 5-nə kimi əkin başa çatdırılacaq. Bundan ötrü səpin kampaniyasına 11 "Conder" və "Holland" markalı ağır traktor, 40 "MTZ-80" traktoru, 40 "Cansa" səpin aqreqatı, 16 mala və digər texnika cəlb edilib. Fermerlər əsasən "May-505", "Ceyhan", "Lazer" pambıq sortlarına üstünlük verirlər.

Filialın aqronomu Vüqar Həsənovla birlikdə əvvəlcə Kür çayının Şirvan tayında yerləşən Tatarməhlə kəndinə yollanırıq. Yanından keçib getdiyimiz yaşayış məntəqələri, taxıl sahələri, yoncalıqlar bir-bir arxada qalır. Yol yoldaşım bu yerlər haqqında məlumat verərək yola bir növ körpü salır. "Tatarməhlə" toponimi haqqında söz açır, mühüm tarixi faktlardan danışır: "Bu kənddə 1918-ci il erməni soyqırımına qədər həyat qaynamışdır: burada azərbaycanlılarla bərabər, tatar və ruslar da yaşamışlar. 20 minə qədər əhalisi varmış ovaxtlar Tatarməhlənin. Yerli əhali ilə birlikdə yerli olmayanlar da Kür sahilindəki balıq vətəgəsində işləyirmişlər. Sonralar vətəgə Bankə qəsəbəsinə köçürülüb. İndi isə çayda balıq, demək olar ki, tükənib. Əhali əkinçilik və heyvandarlıqla məşğuldur". Müsahibim tatar və rusların qəbiristanlığının bu günə kimi qaldığını da deyir.

Köhnə Ələt-Astara magistralından ayrılıb Salyanın Babazanan yaşayış məntəqəsi ərazisindən keçib gedən və Neftçala rayonunun Bankə qəsəbəsinədək çəkilən yeni asfalt yolla irəliləyirik. V.Həsənov yolboyu yerləşən kəndlərin çoxuna təbii qaz, içməli su çəkildiyini, kəndlərdə məktəb, tibb məntəqəsi, iaşə obyektləri, poçt məntəqəsi və s. olduğunu deyir. Burula-burula baş alıb gedən şose ilə təxminən 10 kilometr gedib sol tərəfə dönürük. Şor kollektor-drenaj xəttinin üstü ilə yolumuza davam edirik. Uzaqda işləyən texnikalar diqqəti cəlb edir. Çox çəkmir, onların yanına çatırıq. Sahənin bir tərəfində "Conder" mala çəkir, o biri tərəfində isə başqa bir texnika ilə səpin aparılır. Sahənin baş tərəfində içərisi çiyid və ammafos gübrəsi ilə dolu olan lafetdə bir neçə adam dayanıb. "İşiniz abad, məhsulunuz bol olsun!" deyirik. Sonra Vüqar Həsənov bizi tanış edir: "Gördüyünüz sahə bu cavan oğlanın, mənim adaşım Vüqar İmanovundur. Məsuliyyətli, işgüzar fermerlərimizdəndir. Hər il "MKT-İK" MMC Neftçala filialı ilə müqavilə bağlayır. Keçən il havaların pambıqçılıq üçün o qədər də əlverişli olmadığına baxmayaraq, hər hektardan 35 sentner məhsul yığdı".

Söhbətə sahə rəisi Rüfət Məmmədov qoşulur: "Vüqar həqiqətən yaxşı pambıqçıdır. Yaz aratını vaxtında və keyfiyyətlə aparıb. Sahənin hər tərəfi bərabər səviyyədə sulandığı üçün eyni vaxtda da arata düşüb. Bu isə pambıqçılıq üçün mühüm şərtlərdəndir. Belə olanda səpini də eyni vaxtda apara bilirsən. Bu isə bitkilərin sahənin hər tərəfində eyni səviyyədə boy atmasına, becərmə işlərinin eyni vaxtda aparılmasına, məhsulun eyni vaxtda yetişməsinə və eyni vaxtda yığılmasına şərait yaradır. Eyni sahənin bir hissəsinin bu gün, bir hissəsinin 2-3 gün sonra əkilməsi yaxşı nəticə vermir. Bu həm əlavə xərcə, həm əlavə vaxt itkisinə yol açır, həm də məhsuldarlığa mənfi təsir edir. Vüqar bunları yaxşı bildiyindən öhdəsində olan sahələrin hamısında "Lazer" adlanan texnika ilə hamarlama işi gördürmüşdür".

Sakitcə dayanıb söhbətə qulaq asan fermerin özündən işlərin gedişi barədə danışmağı xahiş edirik. Sifəti, əlləri, qolları yağışın, qarın, küləyin, istinin, soyuğun təsiri altında tunc rəngini almış Vüqar sakit səslə dillənir: "Vallah, nə deyim, yoldaşlar demək olar hamısını dedilər. Onu əlavə edə bilərəm ki, 26 hektar sahədə pambıq yetişdirməyi qərara almışam. Hamı kimi mən də istəyirəm ki, daha çox məhsul əldə edim, qazancım yaxşı olsun, ailəm, balalarım korluq görməsin. Yüksək məhsul götürmək üçün aqronom Vüqar Həsənov, sahə rəisi Rüfət Məmmədov mənə lazım olan bütün məsləhətləri verirlər. Səpin zamanı sahəyə çiyidlə birlikdə ammofos gübrəsi veririk. Əkdiyim çiyid lifsiz "Lazer" sortudur. Becərmə zamanı da çalışıram aqronomun, sahə rəisinin hər bir göstərişinə əməl edim". Sonra o, anidən fikrə gedib, yenidən sözünün axırını gətirir: "Bir məsələni də qeyd etməyi özümə borc bilirəm. Müqavilə bağladığım təşkilatın mütəxəssislərinin, xüsusən onun rəhbəri Bahəddin Leysanovun biz fermerlərə olan diqqət və qayğısını sizə çatdırmaq istəyirəm. Texnika, toxum, gübrə sarıdan heç bir çətinliyimiz olmur. Digər probemlərimizin həllində də Bahəddin müəllim əlindən gələni əsirgəmir. Belə dəstəyin, qayğının qarşısında biz də borcumuzu verməliyik".

Arxasında "Cansa" səpin aqreqatı olan "MTZ-80" markalı traktor lafetə yan alır. Fermer V.İmanov, sahə rəisi və traktorçu - üçü birlikdə çiyid dolu kisələri və ammofos gübrəsini səpin aqreqatına boşaldırlar. Sahə rəisi bu vaxt: "Sağ ol, ay Rəşad, Allah səni bizə çox görməsin" deyə traktorçuya minnətdarlıq edir. Yüklənmiş aqreqat traktorun yedəyində yenidən səpinə başlayır.

Geri qayıdarkən aqronom Vüqar Həsənovla Yuxarı Qaramanlı kəndi ərazisindəki pay torpağında çiyid səpini aparan fermer Hüseynalı Süleymanovun sahəsinə də baş çəkirik. H.Süleymanov təcrübəli fermerdir. Üstəlik orta ixtisas təhsilli aqronomdur, nəzəriyyəni bilir. Ona görədir ki, hər il əkib-becərdiyi sahədən yüksək məhsul əldə edir. O, bu il 6 hektarda pambıq yetişdirməyi qərara alıb. Çiyid səpinini aqrotexniki qaydalara uyğun optimal müddətdə başa çatdırıb.

Bax belə, "MKT-İK" MMC Neftçala filialında indi qızğın iş gedir. MMC-nin mütəxəssisləri fermerlərlə əl-ələ verib gələcək məhsulun müqəddəratını həll edən səpin kampaniyasını vaxtında və keyfiyyətlə başa çatdırmaq üçün yorulmaq bilmədən çalışırlar.

*Seyran CAVADOV,*
*"Azərbaycan"*

## Qubalılar yol sarıdan rahatlığa çıxırlar

**Rahat, müasir yolun sosial-iqtisadi həyatın bütün sahələrinin inkişafı üçün vacib şərt olduğu gün kimi aydındır. Qeyri-neft sektorunun əsas qollarından biri olan turizmin inkişafı üçün də rahat yolun əhəmiyyəti az deyil. Regionlarda yol infrastrukturunun diqqət mərkəzində olmasının bir səbəbi də bundan qaynaqlanır.**



Azərbaycanın qonaq-qara sarıdan korluq çəkməyən Quba rayonunda da son illər yol təmiri və tikintisi geniş vüsət alıb. Sovet dönəmində Qubanın ucqar dağlıq ərazilərində yollar uzun illər diqqətdən kənarda qalmışdı. Prezident İlham Əliyevin göstərişinə əsasən, Quba-Xınalıq yolunun tam təmir edilərək istifadəyə verilməsi ilə rayonda yolların çəkilişinə start verildi. Hətta yolsuzluq üzündən boşalan bəzi kəndlərə çəkilən yollar oraya yenidən həyat gətirdi və bu gün həmin ərazilər ölkədə sevilən turizm marşrutlarındandır.

Hazırda bu istiqamətdə işlər davam edir. Ötən ilin sonlarında 10 kəndi birləşdirən 23 kilometrlik Hacıhüseynli-Gənclər qəsəbəsi avtomobil yolu təmir edilib. Eyni zamanda bu yola birləşən digər ara yollar da təmir edilərək istifadəyə verilib. Uzun illər yararsız vəziyyətdə olan Quba-Xaçmaz avtomobil yolu isə yenidən qurulub, yolun üstündə yerləşən kənd və qəsəbələrə ayrılan yollara nişan və göstəricilər quraşdırılıb.

Hazırda Amsar-İspik-Gültəpə-Möhüc-Tülər-Tüləkəran-Suxtakərə avtomobil yolunda təmir işləri aparılır. Uzun müddət təmir üzü görməyən yolun 6 kilometrlik hissəsində köhnə asfalt qatı frezlənib. Yağışlar nəticəsində yolun bəzi yerlərində yarğanlar əmələ gəlmiş, çalalar yaranmışdı. Kəndə gələn avtomobillər bu səbəbdən dəfələrlə yolda qalmışdı. Hazırda həmin bərbad yoldan əsər-əlamət qalmayıb. Yaşıllıqlara qərq olmuş bu kəndlərin camaatı əməllibaşlı rahatlığa çıxıb.

Amma həmin istiqamətdə işlər davam edir. Yağış sularının ötürülməsi üçün 13 kilometr uzunluğunda xüsusi kanal qazılır. Bu, suların yola axmadan daşınması deməkdir. Tülər kəndində isə Ağ çay üzərində uzunluğu 18, eni 9 metr olan biraşırımlı körpünün tikintisində tamamlama işləri aparılır. Yolboyu müxtəlif diametrlərdə 24 suötürücü borunun montaj işləri də yekunlaşmaq üzrədir.

Maraqlıdır ki, kənd sakinləri ilə çəkilməkdə olan yolda çalışan inşaatçılar arasında mehriban münasibət, dostluq yaranıb. Gültəpə kənd sakinləri Akif Bəşirov, Qəhrəman Adilov, Fəxrəddin Süleymanov, Rahim Teyubov və digərləri inşaatçılara evdə hazırlatdıqları isti yeməklər gətirir, onlarla birlikdə nahar edirlər. Kənd sakinləri tərəfindən inşaatçılara mürəbbəli samovar çayı verənlər də az deyil.

7 kəndi birləşdirən bu yolun uzunluğu 30 kilometrə yaxındır. 20 minə yaxın əhalinin yaşadığı bu kəndlərin hər birindən daha digər 4 kəndə gediş var. Bununla Qubanın qərbinə adları sadalanan kəndlərdən keçən yol açılır. Yaxın gələcəkdə bu ərazilərə turist axınının şahidi olacağımız şübhəsizdir.

*Akif ƏLİYEV,*
*"Azərbaycan"*

## Bayraq aşiqi

**Ölkəmizdə idmanın inkişafına və kütləviləşməsinə dövlət səviyyəsində böyük dəstək verilir və xüsusi diqqət göstərilir. Sahənin maddi-texniki bazası ildən-ilə gücləndirilir, paytaxtda və bölgələrdə müasir tələblərə cavab verən olimpiya idman kompleksləri, stadionlar inşa edilir. Məqsəd gənc və yeniyetmələrin sağlam və gümrah böyüməsini, öz asudə vaxtlarını səmərəli keçirmələrini təmin etməkdir.**

Bərdə rayonunda da gənc idmançılar üçün şərait diqqətəlayiqdir. Bundan güc alan bərdəli idmançılar böyük uğurlara imza atırlar.

Rayonun Samux kəndində dünyaya göz açan Nihad Ağakişizadə taleyini idmana bağlayıb. Hələ uşaq yaşlarından tez-tez tay-tuşları ilə güləşər, dostlarının kürəyini asanlıqla yerə qoyardı. Hələ kənd tam orta məktəbində oxuduğu illərdə sərbəst güləş üzrə müxtəlif yarışlarda iştirak edib, yüksək yerləri tutub, çoxsaylı meydanlar, diplomlar, fəxri fərmanlar alıb.

İndi Nihat Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının tələbəsidir. Akademiyada da bacarığı, səmimiyyəti ilə seçilir. Hazırda Bolqarıstanda keçirilən beynəlxalq güləş yarışında iştirak



edir. Qalib olmaq üçün ciddi hazırlıq mərhələsi keçib. Arzusu ona zəhmət çəkən müəllim və məşqçilərin etimadını doğrultmaq, dövlət bayrağımızın qaldırılmasına, himnimizin səsləndirilməsinə nail olmaqdır.

Nihad qatıldığı hər yarışa, getdiyi hər ölkəyə canından artıq sevdiyi üçrəngli, ay-ulduzlu bayrağımızı özü ilə götürür, ondan güc-qüvvət alır, onunla qürur duyur. Deyir ki, bayrağımızın aşiqidir. Çünki o həm də bizim Zəfər rəmzimizdir.

*Lazım QULİYEV,*
*"Azərbaycan"*

## Yaylaqlara köç edəcək fermerlər üçün təlimlər başa çatıb

### ANAMA mütəxəssisləri 4500-dən artıq fermerə azad olunmuş ərazilərdəki dislokasiya nöqtələrində davranış qaydaları barədə təlim keçiblər

**Kənd Təsərrüfatı Nazirliyinin Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) ilə birlikdə işğaldan azad edilmiş ərazilərdə yerləşən yaylaqlara köç edəcək təsərrüfatların rəhbərləri üçün mina təhlükəsizliyinə dair keçirdiyi təlimlər başa çatıb.**

Təlimlər Füzuli və Yevlax rayonlarında, Sumqayıt və Gəncə şəhərlərində keçirilib. On bir gün ərzində keçirilmiş 19 təlimə yaylaq mövsümünü Kəlbəcər və Laçın yay otlaqlarında keçirməyi planlaşdıran 4500-dən artıq fermer qatılıb.

Mina təhlükəsizliyi ilə bağlı son təlimlər Azərbaycan Dövlət Aqrar Universitetinin akt zalında keçirilib. ANAMA mütəxəssisləri tərəfindən keçirilən təlimlərdə azad olunmuş ərazilərdəki dislokasiya nöqtələrində davranış qaydaları, partlamamış sursat və minaların müəyyən olunması, mina və partlayıcı qurğuların təhlükəsi, törədə biləcəyi xəsarətlər, tanış olmayan şübhəli ərazilərdə davranış qaydaları barədə geniş məlumat verilib. Təlim iştirakçılarına vizual tanımaq üçün müxtəlif növ hərbi sursat və minaları əhatə edən təlim sursatlarının nümunələri göstərilib, azad olunmuş ərazilərdə əsas davranış qaydalarına dair təlimat kitabçası, buklet, broşür və plakatlar təqdim olunub.

Təlimi başa vuran fermerlər azad olunmuş ərazilərdə, təsərrüfatları aparacaqları dislokasiya nöqtələrində davranış qaydalarına dair təlimatlarla tanış olduqları barədə iltizamnamə imzalayıblar. Təlimlərdə iştirak etmiş, müvafiq iltizamnaməni imzalamış fermerlər yaylaqlara köç prosesində iştirak edə biləcəklər.

Qeyd edək ki, mina təhlükəsizliyi təlimlərinə hər hansı səbəbdən qatıla bilməmiş və ya təlimlərdə iştirakla bağlı yeni qeydiyyatdan keçmiş fermerlər üçün may ayında növbəti təlimlərin keçirilməsi planlaşdırılır. Təlimin dəqiq tarixi, yeri və saatı ilə bağlı yeni qeydiyyatdan keçmiş fermerlərə SMS-bildiriş göndəriləcək.



Kənd Təsərrüfatı Nazirliyi fermerlərdən SMS-bildirişdə göstərilən tarix və saatda qeyd olunan ünvana gələrək mina təhlükəsizliyi ilə bağlı təlimlərdə iştirak etməyi xahiş edir.





# Mədəniyyət





● Şəxsiyyətlər və ömürlər

## Azərbaycan ədəbiyyatına böyük töhfələr verən alim

**Azərbaycan elminin, ədəbiyyatının və təhsilinin inkişafında misilsiz xidmətlər göstərmiş görkəmli alim, yazıçı və pedaqoq Mir Cəlal Paşayevin anadan olmasından 116 il ötür. XX əsrin 20-30-cu illərində ədəbi aləmdə əvvəlcə şeir, sonra isə oçerk və hekayələri ilə oxucuların diqqətini cəlb edən Mir Cəlal az sonra özünəməxsus yaradıcılıq üslubu olan yazıçı kimi tanınmışdır. Əlli illik yaradıcılıq fəaliyyəti dövründə o, görkəmli nasir olaraq Azərbaycan ədəbiyyatı tarixində layiqli və şərəfli yer tutmuşdur.**



Mir Cəlal Əli oğlu Paşayev 1908-ci il aprelin 26-da Cənubi Azərbaycanın Ərdəbil vilayətində anadan olmuşdur. Kiçik yaşlarında atası Gəncəyə köçdüyünə görə onun uşaqlığı bu şəhərdə keçmişdir. 1918-ci ildə Mir Cəlal 10 yaşında ikən atası vəfat etmişdir. Buna görə də o, böyük qardaşının himayəsində yaşamağa başlamışdır.

Ömür yolu əzablarla başlasa da, həm uca Yaradanın mərhəməti, həm də özünün istedadı və çalışqanlığı sayəsində Mir Cəlal Paşayev çox çətinliklərə sinə gərərək irəliyə doğru inamla addımlamışdır. O, 1918-1919-cu illərdə Xeyriyyə Cəmiyyətinin köməyi ilə ibtidai təhsil almış və Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra Gəncə Darülmüəllimliyinə qəbul olunmuşdur. Bundan sonra sanki onun həyatına günəş doğmuşdur. Fəaliyyətində dönüş yaranmışdır. Əvvəlcə tələbə təşkilatının, sonra isə şəhər tələbə həmkarlar təşkilatının sədri seçilmişdir.

Mir Cəlal Paşayev Kazan Şərq Pedaqoji İnstitutunun ədəbiyyat şöbəsində, Azərbaycan SSR Elmlər Akademiyasının aspiranturasında təhsilini davam etdirməklə yanaşı, müəllimlik etmiş və millətinin övladlarına xalqının ədəbiyyatını, mədəniyyətini, zəngin keçmişini tədris etmişdir. Mir Cəlal Paşayevin XX əsr Azərbaycan elminin, ədəbiyyatının, təhsilinin inkişafında misilsiz xidmətləri olmuşdur.

Artıq 1928-ci ildən yazıçı kimi uğurlu addımlar atan ədib elə həmin ildə də ilk tədqiqat əsərini yekunlaşdırmışdır. Mir Cəlalın "Bir gəncin manifesti" əsəri, zəmanənin aynası olan bir-birindən maraqlı hekayələri klassik bədii nümunələr kimi ədəbiyyat tariximizin səhifələrində müəllifinə böyük şöhrət qazandırmışdır. Əldə etdiyi ilk uğurlardan ruhlanan Mir Cəlal bir-birinin ardınca "Füzuli sənətkarlığı", "XX əsr Azərbaycan ədəbiyyatı", "Azərbaycanda ədəbi məktəblər (1905-1917)", "Ədəbiyyatşünaslığın əsasları" adlı fundamental əsərlər yazmışdır. Böyük sənətkarın qələmindən çıxmış həmin əsərlər bu gün də ədəbiyyatşünaslıq elminin qiymətli mənbələrindən sayılır.

Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) sevilən müəllimi, nüfuzlu professoru kimi xatirələrdə daim yaşayan Mir Cəlal Paşayev həqiqət, düzlük, səmimiyyət aşiqi, ailəsini, övladlarını sevən, qoruyan şəxsiyyət olmuşdur. Onun "Həyatımda yaratdığım ən böyük əsər ailəmdir" dəyərli kəlamı indi də dillərdən düşmür.

Əminliklə deyə bilərik ki, təkcə "Bir gəncin manifesti" əsərinə görə Mir Cəlal klassik sənətkarlar sırasında olmaq haqqını qazanmışdır. Oxucuların böyük sevgisi ilə qaşılanan bu əsər çapdan çıxanda onun heç 30 yaşı da yox idi. İlk şeirləri mətbuatda 1928-ci ildə ("Dənizin cinayəti", "Ananın vəsiyyəti", "Müxbir") çap olunmuşdur. Mir Cəlal Paşayev 1930-cu ildən etibarən hekayələr yazmağa başlamışdır. O dövrün "Şərq qadını", "Gənc işçi", "İnqilab və mədəniyyət", "Ədəbiyyat qəzeti" kimi nüfuzlu nəşrlərində "Doktor Cinayətov", "İfşa", "Mərkəz adamı", "Naxələf", "Bostan oğrusu", "Qüdrət nümayişi", "İstifadə", "Dəzgah qızı", "Heyrət" və digər hekayələrini çap etdirmişdir. 1932-ci ildə "Sağlam yollarda", 1935-ci ildə "Boy" adlı ilk oçerk və novellalar kitabları işıq üzü görmüşdür.

Mir Cəlalın ilk irihəcmli əsəri - "Dirilən adam" romanı 1935-ci ildə ayrıca kitab kimi nəşr olunmuşdur. Yazıçının "Dirilən adam", "Bir gəncin manifesti", "Yolumuz hayanadır" romanlarında keçmiş, "Açıq kitab", "Yaşıdlarım", "Təzə şəhər" romanlarında isə müasir həyat lövhələrinin bədii təsviri ustalıqla qələmə alınmışdır. Yazıçının "İnsanlıq fəlsəfəsi" (1961) kitabında toplanmış hekayələri də böyük tərbiyəvi-əxlaqi əhəmiyyətinə görə maraq doğurur.

XX əsrin ədəbi-elmi fikrinin korifeylərindən sayılan Mir Cəlal Paşayev çağdaş Azərbaycan tarixində ədəbiyyatşünas-nəzəriyyəçi alim kimi də müstəsna və özünəməxsus yer tutub. Filologiya təhsili alan tələbələrin birinci kursda istifadə etdikləri "Ədəbiyyatşünaslığın əsasları" dərsliyi sonralar da mütəxəssislərin masaüstü kitabı olub. Mir Cəlal Paşayev 1936-cı ildən ömrünün sonunadək dərs dediyi universitetin auditoriyalarında bu fəndən mühazirələr oxumuşdur.

Mir Cəlal Paşayev 1940-cı ildə "Füzulinin poetik xüsusiyyətləri" əsərinə görə filologiya elmləri namizədi, 1947-ci ildə isə "Azərbaycanda ədəbi məktəblər" əsərinə görə filologiya elmləri doktoru alimlik dərəcələrini alıb.

"UNESCO-nun 2008-2009-cu illərdə görkəmli şəxsiyyətlərin və əlamətdar hadisələrin qeyd edilməsi proqramına Azərbaycanla bağlı daxil olmuş yubileylərin keçirilməsi haqqında" Azərbaycan Prezidentinin 2008-ci il 31 yanvar tarixli sərəncamına əsasən, yazıçı Mir Cəlal Paşayevin yubiley mərasimi təntənə ilə qeyd edilmişdir. Parisdə, UNESCO-nun iqamətgahında XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, alim, pedaqoq Mir Cəlal Paşayevin 100 illiyinə həsr olunmuş mərasim keçirilmişdir. Bu həm də Azərbaycan elminə, mədəniyyətinə və ədəbiyyatına dünya miqyasında verilən dəyərin, göstərilən xoş münasibətin təzahürüdür.

Görkəmli yazıçı, alim-pedaqoq Mir Cəlal Paşayevin doğum və xatirə günlərində yaxınları onun 1920-1940-cı illərdə İçərişəhərdə yaşadığı məkana - "Ədibin evi"nə yığışırlar. Onlar həqiqət, düzlük, səmimiyyət aşiqi olan bu böyük şəxsiyyətdən ürək genişliyi ilə söz açırlar.

1978-ci il sentyabrın 28-də əbədiyyətə qovuşmuş, böyük şəxsiyyət kimi tarixləşmiş gözəl müəllim, görkəmli yazıçı, istedadlı ədəbiyyatşünas Mir Cəlal Paşayevin xatirəsi daim qəlblərdə yaşayacaq, ədəbiyyatımızın əbədi mövzusu olaraq qalacaq. Böyük alimin qələmə aldığı əsərlər hələ bundan sonra da insanların ömür yollarını işıqlandıracaq.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

● Sənət dünyası

## Uğur qazanmağın sirrini istedadla zəhmətin vəhdətində görən aktyor

**O, səksən yeddi illik ömrünün altmış ildən çoxunu səhnəyə həsr etdi. Bu illər ərzində 200-dən çox obraza səhnə ömrü verdi...**



Ağahüseyn Cavadov 1894-cü il aprelin 22-də Bakının Xırdalan kəndində (indiki Xırdalan şəhəri) dünyaya gəlib. Anası Hürmət xanımın ən böyük arzusu onu savadlı insan kimi görmək idi. O, oğlunu təhsil alması üçün əvvəlcə mollaxanaya aparıb. Sonra Ağahüseyn Cavadov Bakıda, "Səadət" məktəbində oxuyub. Həmin məktəbi 1919-cu ildə bitirib. Maddi vəziyyəti ucbatından təhsilini davam etdirməyib. Ailəsini dolandırmaq üçün tacir yanında işləməyə başlayıb.

Ağahüseyn Cavadov vaxt, imkan tapan kimi ona əsrarəngiz bir aləm kimi görünən teatra gedir, böyük maraqla tamaşalara baxırdı. Aktyorlar Sidqi Ruhulla, Mirzəağa Əliyev, Cahangir Zeynalov və Hacıağa Abbasovun səhnədə oynadıqları rollar onu heyran edirdi. Səhnəyə çıxmaq, həmin görkəmli sənətkarlarla tərəfmüqabili olmaq o vaxtlar Ağahüseyn Cavadov üçün arzudan daha çox xəyal idi. Amma xəyalının həqiqətə çevrildiyi günlər gəldi...

Ağahüseyn Cavadov 1920-ci ildə Azərbaycan Hərbi Komissarlığının Siyasi İdarəsinin yaratdığı teatrın Azərbaycan bölməsində aktyor kimi fəaliyyətə başladı. Bölməyə Sidqi Ruhulla rəhbərlik edirdi. Həmin teatrda "Bəxtsiz cavan", "Ac həriflər", "Xor-xor", "Dursunəli və ballıbadı", "Molla Cəbi", "Daşım-daşım" tamaşalarında səhnəyə çıxdı. Ağahüseyn Cavadov oynadığı ilk komik rollarla tamaşaçıların alqışlarını qazandı.

O, 1921-ci ildə yeni yaradılmış Bakı Türk Azad Tənqid-Təbliğ Teatrına dəvət olundu. Həmin teatrda hazırlanan tamaşalarda ifa etdiyi rollar Ağahüseyn Cavadova daha böyük uğurlar gətirdi. Bakı Türk Azad Tənqid-Təbliğ Teatrının adı sonralar dəfələrlə dəyişdirildi. Ağahüseyn Cavadov həmin teatrın truppasında fəaliyyətini yeni, yaddaqalan rolları ilə davam etdirdi.

1938-ci ildə Azərbaycan Dövlət Musiqili Komediya Teatrı təşkil olundu. Ağahüseyn Cavadov bu teatra dəvət edildi. Musiqili Komediya Teatrında ilk rolu "O olmasın, bu olsun" tamaşasında Məşədi İbad oldu. Sonralar həmin teatrın səhnəsində "Beş manatlıq gəlin"də Kəblə Hüseynəli, "Toy kimindir?"də Uzun, "Lənkəran xanın vəziri"ndə Xan, "Arşın mal alan"da Soltan bəy, "Evliykən subay"da Kəblə Qubad, "Qızıl gül"də Nadir və digər bir-birindən fərqli, maraqlı həm epizodik, həm də əsas rolları oynadı.

Ağahüseyn Cavadov 1942-ci ildən Məşədi Əzizbəyov adına Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının truppasına qoşuldu. Ömrünün sonunadək həmin teatrda çalışdı. Aktyor Milli Dram Teatrının səhnəsində "Məhəbbət"də Məmişov, "Toy"da Dəmirçi Musa, "Xoşbəxtlər"də Bərbərzadə, "Nişanlı qız"da Mirzə Salman, "Almaz"da Ocaqqulu, "Dönüş"də Xasməmməd, "Solğun çiçəklər"də Həmzə, "1905-ci ildə"də İmamverdi, "Həyat"da Cəlal, "Yaxşı adam"da Soraq kişi, "Cavanşir"də Qənimət, "Mənim günahım"da Almurad və başqa rollarla tamaşaçıların qarşısına çıxdı.

Aktyorluq bacarığını kino sahəsində nümayiş etdirmək imkanı da oldu. O, 1955-ci ildə ilk dəfə "Bəxtiyar" filmində Rza roluna çəkildi. Həmin il ekranlaşdırılan daha bir filmdə - "Görüş"də isə Əbülfəz rolunu canlandırdı. Sonralar "O olmasın, bu olsun"da Bəy, "Qızmar günəş altında"da Pirioğlu, "Əhməd haradadır?"da Əhməd, "Kölgələr sürünür"də Elmi işçi, "Bir qalanın sirri"ndə Rəmmal, "Sehrli xalat"da Vəzir, "Şərikli çörək"də Xırdavatçı, "İstintaq davam edir"də Həsən dayı, "Mən ki, gözəl deyildim"də Zeynalov, "Bizim Cəbiş müəllim"də neft satan, "Bakıda küləklər əsir"də Sərnişin, "Qərib cinlər diyarında"da Qaraşad rollarına çəkildi.

O, aktyor kimi uğur qazanmağın sirrini istedadla zəhmətin vəhdətində görürdü. Ona görə deyirdi: "İstedad anadangəlmə olur. Elə ilk dəfə səhnəyə çıxanda başa düşdüm ki, teatra həvəs göstərmək, istedad kifayət etmir. Sənətdə qalmaq üçün özünə qarşı yüksək tələbkarlıq və işdə inad göstərmək də vacibdir".

Ağahüseyn Cavadovun əməyi yüksək dəyərləndirildi, 1931-ci ildə Əməkdar artist, 1938-ci ildə isə Xalq artisti fəxri adlarına layiq görüldü.

O, 1981-ci il iyulun 20-də dünyasını dəyişdi. Vəfatından uzun illər keçsə də, bu günlərin tamaşaçıları Ağahüseyn Cavadovu filmlərimizin bənzərsiz komik qəhrəmanı kimi tanıyır və sevirlər.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

## "Gizli və aşkar" adlı fərdi sərgi açılıb

**Azərbaycan Milli İncəsənət Muzeyində Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Əməkdar rəssam Məmməd Mustafayevin "Gizli və aşkar" adlı fərdi sərgisi açılıb.**



Tədbirdə muzeyin direktoru Şirin Məlikova çıxış edərək sərgidə rəssamın həm 60-70-ci illərin eskizlərinin, həm də həyatının son onilliyində ərsəyə gətirdiyi əsərlərinin ilk dəfə nümayiş edildiyini deyib. Sərgidə rəssamın 30-dan çox əsərinin nümayiş olunduğu vurğulanıb. Tədbirdə Xalq rəssamları Səlhab Məmmədov, Hüseyn Haqverdiyev, Bakı İncəsənət Məktəbinin rəhbəri Rafael Gülməmmədli çıxış ediblər.

Sonda İmad Mustafayev çıxış edərək atasının yaradıcılığı haqqında fikirlərini ifadə edib, iştirakçılara və təşkilatçılara minnətdarlığını bildirib.

Sərgi oktyabrın 24-dək davam edəcək.

## Musiqili Teatrda özbək yazıçısının komediyası nümayiş olunacaq

**Aprelin 28-də Azərbaycan Dövlət Akademik Musiqili Teatrında məşhur özbək yazıçısı İbrahim Sadıqovun "Molla Nəsrəddinin beş arvadı" ikihissəli komediyası teatrsevərlərin ixtiyarına veriləcək.**



Teatrın Mətbuat xidmətindən bildirilib ki, tamaşada türk dünyasının kamillik, müdriklik simvolu olan Molla Nəsrəddin və onun beş arvadından bəhs edilir.

Səhnə əsərinin quruluşçu rejissoru Əməkdar incəsənət xadimi Əsgər Əsgərov, quruluşçu rəssamı Əməkdar rəssam Nabat Səmədovadır.

● Ədəbi irsimiz

## "Türk çələngi" pedaqoji fikir tariximizin aynasıdır

**Azərbaycan Milli Elmlər Akademiyasının Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Abdulla Şaiqin "Türk çələngi" kitabının yeni nəşrinin təqdimat mərasimi keçirilib.**



Kitab Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru Arzu Əhməd Hacıyeva tərəfindən transfoneliterasiya olunub.

Şair, nasir, dramaturq, tərcüməçi və ictimai xadim A.Şaiq həm də ömrünün qırx ilə yaxın bir dövrünü xalqının maariflənməsinə, mədəni inkişafına həsr etmiş böyük pedaqoq olub. Pedaqoji fəaliyyətinin ilk illərində ana dilində material qıtlığı ilə üzləşən A.Şaiq dərslik tərtib etmək üçün əsərlər yazıb, tərcümələr edib, folklor materialları toplayıb və ədəbiyyat tarixini araşdırıb. Ədib 11 adda 30-a qədər dərslik tərtib edib: "Gülzar", "Gülşəni-ədəbiyyat", "Türk ədəbiyyatı", "Qiraət kitabı", "Ədəbiyyat dərsləri" (H.Cavidlə birlikdə), "Ədəbiyyatdan iş kitabı" və sairə.

Abdulla Şaiq "Türk çələngi" kitabını vahid, mənəvi, bölünməz Turan ideyasının əsasının qoyulduğu, bu istiqamətdə bütün türksoylu xalqların ümumi mübarizəsinin alovlandığı bir dövrdə, Azərbaycan Xalq Cümhuriyyətinin hakimiyyəti illərində dərc etdirib. Bir əsrə yaxındır qarşısı alınan, hər cür müqavimətlə qarşılaşan bu ittifaqın - türk birliyinin aktual olduğu bir dönəmdə, müasir dövrümüzdə "Türk çələngi" kitabının latın qrafikalı Azərbaycan əlifbasında nəşr olunmasının həm oxucular, həm də mütəxəssislər üçün böyük əhəmiyyəti var. A.Şaiq şəxsiyyətinin hərtərəfli öyrənilməsi, yaradıcılığının ideya təmayüllərinin müəyyənləşdirilməsi baxımından da kitab çox gərəklidir.

Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun elmi işlər üzrə direktor müavini, filologiya üzrə fəlsəfə doktoru dosent Mehman Həsənli təqdimat mərasimində qeyd edib ki, Abdulla Şaiq Azərbaycanın müstəqillik ideyalarının formalaşmasına töhfə verənlərdən biri olub, maarifçilik tarixində çox böyük rol oynayıb. İlk dəfə Xalq Cümhuriyyəti dövründə nəşr olunan "Türk çələngi" dərsliyi müasir Azərbaycanın müstəqillik dövründə yenidən nəşr olundu. Kitabda toplanan nümunələr müstəqil Azərbaycan ideyaları, onun hədəfləri baxımından mühüm rol oynayır. Üçrəngli bayrağımızdakı rənglərin mənaları kitabda öz əksini tapıb.

Abdulla Şaiqin mənzil-muzeyinin direktoru Ülkər Talıbzadə qonaqları salamladıqdan sonra qeyd edib ki, Abdulla Şaiqin varisi, muzeyi yaradan Kamal Talıbzadə hər bir işə alim baxışı ilə elmi tərəfdən yanaşıb ki, biz də bu ənənələri uğurla davam etdiririk. "Türk çələngi" kitabının maarif sahəsindəki rolu əvəzsizdir.

Filologiya üzrə fəlsəfə doktoru Arzu Əhməd Hacıyeva çıxışında 1923-cü ildə Azərbaycana dəvət almış böyük türk alimi İsmayıl Hikmətin Abdulla Şaiqi mələyə bənzətdiyini vurğulayaraq, alimin ədibə həsr etdiyi şeiri səsləndirib. Qeyd edib ki, dəyişən siyasi, ictimai mühitdə dəyişməyən insan Abdulla Şaiq şəxsiyyəti olub. Görkəmli tənqidçi Yaşar Qarayev çox yerində demişdi: "Abdulla Şaiq şair ikən müəllim, müəllim ikən şairdir".

Kitabın redaktoru filologiya elmləri doktoru, professor İslam Qəribli çıxış edərək deyib ki, "Türk çələngi"ni səhifə-səhifə oxuyub. Kitabın dilində bir qədər çətinliyin olmağının səbəbi odur ki, Abdulla Şaiq kitabda əksini tapan materialları Anadolu və Krım türklərinin dilində olduğu kimi saxlayıb. Sanki müəllif qarşısına məqsəd qoyub ki, ortaq türk dili yaransın.

Filologiya üzrə fəlsəfə doktoru, dosent Aygün Bağırlı kitaba görə Arzu xanıma təşəkkür etdi. Bildirdi ki, bu cür əsərlərin yenidən nəşr olunması çox müsbət haldır: "Türk çələngi" oxucularına vətən torpağının müqəddəsliyini aşılayır. Dərslik pedaqoji fikir tariximizi öyrənmək baxımından da olduqca qiymətlidir.

Təqdimat mərasimində professor Asif Rüstəmli, professor Tahirə Məmmədova, filologiya elmləri doktoru, dosent Lütviyyə Əsgərzadə, filologiya elmləri doktoru, dosent Eşqanə Babayeva və başqaları çıxış ediblər.

Abdulla Şaiqin mənzil-muzeyinin direktoru Ülkər Talıbzadə sonda tədbirin keçirilməsində rolu olan hər kəsə dərin minnətdarlığını bildirib.

*V.MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

## "Gəncə və gəncəlilər" layihəsinin növbəti təqdimatı

**Fikrət Əmirov adına Gəncə Dövlət Filarmoniyasında "Gəncə və gəncəlilər" layihəsi çərçivəsində Xalq artisti Fikrət Verdiyevin əziz xatirəsinə həsr olunmuş konsert proqramı keçirilib.**



"Göygöl" Dövlət Mahnı və Rəqs Ansamblının müşayiəti ilə Xalq artistləri Niyaməddin Musayev, Samir Cəfərov, Əməkdar artistlər Ehtiram Hüseynov, Sevinc Sarıyeva, Əməkdar mədəniyyət işçisi Mehparə Cəfərova, Bakıdan dəvət olunmuş gənc ifaçılar Səbinə Ərəbli, Kamilə Nəbiyeva, Mirələm Mirələmov, Anar Quliyev, Humay Qədimova, solistlər Samir Məmmədov, Leyla Mehdiyeva, Çinarə İsgəndərova, Şirvan Cahangirov, Rövşən Məmmədov çıxış ediblər.

Gecədə "Zabul segah", "Bayatı-Şiraz", "Mahur təsnifi", "Dilkəş təsnifi", "Segah təsnifi", xalq mahnıları səsləndirilib. Sahil Quliyevin bədii rəhbərliyi, baletmeyster Sənan Cavadovun quruluşu ilə "Göygöl" Dövlət Mahnı və Rəqs Ansamblının çıxışları hərarətlə qarşılanıb.

Gecədə Fikrət Verdiyevin həyat və yaradıcılığından bəhs edən film, Xalq artisti haqqında deyilən fikirlərlə bağlı videoçarxlar nümayiş etdirilib.

## İşgüzar görüş

**İordaniya Turizm Bürosu tərəfindən təşkil edilmiş birhəftəlik tanışlıq səfərində iştirak etmək üçün hazırda bir qrup Azərbaycan turizm şirkəti nümayəndələri İordaniya Krallığındadır.**



Məqsəd iki ölkə arasında turizm əlaqələrini inkişaf etdirmək, turistlərin qarşılıqlı mübadiləsi və yaxın vaxtlarda açılması planlaşdırılan birbaşa hava əlaqəsinə töhfə verməkdir. Bu məqsədlə İordaniyanın paytaxtı Amman şəhərində Azərbaycanı təmsil edən 5 turizm şirkəti ilə İordaniyanın 20 yerli turizm şirkəti arasında işgüzar (b2b workshop) görüş təşkil edilib.

# Paytaxtda 29, bəzi bölgələrdə isə 31 dərəcə isti olacaq

**Azərbaycanda aprelin 26-na gözlənilən hava proqnozu açıqlanıb.**



Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava şəraitinin əsasən yağmursuz keçəcəyi gözlənilir. Gecə və səhər bəzi yerlərdə zəif duman olacaq. Mülayim cənub-şərq küləyi əsəcək. Havanın temperaturu gecə 14-17°, gündüz 24-29° isti olacaq. Atmosfer təzyiqi normadan yüksək - 763 millimetr civə sütunu, nisbi rütubət gecə 50-60, gündüz 40-50 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli az yağıntılı, zəif duman olacağı ehtimalı var. Şərq küləyi əsəcək, bəzi şərq rayonlarında arabir güclənəcək. Havanın temperaturunun gecə 12-17°, gündüz 26-31° isti, dağlarda gecə 7-12°, gündüz 15-20° isti olacağı ehtimal edilir.

Naxçıvan şəhərində, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarında hava yağmursuz keçəcək. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 9-14°, gündüz 25-30° isti olacaq.

Xankəndi şəhərində, Şuşa, Xocalı, Xocavənd, Ağdam, həmçinin Daşkəsən, Gədəbəy, Göygöl rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz yüksək dağlıq ərazilərdə havanın qısamüddətli az yağıntılı olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi yerlərdə arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 5-10°, gündüz 16-21° isti olacağı proqnozlaşdırılır.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi yerlərdə arabir duman olacaq. Şərq küləyi əsəcək.

Havanın temperaturunun gecə 6-11°, gündüz 15-20° isti, bəzi yerlərdə 23-25° isti olacağı bildirilir.

Gəncə şəhərində, Qazax, Samux, Goranboy, Tərtər, Şəmkir, Tovuz, Naftalan, Füzuli rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq ərazilərdə havanın qısamüddətli az yağıntılı olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi yerlərdə arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 11-16°, gündüz 26-31° isti olacağı ehtimal edilir.

Mingəçevir şəhərində, Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Ağdaş, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi yerlərdə arabir duman olacaq. Şərq küləyi əsəcək, bəzi şərq rayonlarında arabir 15-20 metr/saniyəyədək güclənəcək. Havanın temperaturunun gecə 10-15°, gündüz 23-28° isti, dağlarda gecə 7-12°, gündüz 20-25° isti olacağı ehtimalı var.

Şirvan şəhərində, Yevlax, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Bərdə, Beyləqan, Sabirabad, Saatlı, Göyçay, Ucar, Hacıqabul, Zərdab, Salyan, Neftçala rayonlarında hava yağmursuz keçəcək. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 12-17°, gündüz 26-31° isti olacağı gözlənilir.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara, Biləsuvar, Cəlilabad rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi yerlərdə arabir duman olacaq. Şərq küləyi əsəcək.

Havanın temperaturu gecə 11-15°, gündüz 23-28° isti, dağlarda gecə 9-13°, gündüz 20-25° isti olacaq.


## OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

### "AZƏRBAYCAN" *qəzetinə*

### *2024-cü il üçün abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Azərmətbuatyayımı" ASC* | (012) 441-19-91, (050) 322-33-17 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**


RƏSMİ DÖVLƏT QƏZETİ
AZƏRBAYCAN
AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI
Azərbaycan-Qırğızıstan: mövqelər tam üst-üstə düşür
Qırğızıstan Prezidenti Sadır Japarovun Azərbaycana dövlət səfəri
İlham Əliyevin uğur formulu
DÜŞÜNÜLMÜŞ siyasət strategiya və DÜZGÜN taktika diplomatiya
Prezident İlham Əliyev ADA Universitetində "COP29 və Azərbaycan üçün Yaşıl Baxış" mövzusunda keçirilmiş beynəlxalq forumda iştirak edib
İlham ƏLİYEV:
Sadır JAPAROV:
azerbaijan-news.az

## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*

## «AZƏRBAYCAN» qəzetinin reklam xidməti 539-49-20


# ALLAH RƏHMƏT ELƏSİN!

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı YAP İdarə Heyətinin üzvü Mübariz Qurbanlıya bacısı

**ZƏRƏNGİZ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Dövlət Gömrük Komitəsinin sədri Şahin Bağırov və komitənin kollektivi uzun illər gömrük orqanlarında xidmət etmiş, gömrük xidməti general-mayoru

**ARİF ƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Akademik İradə Hüseynova Azərbaycan Respublikası Milli Məclisinin Səhiyyə komitəsinin sədri, akademik Əhliman Əmiraslanova qardaşı

**VAQİF ƏMİRASLANOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin rəhbərliyi və kollektivi akademik Əhliman Əmiraslanova qardaşı

**VAQİF ƏMİRASLANOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Təhlükəsizlik Şurasının katibinin müavini Mədət Quliyev Azərbaycan Respublikasının ilk insan hüquqları üzrə müvəkkili (ombudsman)

**ELMİRA SÜLEYMANOVANIN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Rəyasət Heyəti və kollektivi Mehdi Dadaşova anası

**ELMİRA SÜLEYMANOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Rəyasət Heyəti və kollektivi YAP İdarə Heyətinin üzvü Mübariz Qurbanlıya bacısı

**ZƏRƏNGİZ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov, komissiyanın üzvləri və Katibliyin rəhbərliyi Yeni Azərbaycan Partiyası İdarə Heyətinin üzvü Mübariz Qurbanlıya bacısı

**ZƏRƏNGİZ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclisin İntizam komissiyasının sədri Eldar İbrahimov və komissiya üzvləri Milli Məclisin Səhiyyə komitəsinin sədri, akademik Əhliman Əmiraslanova qardaşı

**VAQİF ƏMİRASLANOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının kollektivi Milli Məclisin Səhiyyə komitəsinin sədri, akademik Əhliman Əmiraslanova qardaşı

**VAQİF ƏMİRASLANOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikasının maliyyə naziri Samir Şərifov və nazirliyin kollektivi Milli Məclisin deputatı, Səhiyyə komitəsinin sədri, akademik Əhliman Əmiraslanova qardaşı

**VAQİF ƏMİRASLANOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Siyavuş Novruzov və Səbinə Əliyeva Yeni Azərbaycan Partiyası İdarə Heyətinin üzvü Mübariz Qurbanlıya bacısı

**ZƏRƏNGİZ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

İxtiyar Hüseynli Mehdi Dadaşova anası, professor

**ELMİRA SÜLEYMANOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Rüstəm Rüstəmov, Abit Əliyev, Ayaz və Əlikram Qasımovlar, Elxan İlyasov və Rafiq Hüseynov "CasaMia" şirkətinin prezidenti Cavid Hüseynova və həmin şirkətin əməkdaşı Cavid Əsədova əzizləri

**İBRAHİM CAVAD OĞLU HÜSEYNOVUN**

Samux rayonunda vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bəxtiyar Sadıqov, Bəxtiyar Əliyev, Elman Məmmədov və İmamverdi İsmayılov professor

**ELMİRA SÜLEYMANOVANIN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva və Aparatın kollektivi Azərbaycan Respublikasının sabiq ombudsmanı, dövlət və ictimai xadim, professor

**ELMİRA SÜLEYMANOVANIN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Siyavuş Novruzov ailəsi ilə birlikdə dövlət və ictimai xadim, professor

**ELMİRA SÜLEYMANOVANIN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Memarlar İttifaqının İdarə Heyətinin sədri Elbay Qasımzadə Mehdi Dadaşova anası

**ELMİRA SÜLEYMANOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Tibb Universitetinin rektorluğu və Həmkarlar İttifaqı Komitəsi I Uşaq xəstəlikləri kafedrasının professoru

**NƏSİB QULİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Müdafiə Sənayesi Nazirliyi Milli Aerokosmik Agentliyinin baş direktoru Natiq Cavadov YAP-ın İdarə Heyətinin üzvü Mübariz Qurbanlıya və Tariyel Qurbanova bacıları

**ZƏRƏNGİZ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Qafqaz Müsəlmanları İdarəsinin sədri, Şeyxülislam Allahşükür Paşazadə və Milli Məclisin deputatı Cavanşir Paşazadə Milli Məclisin Səhiyyə komitəsinin sədri, akademik Əhliman Əmiraslanova qardaşı

**VAQİF ƏMİRASLANOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Qafqaz Müsəlmanları İdarəsinin sədri, Şeyxülislam Allahşükür Paşazadə Mübariz Qurbanlıya bacısı

**ZƏRƏNGİZ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov Milli Məclisin deputatı, Səhiyyə komitəsinin sədri, akademik Əhliman Əmiraslanova qardaşı

**VAQİF ƏMİRASLANOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov Azərbaycan Respublikasının Birinci vitse-prezidentin Katibliyinin rəisinin müavini Mehdi Dadaşova anası

**ELMİRA SÜLEYMANOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin rəhbərliyi Mehdi Dadaşova anası

**ELMİRA SÜLEYMANOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin Katibliyinin rəisinin müavini Mehdi Dadaşova anası

**ELMİRA SÜLEYMANOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

İqtisadiyyat Nazirliyinin rəhbərliyi və kollektivi sabiq ombudsman, professor

**ELMİRA SÜLEYMANOVANIN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Baba Rzayev və "Azərenerji" ASC-nin kollektivi Azərbaycan Respublikasının insan hüquqları üzrə sabiq müvəkkili (ombudsman)

**ELMİRA SÜLEYMANOVANIN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

"Azərenerji" ASC-nin rəhbərliyi və kollektivi YAP-ın İdarə Heyətinin üzvü Mübariz Qurbanlıya bacısı

**ZƏRƏNGİZ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Maliyyə Nazirliyi Aparatının rəhbəri Cavanşir Yusifov və Gəncə Dövlət Universitetinin rektoru Yusif Yusifov Milli Məclisin Səhiyyə komitəsinin sədri, akademik Əhliman Əmiraslanova qardaşı

**VAQİF ƏMİRASLANOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Səbail rayonundan Vuqar Zeynalov Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin Katibliyinin rəisinin müavini Mehdi Dadaşova anası, professor

**ELMİRA XANIM SÜLEYMANOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Qambay Muradov, Hacı Ağaməmməd Məmmədov, Muasir Abdullayev, Bahadur Nəsirov, Azər Baxışov və Elxan Behbudov "CasaMia" şirkətinin prezidenti Cavid Hüseynova və həmin şirkətin əməkdaşı Cavid Əsədova əzizləri

**İBRAHİM CAVAD OĞLU HÜSEYNOVUN**

Samux rayonunda vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Cavid Əsədov, Abit Əliyev, Ayaz və Əlikram Qasımovlar, Elxan İlyasov və Rafiq Hüseynov istefada olan polkovnik Rüstəm Rüstəmova qardaşı

**ZİRƏDDİN QARA OĞLU RÜSTƏMOVUN**

Tovuz rayonunda vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəhbərliyi və kollektivi insan hüquqları üzrə sabiq müvəkkil (ombudsman), professor

**ELMİRA SÜLEYMANOVANIN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Milli Məclisinin Səhiyyə komitəsinin sədri, akademik Əhliman Əmiraslanova qardaşı

**VAQİF ƏMİRASLANOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Əhməd Əhmədzadə akademik Yaqub Mahmudova həyat yoldaşı

**ALMAS SÜLEYMAN QIZI MAHMUDOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Əhməd Əhmədzadə akademik Əhliman Əmiraslanova qardaşı

**VAQİF ƏMİRASLANOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının sabiq insan hüquqları üzrə müvəkkili (ombudsman)

**ELMİRA SÜLEYMANOVANIN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Qambay Muradov, Hacı Ağaməmməd Məmmədov, Muasir Abdullayev, Bahadur Nəsirov, Azər Baxışov və Elxan Behbudov istefada olan polkovnik Rüstəm Rüstəmova qardaşı

**ZİRƏDDİN QARA OĞLU RÜSTƏMOVUN**

Tovuz rayonunda vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Azneftemaş" ASC-nin prezidenti Şahmar Vəliyev Milli Məclisin Səhiyyə komitəsinin sədri, Qərbi Azərbaycan İcması Ağsaqqallar Şurasının sədri, akademik Əhliman Əmiraslanova qardaşı

**VAQİF ƏMİRASLANOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

Tiraj **4249**
Sifariş **896**

Qiyməti 60 qəpik